www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27 avqust 2014-cü il Çərşənbə № 214 (5923) Qiyməti 40 qəpik

**Xəbər**

## Qazaxda daha bir erməni tutuldu

yazısı səh.2-də

**Gündəm**

### Avrasiya Birliyinin yeni Ukraynası Azərbaycan olacaq?



Bakı üçün geri sayım başladı; Putin öz projesinin xilası üçün son savaşa girib; Ukraynanın Rusiyadan aralanması minlərlə insanın, Krımın itkisi hesabına başa gəldi, bəs Azərbaycana neçəyə başa gələcək?..

yazısı səh.8-də

### Həbs edilən hüquq müdafiəçiləri dindirilmir

yazısı səh.4-də

### Müxalifət siyasi məhbuslar problemini müzakirə edəcək

yazısı səh.7-də

### İqtidarla müxalifət dünyanı niyə bölə bilmir?

yazısı səh.8-də

### İki qardaşın bir sirri - Hüseynov qardaşları haradadır?

yazısı səh.10-da

### Ərdoğanın Sərkisyanı inauqurasiyasına çağırmasına ilginc reaksiyalar

yazısı səh.13-də

### Vasif Talıbov kabinetində döyülən komitə sədrini işdən qovdu

yazısı səh.10-da

### Amerikalı jurnalist AzadlıqRadiosunu bağlamağa çağırdı

yazısı səh.12-də

### Bakıda bir ailə bıçaqlandı; 1 ölü, 3 yaralı

yazısı səh.14-də

### Ermənistanın Rusiya ilə quru əlaqəsi kəsildi

yazısı səh.11-də

### Ruslar təyyarədə dava salan azərbaycanlını ermənilərə təhvil vermək istədi

yazısı səh.15-də

## Rusiya Azərbaycan bazarlarına "od qoydu"

# PUTİNİN QƏRBLƏ SAVAŞI BAKIDA SOSİAL PARTLAYIŞ HAZIRLAYIR

**Ekspertdən həyəcan təbili:** "Bu dərəcədə qiymət artımı sosial partlayışa səbəb ola bilər"; meyvə -tərəvəz bazarında qiymətlər nəzarətdən çıxıb, növbədə ət və süd məhsullarıdır; Bakıda bazarlar boşalır...




yazısı səh.3-də

## "Qrantyeyən" QHT-lər haqda sensasion iddialar, ağır tənqidlər

Son günlər vətəndaş cəmiyyəti institutları ilə bağlı baş verənlər təftiş olunur; **Mirvari Qəhrəmanlı:** "QHT-lərin fəaliyyəti kimsəsiz, hüquqları tapdanan insanlara böyük bir köməkdir"; **Azər Ayxan:** "Mətbuatın adı ilə xaricdən külli miqdarda qrant alıb yeyən QHT rəhbərindən hesab sorma zamanıdır"...

yazısı səh.5-də



*Hacı Qalib:*

### "Bilgəhlilərin nə ixtiyarı var ki, narazılıq etsin"

yazısı səh.4-də



### Vəkil Elçin Sadıqov ona qarşı ittihamlara cavab verdi

yazısı səh.4-də



*Nazim İbrahimov:*

### "Abbas Abbasovun Azərbaycan əleyhinə iş aparması yaxşı hal deyil"

yazısı səh.6-da

# Mehriban Əliyeva doğum gününü uşaqlarla birlikdə qeyd etdi



**Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva doğum gününü uşaqlarla birlikdə qeyd edib. APA-nın məlumatına görə, bu gün "Jumeirah Bilgah Beach Hotel"də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə uşaqlar üçün şənlik təşkil edilib.**

Tədbirdə uşaq evləri və internat məktəblərindən, Daun Sindromlu Şəxslərin Assosiasiyasından gəlmiş 400-ə yaxın uşaq iştirak edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın və Arzu Əliyevanın da iştirak etdikləri tədbirdə Azərbaycanın birinci xanımı ətrafına toplaşmış uşaqların sevincini bölüşüb, onlarla səmimi söhbət edib. Mehriban Əliyeva, Leyla Əliyeva və Arzu Əliyeva uşaqlarla birgə rəqs ediblər.

Prezident İlham Əliyev həyat yoldaşı Mehriban Əliyevanı ad günü münasibətilə təbrik edib.

Axar.az xəbər verir ki, bu barədə prezidentin qızı Arzu Əliyeva özünün rəsmi facebook səhifəsində yazıb.

**İlham Əliyev öz ürək sözlərini xanımına belə çatdırıb: "Ailədə yaxın münasibətlər hər bir insan üçün ən böyük dəyərdir. Ailə anlamında mən çox xoşbəxtəm. 30 ildir öz sevimli həyat yoldaşımla birlikdəyəm, amma elə bil ki, biz bu yaxınlarda evlənmişik. Həyatımın ən xoşbəxt saatları evdə, ailəmlə birlikdə olduğum vaxtlardır".**

# Metroda gediş haqqı artırılmayacaq

**"Bakı Metropoliteni" QSC metroda gediş haqqının artırılması üçün Tarif Şurasına müraciət etməyib, etmək fikri də yoxdur. "APA-Economics"in məlumatına görə, bunu APA TV-nin "Sosium" verilişinin qonağı olan QSC-nin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bildirib.**

Onun sözlərinə görə, metroda sərnişindaşıma xərcləri hazırkı qiymətdən iki dəfə artıqdır, ancaq qiyməti qaldırmaq barədə qurumun rəhbərliyi tərəfindən Tarif Şurasına müraciət olunması nəzərdə tutulmur: "Hələ ki qiymət artımı gözlənilmədiyindən, metro sərnişinlərinin gediş haqqı ilə bağlı narahatçılığına əsas yoxdur".

**Nəsimi Paşayev həmçinin deyib ki, Bakı Metropolitenində ticarət köşkləri olmayacaq:** "Hazırkı qərarımız ondan ibarətdir ki, Bakı Metropolitenində ticarət köşkləri adında heç bir şey olmasın. Təbii ki, bu, dünya təcrübəsində var. Bu gün Moskva və digər şəhərlərin metropolitenlərində ticarətin başqa növlərindən istifadə olunur. Amma bizim hazırdakı Bakı Metropolitenində ticarət köşklərinin bərpası ilə bağlı heç bir planımız yoxdur".

**Bakı Metropolitenində reklamların yerləşdirilməsinin bərpasına gəldikdə isə N. Paşayev deyib ki, gələcəkdə bu, mümkün ola bilər:** "Reklamların bərpa olunacağı təqdirdə daha müasir görünüşlü reklam daşıyıcılarından istifadə olunsun ki, onlar sərnişinlərin təhlükəsizliyinə, hərəkətinə və onların narahatçılığına səbəb olmasın".

# Amerikada hicablı qadın döyüldü


Buşra Baxda

**Ferqüson hadisələri fonunda ABŞ-da zorakılıq halları baş alıb getməkdədir. "İndy Star" qəzetinin verdiyi məlumata görə, İndiana ştatının Eyvon şəhərində müsəlman qadın hücuma məruz qalıb. 42 yaşlı Buşra Baxda öz həyat yoldaşı və iki azyaşlı övladı ilə bərabər Walmart hipermarketindən alış-veriş edib çıxarkən siyahıda alınacaq bəzi şeyləri unutduğunu görüb və təkcə geri qayıdıb. Gözlənilmədən mağazaya girişdə dayanan gənc oğlan onlarla insanın gözü qarşısında var gücü ilə hicablı qadının çiyninə zərbə endirib və qaçıb. Müsəlman xanımın həyat yoldaşı onun dalınca qaçsa da, çata bilməyib. Ancaq quldurun əksi izləmə kameralarına düşüb. Müsəlman ailə polisə müraciət edib, araşdırma aparılır.**


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
*İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:*

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbest seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

*Ən başlıcası gündəlik*
*«Yeni Musavat » qəzetinə–0,40 man*
*və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.*

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


# Qazaxda daha bir erməni tutuldu

## Kəmərli kəndində yaxalanan ermənidən şok sözlər: "Ermənistanda yaşaya bilmirik, Azərbaycan təminat versə, hamımız buraya köçərdik"

**Qazağın Kəmərli kəndində hərbçilərimiz tərəfindən erməni millətindən olan bir nəfər yaxalanıb. Bu barədə musavat.com-a bölgə müxbirimiz xəbər verib. Ondakı ilkin məlumata görə, kişi cinsindən olan erməni Kəmərli sakini Adıgözəl Dursunovun həyətində müəyyən olunub.**



Müxbirimiz bu məlumata əlavə olaraq bildirib: "Azərbaycanda tutulan erməni 53-54 yaşlı kişidir. O, həbs olunan zaman deyib ki, Ermənistanda həyat səviyyəsi aşağıdır, yaşaya bilmirlər, bu səbəbdən də Azərbaycana qaçıb. Onun sözlərinə görə, 3-4 nəfər erməni də Azərbaycana keçmək üçün qərarlıdır və bir neçə gün ərzində imkan düşən kimi, onlar da Azərbaycana keçəcəklər. O deyib ki, Azərbaycan təminat versə, ermənilərdən ibarət böyük bir qaçqın dəstəsi buraya keçər".

Kəmərli kəndində olan müxbirimizi əsir götürülən erməniyə yaxın buraxmayıblar. Əməkdaşımız Adıgözəl Dursunovla telefon əlaqəsi yaradıb. O bildirib ki, özü Kəmərli kənd icra nümayəndəsidir. Erməni də hərbçilər tutduqdan sonra qısa müddətə kənd icra nümayəndəliyinə gətiriblər. 20 dəqiqəyə yaxın bir müddətdə əsir erməni onun otağında olub. Daha sonra hərbçilər onu aparıblar.

Müdafiə Nazirliyindən və rəsmi qaynaqlardan dəqiqləşdirmə edə bilmədiyimiz üçün kənddəki müxbirimizdən gələn məlumatları dərc etmək məcburiyyətində qaldıq.

**Qəzetimiz çapa gedənədək erməninin ad-soyadı bəlli deyildi və rəsmi açıqlama yox idi.**


Tatyana Kryuçkina

# RATİ-nin mühasibi yenidən istintaqa çağırıldı

**Avqustun 26-da saat 15-dən Reportyorların Azadlıq və Təhlükəsizlik İnstitutunun (RATİ) mühasibi Tatyana Kryuçkinanı Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsində şahid qismində dindirməyə başlayıblar..**

Tatyana Kryuçkina ilk dəfə avqustun 21-də şahid qismində dindirilib.

Avqustun 25-də RATİ-nin digər əməkdaşı Əbülfət Namazov 3 saatadək Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində şahid qismində dindirilib. Avqustun 14-də RATİ-nin sədr müavini Günay İsmayılova dindirilib.

Avqustun 8-də Baş Prokurorluğun Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsi RATİ-nin ofisində axtarış aparıb. Ofisdən 15 kompüter *(prosessor və monitor)*, 7 noutbook, 3 kamera, 12 fotoaparat, çoxsaylı yaddaş kartları, 200-dən çox videokaset, 200-dək disklər, 20-dən çox hard disklər, təhlükəsizlik kamerasının yaddaş diski, çoxsaylı sənədlər, - qrant müqavilələri, mühasibatlıq sənədləri, hüquqi sənədlər, möhürlər götürülüb.

RATİ-nin direktoru Emin Hüseynovun ata evindən isə anasına məxsus kompüter, planşet və bir neçə sənəd götürülüb.

Avqustun 11-də isə prokurorluq RATİ-nin ofisinin qapılarını möhürləyib. Bununla da təşkilatın fəaliyyəti faktiki olaraq dayanıb.

# Vüsal Şilderə görə sabiq polis mayoruna 6 il 6 ay həbs verildi

**Binəqədi Rayon Məhkəməsində Almaniya vətəndaşı, Qərb Universitetinin tələbəsi, 1992-ci il təvəllüdlü Vüsal Şilderin qətlə yetirilməzdən öncə onun maşınına narkotik vasitə atmaqda ittiham olunan - İlham Məmmədov, Qurban Novruzovov, Kənan Babayev və Türkiyə vətəndaşı Yaşar Sumerin məhkəmə istintaqı yekunlaşıb.**


Vüsal Şilder

Virtualaz.org saytının verdiyi xəbərə görə, məhkəmənin hökmü ilə İlham Məmmədov 6 il 6 ay , Qurban Novruzov 6 il 6 ay, Yaşar Sumer 4 il 6 ay müddətinə azadlıqdan məhrum ediliblər. Kənan Babayevə isə 4 il şərti cəza təyin edilib.

Xatırladaq ki, keçmiş polis mayoru İlham Məmmədov, Qurban Novruzov, Yaşar Sumer və Binəqədi Rayon Polis İdarəsi 7-ci polis bölməsinin keçmiş rəis müavini Kənan Babayev qabaqcadan əlbir olaraq 2013-cü il aprel ayının 11-də Vüsal Şilder tərəfindən idarə olunan avtomaşını qəsdən zədələməklə ona xeyli miqdarda ziyan vurublar, vəzifə səlahiyyətlərini aşaraq və vəzifə səlahiyyətlərindən sui-istifadə edərək ağır cinayət törədiblər. Toplanmış faktlar üzrə adları çəkilən şəxslər barəsində Cinayət Məcəlləsinin 186.2.2, 32.5, 309.2 və 308.1-ci maddələri ilə cinayət işi açılıb.

2013-cü il mayın 2-də isə 23 yaşlı Vüsal Şilder Bakının Nərimanov rayonu Ə.Rəcəbli küçəsində bıçaqlanaraq öldürülüb. Daxili İşlər Nazirliyinin Baş Cinayət-Axtarış İdarəsi, Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət-Axtarış İdarəsi, Nərimanov Rayon Polis İdarəsinin cinayət-axtarış şöbəsi, 18-ci polis bölməsi və Şabran Rayon Polis Şöbəsi əməkdaşlarının birgə keçirdiyi əməliyyat tədbirləri nəticəsində qətldə şübhəli bilinən, əvvəllər məhkum olunmuş Elman İsgəndərov, Seymur Talıbov və Rüfət Zakirov saxlanılıblar *(Məlumat üşün bildirək ki, onların cinayət işinə Bakı Ağır Cinayətlər Məhkəməsində ayrıca baxılır -red.).*

Qeyd edək ki, cinayət işində adı hallanan Xəyal Əlizadə uzun illər daxili işlər orqanlarında yüksək vəzifələrdə çalışmış Məzahir Əliyevin oğlu, Prezident Administrasiyasının sabiq işçisi Tariyel Ağayevin *(mərhum prezident Heydər Əliyevin keçmiş köməkçisi-red.)* kürəkənidir.

Bir müddət əvvəl X.Əlizadənin Birləşmiş Ərəb Əmirliklərində saxlanıldığı və ekstradisiya olunması üçün tədbirlər görüldüyü barədə məlumat verilmişdi.

Onu da qeyd edək ki, V.Şilderin atası Adolf Şilder bir vaxtlar "Mercedes Benz"in Azərbaycan nümayəndəliyinin rəhbəri işləyib.


## "Elm" tədris mərkəzi
**MAGIC LANGUAGES**

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05




# Elçin Şıxlı jurnalistikadan gedir

**"Ayna"-"Zerkalo" qəzetlərinin təsisçisi və baş redaktoru Elçin Şıxlı rəhbərlik etdiyi mətbu orqanların fəaliyyətinin birdəfəlik dayandırılması haqqında qərar verib.**

Bu barədə aktual.az-a Elçin Şıxlı məlumat verib.

O deyib ki, rəhbərlik etdiyi "Ayna"-"Zerkalo" qəzetlərinin fəaliyyətini müvəqqəti olaraq dayandırsa da, qəzetlərin yenidən çapı üçün hər hansı bir yenilik olmadığına görə bu qərarı qəbul etmək məcburiyyətində qalıb:

"Yaxın günlərdə qəzetləri birdəfəlik bağlamaq haqda elan verəcəm. Hətta vəziyyət o yerə gəlib çatıb ki, jurnalistikadan birdəfəlik getmək haqda da düşünürəm. Çünki normal jurnalistika ilə məşğul olmağın heç bir mənası yoxdur. Qoy havalar bir az sərinləşsin, beynimiz bir az rahatlaşsın, görək başımıza nə iş gəlir".


Mübariz Mənsimov

# Azərbaycanlı iş adamı 2,5 milyona sualtı gəmi aldı

**Türkiyədə yaşayan azərbaycanlı iş adamı Mübariz Mənsimov özünə sualtı gəmi sifariş edib. Hafta.az-ın Türkiyə mətbuatına istinadən məlumatına görə, dəyəri 2,5 milyon dollar olan gəmi ABŞ-dan gətiriləcək. Özü və ailəsi üçün heç bir xərcdən qaçmayan dünyanın ən varlı insanlarından olan M.Mənsimov göydə və dəniz üstündəki dəbdəbə sevgisini indi də suyun dibində yaşamaq qərarına gəlib.**

Yayı Bodrumdakı "Palmarina"da keçirən iş adamının orada böyük yaxtası və təyyarəsi var. 15 gün ərzində Bodruma gətiriləcək sualtı gəmi xüsusi olaraq hazırlanıb: içərisində kiçik bar, hamam, lüks otaqlar var. Ətrafı isə gülləkeçirməz şüşələrlə əhatə olunub.

Bir müddət əvvəl isə M.Mənsimovun qızları Nüşabə və Begimə, oğlu Mübarizə istirahətdə rahat gəzmələrinə görə kiçik motorlu "Ferrari" və "BMW" markalı avtomobillər aldığı bildirilmişdi.

YENİ MÜSAVAT
N 214 (5923) 27 avqust 2014



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Rusiya Azərbaycan bazarlarına "od qoydu"

**Rusiyanın Qərb ölkələrinə sanksiya tətbiq etməsindən sonra Azərbaycandan ərzaq idxalını artırması yerli bazarlarda gözlənildiyindən daha çox bahalaşmaya səbəb olub. Paytaxt Bakıda ərzaq bazarında meyvə-tərəvəzdə qiymət artımı idarə olunmaz həddə çatıb. Son bir həftə ərzində bəzi məhsulların qiyməti iki dəfə artıb. Mövcud durumu ətraflı öyrənmək üçün "Yeni Müsavat"ın əməkdaşı Bakının "8-ci kilometr" bazarında olub və vəziyyəti müşahidə edib.**



# Putinin Qərblə savaşı Bakıda sosial partlayış hazırlayır

**Ekspertdən həyəcan təbili:** "Bu dərəcədə qiymət artımı sosial partlayışa səbəb ola bilər"; Meyvə -tərəvəz bazarında qiymətlər nəzarətdən çıxıb, növbədə ət və süd məhsullarıdır; Bakıda bazarlar boşalır...





### Piştaxtalarda məhsul yoxdur, bazarda alıcı

Bazara daxil olarkən ilk müşahidə etdiyimiz piştaxtalarda məhsulun az olması idi. Əsasən pomidor, xiyar və bəzi meyvələr satılan hissədə kasadlıq müşahidə olunurdu. Bundan əlavə, adətən alıcı əlindən hərəkət etməyin mümkünsüz olduğu bir bazarda müştəri gözə dəymirdi. Bütün bunların səbəbini izah edən **satıcı Rəsul Güləliyev** bildirdi ki, bostan bitkilərindən qarpız və yemişin, tərəvəzlərdən isə pomidor və xiyarın qiymətində kəskin artım müşahidə olunur: "Yemiş və qarpız 20 qəpik bahalaşıb. Əvvəl kilosu 20 qəpiyə satılan qarpız indi 50 qəpikdir. Bundan əlavə, topdansatış məntəqələrində də bu məhsullar azalıb. Əgər əvvəl 100-200 ton qarpız gəlirdisə, indi 40 tondan artıq gəlmir. Pomidor və xiyar isə 2 dəfə bahalaşıb. Topdansatış məntəqələrində əvvəl 30 qəpiyə satılan pomidor indi 60-70 qəpikdir. Satışı isə 80 qəpik - 1 manat arasında dəyişir. Xaçmaz pomidoru demək olar ki, azalıb. Kilosu 1 manata və daha baha satılır".

Müşahibim onu da bildirdi ki, əhalinin alıcılıq qabiliyyəti kəskin şəkildə azalıb, bazarda demək olar ki, müştəri yoxdur.

**Digər satıcılar da bahalaşmanın olduğunu bildirərək, yerli bazarda məhsulun azaldığını vurğuladılar. Satıcı Aydın Seyfullayev deyir ki, əhalidə alıcılıq qabiliyyəti ölüb:** "Daha heç kim bu bazara gəlmir. Çünki qiymətlər qalxıb, demək olar ki, məcbur olub marketlərlə eyni qiymətə satırıq. Onlar da yaxınlıqdakı dükandan alırlar. Əvvəl bu bazara ucuzluğa görə gələrdilər. İndi gördüyünüz kimi, heç kim yoxdur".

### "Bura məhsul yox, zir-zibil gəlir"

**Yerli məhsulların Rusiya bazarına daşınmasına etiraz edən satıcı Əli Şükürov isə meyvə-tərəvəzin ixrac olunmasını kəskin pisləyir:** "Meyvə-tərəvəzin Rusiyaya aparılması bizə heç sərf eləmir. Məhsul qıtlaşıb, bahalaşıb. 70 qəpiyə aldığımız pomidoru məcbur olub camaata 50-60 qəpiyə satırıq. Gələn məhsullar da hamısı əzik-çürük tərəvəzlərdir, yerli bazara ancaq zir-zibil göndərirlər. O məhsullar da bir gündən artıq qalmır. Hər axşam neçə yeşik pomidoru zibilliyə atırıq. Yerli məhsulların Rusiyaya daşınması qara camaatın belini qıracaq".

**Tərəvəzlərdə olduğu kimi əksər meyvələrin də qiymətində artım müşahidə olunur. Satıcılardan Fazil Ərəbov deyir ki, üzüm, gavalı, alma, armud, şaftalı və digər meyvələr artıq bahalaşıb:** "Üzümün topdansatış qiyməti 40-50 qəpik idi. İndi 80 qəpikdir. Biz də 80 qəpiyə alıb 1 manata satırıq. Qara gavalı demək olar ki, tapılmır. Bir həftə əvvəl 25 qəpik idi, indi qiyməti 70 qəpikdir, 3 dəfə bahalaşıb. Alıcılıq isə çox zəifləyib, bazara gələn yoxdur".

Satıcıların dediklərini təsdiqləyən alıcılar da bildirdilər ki, məhsulların bahalaşması ilə əlaqədar olaraq ərzaq səbətində bu meyvə-tərəvəzin çəkisini azaldıblar. Bəziləri bahalaşma səbəbindən qışa hazırlıq görə bilmədiyindən, bəziləri isə süfrəyə yetərincə meyvə-tərəvəz qoya bilmədiklərindən narazılıq etdi. Alıcıların əksəriyyəti yerli bazarda bu şəkildə qıtlıq olduğu dövrdə Rusiya bazarına məhsul ixracının əleyhinə olduğunu bildirdi.

Söhbət etdiyimiz bəzi alıcılar bu durumun səbəbini mövsümlə əlaqələndirsələr də, əksəriyyəti ən yaxşı məhsulların Rusiya bazarına daşındığını və yerli bazarda keyfiyyətli məhsul qalmadığını bildirdi.

### Ekspert: "Artıq gecdir"

**Bəs bu durum nə zamana qədər davam edəcək? Daha hansı məhsullarda bahalaşma gözlənilir? Problemin həlli üçün hansı addımlar atılmalıdır? "Yeni Müsavat"ın bu suallarını aqrar sahə üzrə ekspert Vahid Məhərrəmov cavablandırıb. Ekspert bildirib ki, bu durumu düzəltmək üçün hər hansı təbdir görmək artıq gecdir:** "Bir aya yaxındır ki, biz hökumətə xəbərdarlıq edirdik ki, tədbir görülməsə nələr baş verəcək. İndi yeganə çıxış ona qalıb ki, bizim hökumət də Rusiya hökuməti kimi məsləhətləşmələr aparsın, yerli bazarda azalan məhsulları digər ölkələrdən idxal etmək hesabına təmin etsin. Digər ölkələrdə bizim nümayəndələr, səfirliklərimiz var. Onlar həmin ölkələrin rəhbərliyi ilə danışıqlar aparmalı və o məhsulların ixrac olunması istiqamətində müəyyən işlər görülməlidir. Gömrükdə inhisarçılıq aradan qaldırılmalıdır ki, istehlakçılar qıtlıqdan əziyyət çəkməsinlər.

### "Ət və süd məhsulları da bahalaşacaq"

Təəssüflər olsun ki, təkcə meyvə-tərəvəz yox, ət və süd məhsullarında da bahalaşma müşahidə olunacaq. Biz bu haqda artıq xəbərdarlıq etmişik. Çünki əvvəllər Gürcüstandan çoxlu sayda iribuynuzlu mal-qara idxal edirdik. Bu il Gürcüstan həmin mal-qaranı Rusiya bazarına ixrac etmək niyyətindədir. Həm də bu il mal-qara arasında xəstəliklər geniş yayıldı, tələfata səbəb oldu. Həmçinin bu il yem qıtlığı da var və bu da ət, süd istehsalında özünü göstərəcək. Məhsulun azalması qiyməti çox ciddi şəkildə artıracaq".

### Hökumət nə etməli?

**Ekspert bildirdi ki, hökumət çox ciddi olaraq bu işlə məşğul olmalıdır, təcili addımlar atmalıdır:** "Xarici ölkələrdən həmin məhsulların Azərbaycana gətirilməsini təmin etməlidir. İnhisarçılıq təcili aradan qaldırılmalıdır. Çünki bu dərəcədə qiymət artımı sosial partlayışa səbəb ola bilər. Onsuz da bizim əhalinin alıcılıq qabiliyyəti aşağıdır. Minimum əmək haqqı da aşağıdır. Bütün bunlar nəzərə alınmalıdır. Elə etmək lazımdır ki, kənd təsərrüfatı məhsulları sadə insanlar üçün əlçatan olsun".

❑ **Nərgiz LİFTİYEVA**

# "Öz xalqı ilə sıfır problem" siyasəti...



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Sabah Türkiyə Cümhuriyyəti tarixində ilk dəfə olaraq xalqın seçdiyi prezidentin andiçmə mərasimi keçiriləcək. Yeni prezident Rəcəb Tayyib Ərdoğanın konstitusiya ilə bahəm, müqəddəs Qurana da əl basaraq and içəcəyi gözlənilir.**

Bir inanc adamı, modern islamçı kimi andın, üstəlik, müqəddəs kitabımıza əl basılaraq içilən andın hansı anlamda olduğunun kim bilməsə də AKP lideri yəqin ki, yaxşı fərqindədir. Ərdoğan isə nə qədər bişmiş və təcrübəli siyasətçi olsa da, qarşıdakı 5 ildə yeni postda onu olduqca sərt sınaqlar, bənzərsiz imtahanlar gözləyir.

Doğrudur, xalqdan birbaşa mandat almasına rəğmən, hələ ki, onun prezident səlahiyyətləri geniş deyil; yəqin ki, bu da olacaq. İstənilən halda dövlət adından qərarlar onun adından veriləcək, onun adından imzalanacaq. Başqa yandan, Ərdoğanın xarizması sövq-təbii hökumətin mövqeyinə təsir edəcək - bu hökumətin başında bir ildən sonra AKP-çi olsa da, olmasa da...

Yaxın Şərq, Fələstin, İraq, Suriya, İŞİD, islamofobiya, PKK-kürd, Krım-Ukrayna, Qarabağ-qafqazlar, saxta soyqırımın 100 illiyi və Ermənistanla sərhəd, Rusiya, İsrail və Qərblə münasibətlər - bütün bu məsələlər ələlxüsus qarşıdakı bir ildə bütün aktuallığı və kəskinliyi ilə Türkiyə qarşısında duracaq. Onlardan uğurla çıxmaq üçün yeni prezident olduqca çevik və effektli diplomatiya izləməli, birə-beş əziyyətlərə qatlaşmalıdır.

Qaradaş ölkənin bu mərhələni problemsiz adlaması üçün Azərbaycan onun yanında qərar tutması da çox mühüm şərtdir. Taleyin, qədərin birləşdirdiyi iki dövlət ölçülü-biçili, ortaq siyasət aparmağı bacarmalıdır. Bundan ötrü yeri gələndə biri digərinin sözünü udmağı bacarmalı, məkrli düşmənlərin informasiya-təbliğat tələsinə bilmərrə düşməməlidir.

Türkiyə sözsüz ki, böyük dövlət, iri regional oyunçu, NATO-nun bölgədə vazkeçilməz ölkəsidir, müsəlman dünyasının ən demokratik dövlətidir. Fəqət, qardaş ölkənin düşmənləri, gözü götürməyənləri də az deyil. Həm də o səbəbə ki, qeyd edildiyi kimi, müsəlman ölkəsidir və şanlı imperiya keçmişi var.

Bu iki reallığa hətta NATO alayansı daxilindəki bəzi müttəfiq ölkələr belə (misal üçün, Fransa) vaxtaşırı qısqanclıqla yanaşır, onu rəsmi Ankaraya bağışlaya bilmirlər. Ona görə ki, Türkiyədən, onun getdikcə artan nüfuzundan, iqtisadi-hərbi qüdrətindən və regiondakı təsir potensialından daim ehtiyatlanırlar.

Hə iki amil dəyişməz qalacağından *(Türkiyə nə xristian ölkəsinə çevriləsidir, nə də öz imperiya keçmişindən imtina edəsidir)*, qardaş ölkə müttəfiq saydığı dövlətlərin bəzilərindən ara-sıra xəyanət gözləməkdə davam etməli olacaq. Amma bütün hallarda güclü xarici siyasət dost-müttəfiqlərin sayının artırılmasına gətirməlidir, rəqib-düşmənlərin yox.

Ankaranın xarici siyasət kursunun qayəsində isə baş nazirliyə hazırlaşan Əhməd Davudoğlunun memarı olduğu "qonşularla sıfır problemi" siyasəti dayanır. Ərdoğanın prezidentliyi dönəmində bu siyasətin "uzaq qonşularla da sıfır problem" siyasətinədək uzanması gərəkir. Bu isə öncəliklə uğurlu daxili siyasət - "öz xalqı ilə sıfır problem" və bir də Azərbaycanla uğurlu ortaq və çevik sinxron siyasət hesabına reallaşa bilər.

Şablon çıxsa da, bu yerdə yenə yazaq ki, bəzən təkrarda fayda olur: Türkiyənin gücü və problemləri Azərbaycanın gücü və problemi, Azərbaycanın imkanları və dərd-səri Türkiyənin şansı və dərd-səridir. Kim şəkk edir ki, saxta genosid məsələsində qardaş ölkənin küncə sıxışdırılması Azərbaycanın da Qarabağ məsələsində təklənib küncə sıxışdırılmasına gətirməyəcək?

Belə bəd perspektivdən qaçmaq üçün Azərbaycan iqtidarı da nə qədər gec deyil, daxildə "öz xalqı ilə sıfır problem" barədə fikirləşsə, pis olmaz. Əgər Qarabağ gerçəkdən də ondan ötrü əzizdirsə...


Elçin Sadıqov

# “Sizin qarayaxmalarınız və mənim haqlarım”

## Vəkil Elçin Sadıqov ona qarşı ittihamlara cavab verdi

**“...Hər şey ondan başladı ki, vətəndaş cəmiyyəti qurumlarının hazırladığı siyasi məhbus olduqları güman edilən şəxslərin siyahısı açıqlandı... Mən o zaman bununla bağlı internet üzərindən rəyimi soruşan jurnalistə yalnızca bunları bəyan etdim ki, həmin siyahıya nə mən, nə də rəhbəri olduğum təşkilat dəstək verib”.**

Bu sözlər vəkil Elçin Sadıqova məxsusdur. O, son günlərdə bəzi media orqanlarında aşağılanmasına dair yazı yazıb.

Vəkil qeyd edir ki, son 15 gündə ciddi qarayaxma kampaniyasına məruz qalıb: “Mənə hücumların ardıcıllığı belə idi:

- Jurnalist Xədicə İsmayıl vəkil olaraq mənim xidmətimdən imtina etdi. Halbuki həmin vaxtı ümumiyyətlə mən onun vəkili deyildim. Xədicə xanım başqalarını da buna çağırdı. Onlarla tanınmış ictimai fiqurun bir arada olduğu şəbəkədə mənə böhtan atdı - Xədicə xanım təxminən belə yazdı ki, Elçin Sadıqov yenicə həbs olunmuş hüquq müdafiəçisi Rəsul Cəfərovun əleyhinə ifadə verib...

Bəzi sevimli vəkil dostlarım da bu kampaniyaya qoşuldu, onların təşviqi və “layk”ları ilə sosial mediada hədəfə alınmağıma çalışıldı. Bir neçə gün öncə isə güman etməyəcəyim baş verdi, “Azadlıq” qəzeti barəmdə mənə lap yaxşı məlum olan qurama “Azadə” imzası ilə təhqir məzmunlu yazı dərc etdi - guya mən jurnalistləri pulla müdafiə etmişəm, peşə prinsiplərinə xəyanət etmişəm, məqsədim müdafiə yox, məşhurlaşmaq olub və müqayisəli aşağılamalar, təhqirlər...

Mən bu qəzetə qarşı iddialara, şikayətlərə illərimi vermişəm... Davamlı maliyyə böhranı içində olan bu qəzetin məhkəmə işləri üçün dövlət rüsumlarını belə ödəmişik, qəzetə poçtalyonluq etmişik, hazırladığımız şikayət, iddiaları imzalatdırmaq üçün həftələrlə arxalarınca gəzmişik... Bizi heç bir əsas olmadan “vicdansız hüquqi müdafiədə” ittiham edənlərə deyim ki, Avropa Məhkəməsi hələ ki həmin işlərdən birinə *(Qənimət Zahidin məhkəməyə qədər həbs işi)* baxıb - Q.Zahidin hüquqlarının pozulduğu təsdiqlənib və hökumət buna görə jurnalistə 10 000 avro ödəyəcək. Əminəm ki, bütün işlər uduşlu işlər olacaqdır...

...Mən bitərəfəm və siyasətlə heç vaxt məşğul olmamışam, indi də məşğul olmuram, məni peşəkar vəkil edən də müstəqilliyimdir... Ömür boyu söz azadlığından danışanlar bir ifadəmə görə az qaldılar məni güllələsinlər. Budurmu sizin fərqli fikrə münasibətiniz, tolerantlığınız?

Daha çox da ona təəssüf edirəm ki, “Azadlıq” kimi qəzetdə başını “azadələrin” tumanında gizlədib quyruğunun fərqində olmayanların, aftafa ilə yuyulub-axıdılanların böhtan, təhqir məzmunlu cızma-qaralarını hərdən yaymaq kimi çox pis təcrübəsi də var...

Mənə yönələn kampaniyada vəkil dostlarımın da rolu nəzərəçarpandır... Həmkarlarımdı, onların üzərində çox dayanmaq istəmirəm, sadəcə, bir məqamdan başqa. 2013-cü ilin sentyabrında jurnalist və hüquq müdafiəçisi Pərviz Həşimlinin işində peşə prinsiplərinin toxunulmazlığı baxımından arzuolunmaz olay yaşandı. Mənim də vəkil olduğum həmin işdə təəssüf edirəm ki, siyasətbaz vəkil həmkarım hüquqlarını təmsil etdiyi jurnalistin əleyhinə xüsusi xidmət orqanı ilə əməkdaşlığa getmişdi. Bunu öncə mən, ardınca isə P.Həşimlinin özü ictimaiyyətə çatdırdı. Və məncə, ən pisi də odur ki, əməkdaşlığa getmiş, buna görə nüfuz zədəsi almış həmin həmkarım hər kəsin sayğısı olan son məhbusların işi vasitəsilə “bərpa” prosesinə başlayıb... Eyni zamanda mənə dəstək ifadə edən vicdanlı həmkarlarım da oldu, onlara təşəkkürlərimi çatdırıram...

Mənə qarşı kampaniyanın əvvəlində, ortasında, hər yerində hörmətli jurnalist Xədicə İsmayılova var. Xədicə xanımın çevrəsində olan elə bir jurnalist olmadı ki, məni haqsız aşağılamağa hesablanan yazı yazmasın. Avqustun 19-da Xədicə xanım və dostları ilə qəlyanaltı edən Elnur Astanbəyli həmən qələmə sarılıb, məni aşağılamağa çalışdı... Xədicə xanım bütün beynəlxalq təşkilatlara yazdı ki, MHİ və orda çalışanlar *(bəzi məktublarda MHİ ilə əməkdaşlıq edən və etmiş bütün şəxslərin (hətta 2011-ci ildə MHİ ilə əməkdaşlıq etmişlər) adları sadalanır)* hökumətə işləyir, onlarla əməkdaşlıq etməyin... Bravo! Bu gün İlqar Nəsibovun işi ilə bağlı kim getdi Naxçıvana? Ancaq 2007-ci ildə İlqar Nəsibov və Məlahət Nəsibova basqılarla üzləşəndə vəkil kimi Naxçıvana mən getmişdim.

... Bir neçə ay öncə USAİD 2.4 milyon dollar həcmində qrant müsabiqəsi elan edib. Bildiyimə görə, 3 iddiaçı var - İREX və "İnternyus" təşkilatları. Hər iki təşkilat müsabiqəni udacaqları təqdirdə MHİ ilə əməkdaşlıq edəcəkdilər. 3-cü iddiaçı isə öz çevrəsi ilə hörmətli Xədicə İsmayılovadır, araşdırma jurnalistikasının inkişaf etdirilməsi ilə bağlı layihə təklifi verib. Mən belə bir nəticə çıxarmaqla tamamilə haqlıyam ki, Xədicə xanımın mənim və əməkdaşlıq etdiyim MHİ-nin əleyhinə qaralama kampaniyasının məqsədi qrant müsabiqəsinin əsas iddialıları olan iki təşkilatın tərəfdaşsız qalması görüntüsünü yaratmaqla, öz layihəsinə əlavə şans qazandırmaqdır.

İzah bu qədər sadədir. Ancaq vicdanlı mübarizədə, rəqabətdə bu ən son yollardandır...

Xədicə xanım böhtanın, təhqirin nə olduğunu Azərbaycanda ən yaxşı anlayanlardan olmalıdır. Ancaq o, mənə böhtan atdı. Yazıb ki, mən Rəsul Cəfərovun əleyhinə ifadə vermişəm... Xədicə xanım belə bir ifadənin olmadığından xəbərdardır, bilə-bilə qara yaxdığını da dəqiq bilir...

...Yalan olduğunu bilə-bilə məni aşağılayan, təhqir edən ifadələri ictimaiyyətə yayan Xədicə İsmayılovadan, “Azadlıq” qəzetindən, adını çəkmədiyim digər dostlardan təkzib, üzrxahlıq gözləyirəm.

***Qeyd:** Uzun illər “Yeni Müsavat”a təmənnasız hüquqi xidmətlər göstərmiş vəkil Elçin Sadıqovun dərcini xahiş etdiyi yazısının tam mətni musavat.com saytında yerləşdirilib.*

# “Lap məni Hacıbala Abutalıbovun yerinə qoysunlar”

## Hacı Qalib: “Bilgəhlilərin nə ixtiyarı var ki, narazılıq etsin”

**Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyevlə bu rayonu təmsil edən deputatlardan biri Hacı Qalib Salahzadə arasında ciddi qarşıdurma yaranmışdı. Buna səbəb kimi sakinlərin icra başçısından deputata şikayət etməsi göstərilirdi. Amma əslində ortada başqa maraqların olduğu, mənsəb savaşının getdiyi iddia olunurdu.**

İcra hakimiyyətinin bu qarşıdurmanın səbəbi barədə yaydığı açıqlamada bildirilirdi ki, Bilgəhdə quruculuq işlərinin zəif getməsi ilə əlaqədar A.Vəliyev yerli icra nümayəndəsini dəyişdirmək istəyir. Qalib Salahzadə isə bu kadr dəyişikliyinə qarşı çıxaraq, icra nümayəndəsinin mütləq bilgəhli olmasını istəyir.

Deputatla icra başçısının münasibətləri və Bilgəhdəki son durumla bağlı **Hacı Qaliblə** söhbət etdik. O, hazırda icra başçısı ilə aralarında heç bir problemin olmadığını bildirdi: “İcra başçısı ilə münasibətlərimiz normaldır. Bilgəhdə hər şey qaydasındadır. Bəzi mətbuat orqanları xəbərləri həddindən artıq böyüdür. Bilgəhdə heç bir problem yoxdur. Ola da bilməz. İstər icra başçısı, istərsə də yerli nümayəndəliklə aramızda konflikt yoxdur”.


Hacı Qalib

**Hacı Qalib Bilgəhin sosial problemlərinin olmadığını da qeyd etdi:** “Bilgəh Bakı kəndləri içərisində ən varlı, gözəl, insanların rahat yaşadığı kənddir. Küçələri şəhərin mərkəzi kimidir. Allah prezidentimizə cansağlığı, uzun ömür versin. Ulu öndərimizin ruhu şad olsun. Çünki bütün bunlara onların sayəsində nail olmuşuq. Bilgəhlilər İlham Əliyevin hesabına yaşayırlar. Kənddə hər şey var. Qaz, su, işıq problemi yoxdur. Yolları tamamilə asfaltdır. Bilgəh Neftçilər prospektinə bərabərdir. Bilgəhlilərin nə ixtiyarı var ki, narazılıq etsin. Onlar nə istəyirlərsə, yaratmışıq. Bilgəhdə hər şey var”.

**Hacı Qalib bir il sonra keçiriləcək parlament seçkilərində namizədliyini yenidən verib-verməyəcəyi barədə qəti qərarının olmadığını bildirdi:** “Birinci gərək bunu Allah istəsin. Əsas şərt budur. Lap məni baş nazir, yaxud Hacıbala Abutalıbovun yerinə qoysunlar. Əvvəlcə gərək Allahdan nə isə istəyəsən. Ondan sonra Allahın köməkliyi ilə hər şey yolunda gedəcək. Göydə Allah, yerdə cənab prezidentimiz istəklərimizi həyata keçirir. Pis əsgər o əsgərdir ki, general olmaq istəmir. Hər şeyin başında Allahın iradəsi durur. İnşallah, yaxşı olacaq. Fəxr edirəm ki, Kəbəni ziyarət etmişəm. Qalan nə varsa, Allahındır. Mən kiməm ki?”

**Deputatdan son günlərdə baş nazirin sabiq müavini, hazırda Rusiyada yaşayan Abbas Abbasovun qayınanasının ermənı olması ilə bağlı yayılan xəbərlərə də münasibətini öyrəndik. Hacı Qalib bu barədə bunları dedi:** “Açığı bu məlumatdan xəbərim olmayıb. Ümumiyyətlə, kiminsə qohumunun hansı millətdən olmasının heç bir önəmi yoxdur. Başqa millətdən qohumu olan insanın yaxasından yapışıb, deyə bilmərik ki, sən azərbaycanlı deyilsən. Bunlar şəxsi ailə söhbətləridir. Biz azərbaycanlıyıq. Özünü azərbaycanlı sayan kəs başqasının ailə söhbətini etməz. İstər varlı, istərsə də kasıb olsun. Həzrəti peyğəmbərdən artıq olmayacağıq ki? Onun da başqa millətlərdən arvadı olub”.

❑ Cavanşir ABBASLI

# İstintaqı dondurulan hüquq müdafiəçiləri...

## Həbs edilənlər mahiyyət üzrə dindirilməyib; vəkillər bununla bağlı şikayət verəcəklər


İntiqam Əliyev


Leyla Yunus

**Hüquq Maarifçiliyi Cəmiyyətinin rəhbəri İntiqam Əliyev həbs edildiyi vaxtdan indiyə qədər keçən müddət ərzində bir dəfə də olsun, istintaqla bağlı dindirilməyib. Bu barədə musavat.com-a danışan vəkil Anar Qasımlı bunları deyib: “Dünən İntiqam müəllimlə görüşdüm. Saxlanma şəraitindən şikayəti yoxdur. Hər şey normaldır. İstintaqı ilə bağlı heç bir yenilik yoxdur. Həbs edildiyi müddət ərzində bir dəfə də olsun, istintaq onu dindirməyib. Biz hətta bununla bağlı zarafat olaraq dedik ki, bəlkə istintaq İntiqam müəllimdən küsüb deyə onu dindirmir. Belə davam edərsə, çox güman ki, İntiqam müəllimin həbs müddəti 3 aydan sonra uzadılacaq”.**

Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunus da həbs edildiyi zamandan indiyə qədər istintaqda dindirilməyib. Vəkili Əlayif Həsənov bu qanun pozuntusu ilə bağlı görəcəkləri işlərdən danışdı: “Leyla xanımla bağlı son durum ondan ibarətdir ki, yaxınlarına yemək və dərmanlar aparmaq üçün icazə verilib. Sentyabrın əvvəli üçün görüş planlaşdırıram. İstintaqla bağlı heç bir yenilik yoxdur. Nə Leyla xanımı, nə də hüquq müdafiəçilərini istintaqa çağırmırlar. Məqsəd onları həbs edib, cəmiyyətdən təcrid etmək idi. Bununla bağlı qanunun bizə verdiyi bütün hüquqlardan istifadə edəcəyik. Faktiki olaraq, Leyla xanım 20 gün həyatı üçün önəmli olan ən zəruri şeylərdən kənarda qalıb. Planlaşdırırıq ki, məhkəmələrə müraciət edək”.

**Rəsul Cəfərovun yaxın günlərdə ev dustaqlığına buraxılması ilə bağlı Apelyasiya Məhkəməsi keçiriləcək. Vəkil Fariz Namazlı məhkəməyə hazırlaşdıqlarını bildirdi:** “Sonuncu dəfə Rəsul bəylə şənbə günü görüşdüm. Saxlanma şəraiti ilə bağlı bir problemi yoxdur. Həbsinin qanunsuz olmasını bildirir. Hesab edir ki, hüquq müdafiəçisi olduğuna görə həbs edilib. İrəli sürülən ittihamların heç bir əsası yoxdur. Tamamilə qanunsuzdur. Ev dustaqlığı ilə bağlı apelyasiya şikayəti vermişik. Hələ məhkəmənin günü müəyyənləşməyib. Yəqin ki, yaxın günlərdə olacaq. Həbslə bağlı bütün prosedurları deməK olar ki, yekunlaşdırmışıq. Avropa Məhkəməsinə şikayətlərimizi göndərəcəyik”.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 214 (5923) 27 avqust 2014

# “Qrantyeyən” QHT-lər haqda sensasion iddialar, ağır tənqidlər

**Polemika**

**Son aylar hakimiyyətin qeyri-hökumət təşkilatlarına total hücumu göz qabağındadır. Kütləvi yoxlamalar, həbslər, cərimələr, bank hesablarının bağlanması... Bir sözlə, bu sektorun tamamilə çökdürülməsi xətti aparılır. Amma bunun fonunda bəzi hakimiyyətyönlü media orqanlarında Azərbaycan QHT-ləri ilə bağlı qara “piar” kampaniyası aparılır. Onlardan daha çox “qrantyeyən”, cəmiyyətə heç bir faydası dəyməyən təşkilat obrazı yaratmağa çalışırlar.**



**Mirvari Qəhrəmanlı:** “QHT-lərin fəaliyyəti kimsəsiz, hüquqları tapdanan insanlara böyük bir köməkdir”



**Azər Ayxan:** “Mətbuatın adı ilə xaricdən külli miqdarda qrant alıb yeyən QHT rəhbərindən hesab sorma zamanıdır”



**Xalid Ağalıyev:** ""QHT-lər daha çox iş görə bilərdilər" yanaşmasına qatılıram"



**Əlövsət Əliyev:** “Təkcə rəhbərdən və ya ər-arvaddan ibarət onlarla QHT-lər var ki...”

Zaman-zaman sosial şəbəkələrdə gedən müzakirələrdə də bu məqam vurğulanır və belə bir sual qoyulur: QHT sektoru Azərbaycan cəmiyyətinə nə kimi xeyir verib? Vətəndaş cəmiyyətinin fəaliyyətsizliyi barədə səslənən fikirlər də bu müzakirələrin fonunda ilginc görünür. Fəaliyyətləri boyunca bir çox QHT-lərin aldıqları qrantın məbləği ictimaiyyətə açıqlandıqca polemikalar daha da güclənir.

Bugünlərdə isə tanınmış publisist-yazar Əli Əkbər bu mövzuda sərt bir köşə yazdı. Onun bu yazısından sonra sosial və peşəkar mediada fikir dartışmaları daha da artdı.

Bir sözlə, artıq QHT-lərin fəaliyyətlərinin təftişi ilə iqtidar mediası məşğul olmur, tanınan müstəqil ekspertlər, yazarlar, hətta müxalifət düşərgəsində təmsil olunan bəzi simalar da QHT-lərin indiyədək gördüyü fəaliyyəti ciddi şəkildə müzakirə edir, hələ üstəlik, onların üzləşdiyi indiki duruma haqq da qazandırır.

Biz də elə sözügedən polemikaların fonunda QHT rəhbərlərindən, media mənsublarından bu mənzərəyə münasibət öyrənməyə çalışdıq.

**Neftçilərin Hüquqlarını Müdafiəsi Komitəsinin rəhbəri Mirvari Qəhrəmanlı musavat.coma-a açıqlamasında bu mövzuya toxunub. Onun fikrincə, QHT-lər barədə yaradılan yanlış rəylər hökumətin siyasətinin tərkib hissəsidir:** “Hər bir demokratik ölkədə vətəndaş cəmiyyəti olmalıdır. Hər bir müstəqil QHT gördüyü işlərlə bağlı hesabat verir, bunlar onun saytında yazılır. QHT-lər maarifləndirmə işi aparır, insan haqlarını müdafiə edir. Elə rayonlar var ki, orada bircə nəfər də vəkil yoxdur. QHT-lərin fəaliyyəti kimsəsiz, hüquqları tapdanan insanlara böyük bir köməkdir. İndiki zamanda kim pulsuz yaşaya, işləyə bilər? QHT-ləri ittiham edən yazarlar pul qazanmaq məqsədləri olmasa, yazı yazarmı? Hər bir insan gördüyü işin müqabilində əmək haqqı alır. QHT işə götürdüyü adama pul ödəməlidir, ofisin kirayəsindən tutmuş kommunal xərclərə qədər hamısına maddi vəsait lazımdır”.

**“Yeni Müsavat” qəzeti baş redaktorunun 1-ci müavini Azər Ayxanın isə məsələyə fərqli baxışı var. Müsahibimiz ölkəmizdə fəaliyyət göstərən QHT-lərin fəaliyyətinə özünə məxsus formada yanaşır. A.Ayxan xatırladır ki, ötən ilin noyabr ayında müstəqil mətbuat üçün ciddi sınaq dövrü olub:** “Həmin vaxt sərəncamlarında, bank hesablarında 100 minlərlə manat vəsait olan məşhur, vicdan etalonu kimi təqdim olunan QHT rəhbərlərindən kimsəni abunə kampaniyasında yanımızda, redaksiyamızda görmədik. Bir-iki istisna oldu, məsələn, 4-5 QHT rəhbəri həmin kampaniyaya dəstək olaraq redaksiyaya gəlib abunə yazıldılar, amma bu, geniş şəkil almadı. Kimə ”gəl, dəstək ol, 50 manatlıq abunə yazıl" dediksə, hərəsi bir bəhanə ilə bu dəstəkdən yayındı. Səbəb aydın idi: onlar bu prosesi yanlış olaraq iqtidarla müstəqil qəzetlərin davası sayır və bu davada tərəf tutmaq istəmirdilər. Özlərini hökumətin qəzəbindən qorumaq xətti tuturdular. Ki, birdən “yuxarılardan” görərlər, bilər ki, biz “Yeni Müsavat”a dəstək veririk, iqtidarın qara dəftərinə düşərik. Ona görə də redaksiyaya gəlib bizimlə həmrəy olduqlarını nümayiş etdirmədilər, şəkil çəkdirmədilər və sair. Bu davaya qarışmamaqla özlərini guya iqtidarın qəzəbindən yayındırırdılar. Bunlar başa düşmədi ki, mətbuat hakimiyyətin hədəfindədirsə, az keçməyəcək QHT sektoru da eyni zərbəni alacaq".

**A.Ayxan bildirdi ki, əksər QHT rəhbərləri mətbuatın ən ağır günündə ona yaxın durmadılar:** “İndi biz, mətbuat onları hər gün müdafiə edir, dəstək veririk. Elə hüquq müdafiəçisi, QHT rəhbəri də oldu ki, çətinliklə üzləşən qəzetləri kateqoriyaya böldü, onlar arasında ayrı-seçkilik etdi. Amma biz həmin hüquq müdafiəçisini bu gün ən ağır günündə müdafiəsiz buraxmırıq. Onu ”bizim və onların" bölgüsünə məruz qoymuruq. Belə şeyləri arada yazmaq, xatırlatmaq lazımdı, məncə".

**A.Ayxan deyir ki, heç kimin pis gününü, həbsini, bank hesabının bağlanmasını arzulamır:** “Amma kimlərinsə fetişləşdirilməsinin də əleyhinəyik. İllər sonra məlum oldu ki, QHT rəhbərlərinin ”Azərbaycanda vətəndaş cəmiyyəti qururuq" bəyanatı sadəcə sabun köpüyüdür. Hanı o vətəndaş cəmiyyəti? Hardadır, niyə biz onu görmürük? Hətta bu olmayan vətəndaş cəmiyyətini QHT rəhbərləri tutulanda da görmədik".

**Baş redaktor müavini dedi ki, media sahəsi ilə məşğul olan QHT-lərin fəaliyyəti ciddi şəkildə təftiş olunmalı, o QHT rəhbərlərindən hesab istənməlidir:** “Rəşid Hacılının rəhbəri olduğu Media Hüququ İnstitutundan başqa mən ikinci bir QHT tanımıram ki, medianın, jurnalistlərin fəaliyyətinə praktik olaraq dəstək versin. Üzləşdiyimiz hansısa hüquqi çətinlik zamanı tək üz tutduğum QHT MHİ olub. Əksəriyyəti illərdir jurnalistlərin, mətbuatın adından yararlanıb 100 minlərlə avro qrant alıb xaricdən. Ortada bircə işıqlı, ortaya çıxası işləri yoxdur. Amma bu qədər vəsait hara xərclənib, kimin cibinə gedib bilinmir. Əslində bilinir, sadəcə illərdir abrımıza qısılıb dinmirik. Bəs mətbuatın müdafiəsi, inkişafı üçün bu qədər vəsait alınıb, pullar xərclənibsə niyə mətbuat bu gündədir, bu suallara cavab verilməlidir. Elə QHT tanıyıram Azərbaycan televiziyalarında nümayiş etdirilən verilişlərin monitorinqi üçün xarici donorlardan bir neçə yüz min avro qrant alıb. Amma dinəndə hamını borclu çıxarırlar. Söz soruşanı, hesab tələb edəni iqtidarın sifarişçisi elan edib ləkələyirlər. Bir sözlə, bizim bir çox QHT rəhbəri xarici donorlardan aldıqları fantastik məbləğlə az qala oliqarxa çevriliblər".

**Fəaliyyətini dayandırmış Media Hüququ İnstitutunun keçmiş əməkdaşı və QHT sahəsində çalışmış hüquqşünas Xalid Ağalıyev isə öncə qısa arayış verdi ki, şəxsən QHT rəhbəri və ya QHT idarəedicisi deyil, uzun illər bu sahədə əsasən jurnalist hüquqlarının müdafiəsi, jurnalist və hüquqçuların maarifləndirilməsi məzmununda layihələrdə çalışıb, konkret layihə idarəedicilərindən olub:** “Əgər biz ”QHT-lər heç bir iş görməyib" desək, çox böyük yanlışlığa yol vermiş olarıq. Şəxsən öz təcrübəmdən çıxış edərək deyim ki, bu gün jurnalistikada olan gənclərin ən azı yarısı bizim təşkil etdiyimiz təlimlərin, müsabiqələrin iştirakçıları olublar. Heç kimin qeyri-səmimi olduğunu iddia edə bilməzəm, amma rastlaşdığımız həmin jurnalistlərin əksəriyyəti təlimlərdən, nəşr etdirdiyimiz kitablardan böyük faydalar götürdüklərini bildirirlər. Yaxud jurnalistlərin hüquqlarının müdafiəsi ilə bağlı mənim də uzun illər əməkdaşlığ etdiyim Media Hüququ İnstitutu az iş görməyib. Bəlkə də yanılıram, şişirdirəm, amma hər halda, hesab edirəm ki, Azərbaycanda jurnalistika yeganə sahə idi ki, hüquqları pozulanlar hara müraciət etməli olduqlarını bilirdilər. Bəlkə də daha yaxşı xidmət göstərə, daha effektiv ola bilərdik, ancaq reallıq budur ki, işlək bir mexanizm yarada bilmişdik".

**X.Ağalıyev dedi ki, bu sahədə uğur qazanmış QHT-lərin də olduğunu nəzərə alanda onların heç bir iş görmədiyini iddia etmək ədalətsizlikdir:** “”QHT-lər daha çox iş görə bilərdilər" yanaşmasına isə ümumilikdə qatılıram. Ən başlıcası bugünkü mənzərə də bunu təsdiqləyir. Ağır durumun əsas səbəbi bu deyil, ancaq faktorlardandır. Başqa məqamlar da var, bəlkə də önəmli görünməyə bilər, məsələn, bizim təşkil etdiyimiz regional təlimə gələn, fotolar çəkməsinə şərait yaratmamı istəyən həmkarlarımız olub. Dəfələrlə olub. Halbuki onlar da təlimlər təşkil edə, 3-5 nəfərə fayda verə bilərdilər. Ümumilikdə isə QHT-lər hər şeyi düzəninə qoya bilməz axı. Bizim QHT-lər bizimkidir, bizim cəmiyyətindir. Bizim İctimai Televiziya, bizim siyasi partiyalar, bizim digər təsisatlar bizim cəmiyyətə xas olduğu kimi QHT-lər də cəmiyyətə uyğun, cəmiyyətə xasdır. Biz hər bir neqativlərdən arındırılmış bir partiya, bir tv və ya bir QHT ortaya qoya bilərik. Ancaq bu təsisatlar tək olduqca az keçməmiş elə cəmiyyətə, çoxluqda olan təsisatlara oxşamalı olacaq".

**Azərbaycan Miqrasiya Mərkəzinin kecmiş rəhbəri Əlövsət Əliyev hesab edir ki, ölkədə fəaliyyət göstərən QHT-lərin hamısını eyniləşdirmək düzgün deyil:** “QHT-lərin qrant yeyənləri də olub, vətəndaş cəmiyyətinin inkişafına xidmət edənləri də. Elə QHT-lər var ki, onlar haqqında yalnız aldıqları qrantlar barədə məlumat əldə etmək olur. Fəaliyyətləri isə yoxdur. Amma hücuma məruz qalan QHT-lərə bunu şamil etmək mümkün deyil. Təkcə rəhbərdən və ya ər-arvaddan ibarət onlarla QHT-lər var ki, hamıdan çox qrant aldıqları halda, başqa işçi də götürməyiblər”.

**Ə.Əliyev dedi ki, ümumilikdə QHT cəmiyyəti dəyişmək yox, problemləri müvafiq hökumət qurumlarına çatdırmaq üçün fəaliyyət göstərir:** “Eyni zamanda müəyyən qrup gənclərin ixtisaslaşmasına yardım edir. Məsələn, mənim rəhbəri olduğum layihələrdən eyni zamanda 30 nəfərə yaxın gənc hüquqşünasın işlədiyi və əmək haqqı aldığı vaxtlar olub. Bunu Hüquq Maarifçiliyinə də, Media Hüququ İnstitutuna da, Seçkilərin Monitorinq Mərkəzinə, RATİ-yə də şamil etmək olar. Rəhbəri olduğum layihələrdə işləyən gənclər bu gün polisdə, prokurorluqda, Vergilər Nazirliyində, məhkəmələrdə çalışır.

O cümlədən çoxsaylı beynəlxalq təşkilatlarda, hətta Avropa İnsan Hüquqları Məhkəməsində çalışanlar da var".

**Ə.Əliyevin fikrincə, məhz yuxarıda sadaladığı faktları nəzərə alıb, QHT-lərin fəaliyyətinə kölgə salmaq ədalətsizlikdir:** “Hakimiyyətin toxunmaq gücündə olmadığı yüzlərlə QHT var. Vətəndaş cəmiyyəti bir zamanlar elə indi çoxunun ittiham etdiyi Novella xanımın, Leyla xanımın, İntiqam Əliyevin yardımı ilə daha yaxşı fəaliyyət göstərirdi. Daha sonralar isə hakimiyyətdə təmsil olunanların hərəsi özünə bir yan QHT-si yaratdı. Təhlil aparsanız görərsiniz ki, Azərbaycandan qrantların 80 faizi hakimiyyətdə olanların yaratdığı və ya sonradan ələ keçirdiyi QHT-lərə verilir”.

**Sevinc TELMANQIZI**



# Türkiyənin Azərbaycan sevgisi

Azər RƏŞİDOĞLU

**Türkiyəyə qarşı xarici təzyiqlər artmaqdadır. Bəzi araşdırmaçılar ehtimal edirlər ki, Qərb-Türkiyə qarşıdurması nəticəsində Azərbaycan qurban verilə bilər.**

İstisna deyil ki, türk hakim siyasi elitası Azərbaycanın maraqlarına zidd addımlar atsın. Tarixdə belə faktlar az olmayıb. Lakin bu proseslər ABŞ-SSRİ arasında yaşanan "soyuq savaşlar" dövrünə təsadüf edib. Artıq belə bir halın yaşana bilməsi inandırıcı deyil. Digər tərəfdən, türk xalqı Azərbaycanın maraqlarına zərbə vura biləcək addımları öz hakimiyyətlərinə bağışlaya bilməz.

Son 20-30 ildə Türkiyə və Azərbaycan cəmiyyətləri bir-birilərinə o qədər inteqrasiya ediblər ki, iki ölkə arasında düşmənçilik toxumu səpmək imkansız görünür.

Lakin Qərb siyasətçiləri Türkiyəni, o cümlədən türk birliyində əsas oyunçulardan biri olan Azərbaycanı cəzalandırmaq barədə ən müxtəlif planlar üzərində düşünürlər. Bu planlardan biri də Türkiyə və Azərbaycan arasında gərginlik yaşatmağa vadar edə biləcək "Surix protokolları"nın realizəsi, Ermənistan - Türkiyə sərhədlərinin açılmasıdır.

2015-ci ildə qondarma "erməni soyqırımı"nın 100 illiyi qeyd olunacaq. İndidən erməni lobbisi buna hazırlıq görür. ABŞ və digər mühüm ölkələrin "erməni soyqırımı"nı tanıya biləcəyi də istisna edilmir. Bu baş verərsə, Ankaranın durumu xeyli dərəcədə ağırlaşa bilər.

Qərb Türkiyəni "erməni soyqırımı"nı tanıyacağı ilə şantaj edir, bunu etməmək müqabilində Türkiyə- Ermənistan sərhədlərinin açılmasını tələb edir. Sərhədlərin açılması istər-istəməz Bakı və Ankara münasibətlərinə mənfi təsir göstərə bilər. Lakin Ankara sərhədlərin açılması müqabilində Dağlıq Qarabağ probleminin çözülməsini tələb edə bilər. Yəni heç bir halda Türkiyənin atdığı addım Azərbaycanla münasibətlərin pozulmasına gətirib çıxarda bilməz.

Türkiyə-Azərbaycan münasibətlərinin pozulmasında maraqlı olan əsas ölkələr kimi Rusiya və İranın adı çəkilir.

Bu baxımdan, sərhədlərin açılması məsələsində manipulyasiyaya etmək istəyənlər də daha çox bu ölkələrin təsir agentləridir. Sərhədlərin acılaması Ermənistan - Azərbaycan münaqişəsinin həllinə yardım edə və İrəvanı Moskvanın forpostluğundan azad edə bilərsə, bu məsələyə münasibətdə ifrat radikallıq nümayiş etdirməyə də əsas qalmır.

Heç bir jest, addım iki qardaş ölkənin münasibətlərinə xələl gətirə bilməz. Bir daha vurğulamaq lazım gəlir ki, Azərbaycan və Türkiyə daha sıx inteqrasiya yoluna qədəm basmağa məhkumdurlar. Azərbaycan və Türkiyə arasında iqtisadi, siyasi, diplomatik, hərbi və digər sahələrdə əməkdaşlıq artırılmalıdır.

Son proseslər də sübuta yetirdi ki, Azərbaycanın yeganə strateji müttəfiqi olan Türkiyə ilə əməkdaşlıq lazımi səviyyədə deyil. Bu məsələyə yenidən baxılması zamanın tələbidir. Azərbaycanın dövlət müstəqilliyinin qorunması Türkiyə ilə daha sıx əməkdaşlığı zəruri edir. İlk növbədə iki ölkə arasında mövcud olan problemlərin aradan qaldırılması barədə fikirləşmək lazım gəlir. Bu məsələdə yubanmaq olmaz. Boşluğu Azərbaycana heç də dost olmayan ölkələr doldura bilərlər. İstənilən halda, Azərbaycan insanının sevgi ilə yanaşdığı yeganə ölkə Türkiyədir.

İran və Rusiya qıcıq olsa belə, Bakı - Ankara münasibətləri ən yüksək mərhələyə qədəm basmalıdır. Türkiyə ilə ən müxtəlif istiqamətlərdə əməkdaşlıq edəcəyi təqdirdə Azərbaycan daha da güclənə bilərdi. Türkiyə ilə Ermənistan sərhədlərinin açılması isə Moskvanın İrəvana təsirlərini xeyli dərəcədə azalda və erməniləri Qarabağ müstəvisində əsaslı güzəştlərə vadar edə bilərdi.

Azərbaycanın əleyhinə qərar verəcək istənilən Türkiyə hökuməti eyni zamanda öz siyasi qətlinə ferman vermiş olacaq. Türk ictimai rəyi Azərbaycanın xeyrinədir. Bunu hamı dərk edir. O cümlədən "Sürix protokolları"nın əsas memarı olan Əhməd Davudoğlu da...



# "Abbas Abbasovun Azərbaycan əleyhinə iş aparması yaxşı hal deyil"

## Nazim İbrahimov: "Bunların hamısı böyük bir xaosdan əmələ gələn nəticələrdir"

**Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov publika.az-a müsahibə verib. Onun müsahibəsini təqdim edirik.**

***- Son vaxtlar Ukraynada bir sıra diaspora nümayəndəmizə qarşı hücumlar olub. Hətta onlar arasında ölənlər də var. Bəzi dairələr bütün bu hadisələri Azərbaycan diasporunun zəifliyi kimi təqdim etməyə çalışır. Sizin bu məsələyə fikriniz necədir?***

- Kimlərsə Ukraynada baş verən hadisələri Azərbaycan diasporunun zəifliyi kimi dəyərləndirirsə, bu cür adamların siyasətdən ümumiyyətlə anlayışı yoxdur. Mən başa düşə bilmirəm ki, bu cür düşünənlər nə ilə məşğul olur? Bu cür yazı yazan jurnalistlərin isə vəziyyəti daha dərindən öyrənməsinə və təhlil etməsinə ehtiyac var. Azərbaycan diasporu bu cür məsələlərdə hələ ki söz sahibi olmasa da, Ukraynada diasporumuzun fəaliyyəti kifayət qədər güclüdür. Təbii ki, əgər Ukrayna ərazi bütövlüyünə qarşı təxribatlarla üzləşirsə, o zaman bu ölkənin vətəndaşları olan soydaşlarımız, o cümlədən Azərbaycan diasporu dövlətin yanında olur. Bunu Ukraynadakı diaspora nümayəndələrimiz də zaman-zaman bəyan ediblər.

Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin dünya azərbaycanlılarına göstərdiyi bir istiqamət var ki, bundan sonra dünyada yaşayan soydaşlarımız müdafiə xarakterli taktikanı hücum taktikası ilə əvəz etməlidir. Azərbaycan dövləti dünyada yaşayan hər bir soydaşımızın arxasında dayanır. Ona görə dünyada olan azərbaycanlılar diaspor fəaliyyətini daha da gücləndiriblər. Artıq dünyanın bir çox ölkələrində Azərbaycan diasporunun gücü və fəaliyyəti göz qabağındadır. İndi əgər kimlərsə ayrı-ayrı ölkələrdə baş verən prosesləri Azərbaycan diasporunun fəaliyyəti ilə bağlamaq istəyirsə, bu çox böyük naşılıq əlamətidir. Mən buna başqa cür də qiymət verə bilmərəm. Azərbaycan diasporunun zəifliyini düşünənlər siyasətdən anlayışı olmayan insanlardır. Onların bu fəaliyyəti isə Azərbaycan diasporuna qara yaxmaq, neqativ yazılarla soydaşlarımızı həvəsdən salmaq və digər bu kimi məqsədlər güdür.

Təbii ki, bu cür hərəkətlərin qarşısını da Azərbaycanın sağlam düşünən insanları, KİV nümayəndələri və sairə qəti şəkildə almalıdır. Azərbaycan diasporu üzvlərindən bu kimi nəyisə tələb etmək doğru deyil.

***- Siz vaxtilə Ukraynada səfir kimi də fəaliyyət göstərmisiniz. Daha yaxşı bilərsiniz. Hazırda bu ölkədə Azərbaycan diasporunun fəaliyyəti nə qədər qənaətbəxşdir?***

- Əlbəttə, Azərbaycanın Ukraynadakı diasporu ən fəal diasporlardan biridir. Təşkilatlanmaya görə ilk sıralarda dayananlardandır. Fəaliyyətləri də hər zaman yüksək dəyərləndirilir. İndi də Ukraynadakı diasporumuzun fəaliyyəti bütün istiqamətlərdə genişdir.

Müxtəlif fikirli insanlar olur. Yəni onların hadisələrə baxışı fərqli olur və 500 min soydaşımızın yaşadığı yerdə bu, təbii hal hesab olunur. Amma bu insanların hamısının Azərbaycan dövlətçiliyinə olan mövqeyi eynidir. Onların hər biri Azərbaycan dövləti ətrafında birləşib. Yəni hər kəs Azərbaycanla bağlı məsələlərdə həmrəydir.



Nazim İbrahimov

Mənim Azərbaycan hökumətinin üzvü olaraq Ukraynanın daxili işlərinə qarışmaq fikrim yoxdur.

***- Ukraynadakı hadisələrdə zərər çəkən soydaşlarımızın və onların ailələrinin vəziyyəti ilə maraqlanırsınız?***

- Əlbəttə ki, bu məsələ daim diqqətdə saxlanılır. Bilirsiniz ki, Ukraynanın şərqində xeyli azərbaycanlı ailələr yaşayır. Onların arasında çoxsaylı Azərbaycan diaspor təşkilatları da mövcuddur.

Ukraynada müharibə və xaos şəraiti yaranıb. Əlbəttə ki, bu cür vəziyyətdə zərər çəkmiş azərbaycanlı insanların da olması gözləniləndir. Bütün bunların hamısı böyük bir xaosdan əmələ gələn nəticələrdir. Ona görə də burada bizim tam formada atacağımız hər hansı addımlar yoxdur.

***- Gürcüstandakı soydaşlarımızın indiki hökumətlə vəziyyəti necədir?***

- Hesab edirəm ki, nə indi, nə də keçmişdə Gürcüstanda yaşayan azərbaycanlılarla hökumət arasında ciddi problem olmayıb. Zaman-zaman elə qüvvələr olub ki, iki xalq və dövlət arasında müəyyən nifaq yaratsınlar və sairə. Amma azərbaycanlılar Gürcüstanda ictimai işlərdə kifayət qədər fəaldırlar və dövlətin siyasətini də dərindən bilirlər. Azərbaycanın da onlara qarşı olan qayğısını yaxşı başa düşürlər. Soydaşlarımız Azərbaycan və Gürcüstan dövlətləri arasında olan münasibətlərin də nə dərəcədə inkişaf etməsindən xəbərdardırlar.

İndi soydaşlarımız Gürcüstan dövlətinin inkişafında xüsusi rol oynayır. Ona görə də inanmıram ki, Gürcüstanda azərbaycanlıları kimsə təxribata çəkə bilsin. Ümumiyyətlə, Gürcüstanın sosial problemləri daxilində azərbaycanlıların da sosial problemləri var. Amma bu ümumi dövlətin problemidir, orada yaşayan azərbaycanlıların problemi deyil. Azərbaycan dövləti də hər zaman azərbaycanlılar yaşayan bölgələrə investisiya vəsaitləri yatırır. Bu isə azərbaycanlıların problemlərinin həllinə müəyyən mənada kömək edir.

Azərbaycanın ictimai və dövlət təşkilatlarını, xüsusilə də Heydər Əliyev Fondunun Gürcüstandakı fəaliyyətini dəyərləndirmək lazımdır. Azərbaycanın Gürcüstanda yaşayan soydaşlarımıza bu kimi yardımları bundan sonra da davam etdiriləcək.

***- Rusiya Azərbaycanlıları Federal Milli-Mədəni Muxtariyyətinin (AzerRos) fəaliyyətini necə qiymətləndirirsiniz?***

- Bu quruma rəhbərlik edən Abbas Abbasovun fəaliyyətinin bütün çalarları artıq göz qabağındadır. Mən hər zaman demişəm ki, söylədiyin fikirlərlə öz mövqeyini tam formada ortaya qoymalısan, dediyin sözlərlə əməllərin uyğun gəlməlidir və sairə. Mən bu fikirləri indi yenə söyləyirəm. Əlbəttə, xoşagəlməyən haldır ki, Azərbaycan hökumətinin üzvü olan, Azərbaycan hökumətində formalaşmış bir adam indi də gedib Rusiyada Azərbaycan əleyhinə iş aparsın. Bu, yaxşı hərəkət deyil. Faktiki olaraq indi də əgər Abbas Abbasovun bu cür əməlləri varsa, o zaman o, bu əməlindən geri çəkilməlidir.

# Aydın Abbasovun silahlı çeçen mühafizəçiləri...

## Müzəffər Baxışov: "Qanunla buna icazə verilməlidir, icazəsizdirsə, 3 ilədək həbs nəzərdə tutulur"

**Deputat Aydın Abbasovu nənəsinin dəfn mərasimində çeçen əsilli 4 silahlı mühafizəçi müşayiət edib. Mühafizəçilərdən biri Rusiya vətəndaşı Abiev Rüstəm Raqimoviç olub. "Yeni Müsavat"ın yazdığı bu xəbər müxtəlif xəbər portallarında da yayımlanıb.**



Aydın Abbasov

Məqalədə Abbasovların ermənilərlə qohumluğunun olması barəsində iddialar səslənib. Lakin bu iddialara qarşı tərəfin hər hansı reaksiyası olmayıb. Ancaq maraq doğuran məsələ Aydın Abbasovun silahlı çeçen mühafizəçilərlə hərəkət etməsi xəbəridir. Əgər belədirsə, silahlı mühafizəçi ilə hərəkət etmək qanunda nəzərdə tutulubmu?

**Hüquqşünas Müzəffər Baxışov** qeyd etdi ki, "Mühafizə xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu var: "Bu qanuna görə, özəl mühafizə xidməti lisenziya almalıdır, əməkdaşının silahları qeydiyyatdan keçməlidir, Daxili İşlər Nazirliyi buna icazə verməlidir".

**M.Baxışovun sözlərinə görə, DİN-dən icazə verilməyibsə, o halda Cinayət Məcəlləsinin 228-ci maddəsi ilə özəl mühafizə xidmətinin əməkdaşları məsuliyyətə cəlb edilə bilər:** "Bu halda 3 ilə qədər həbs gözlənilir. Əgər mütəşəkkil qrup kimi icazəsiz fəaliyyət göstəriblərsə, 5 ildən 8 ilədək ağırlaşdırıcı hal kimi cəza nəzərdə tutulur".

❑ EMİL

YENİ MÜSAVAT
N 214 (5923) 27 avqust 2014

**Rusiyanın anti-azərbaycançı şəbəkəni yenidən təşkilatlandırmağa başladığı barədə dünən "Yeni Müsavat" qəzeti informasiya yayıb. Xəbərdə bildirilir ki, Rusiya, Kreml yenidən Azərbaycan əleyhinə hansısa siyasi proseslərə start vermək ərəfəsindədir.**


Sülhəddin Əkbər

# "Azərbaycan müxalifətinin hansı yolu tutacağı hakimiyyətdən asılı olacaq"

## Sülhəddin Əkbər: "Rusiyanın yaratdığı böhranlı vəziyyətdə iqtidarın indiyədək görmədiyi müxalif qüvvələr ortaya çıxa bilər..."

Qeyd edilir ki, Moskva bu dəfə də Bakıya qarşı əsas adamı sayılan, hətta müxalifətdə də tərəfdarları olduğu ötən il ortaya çıxan baş nazirin sabiq 1-ci müavini Abbas Abbasov kartını işə salmaq üzrədir. Xəbərlərdə o da bildirilir ki, 5-ci kolon adlandırılan Rusiya tərəfdarları yenidən fəallaşıblar.

Yada salaq ki, Kreml keçən il də "Milyarderlər İttifaqı" vasitəsilə Azərbaycan hakimiyyətinə ciddi narahatlıq yaratmışdı. Çox təəssüf ki, bu cür anti-Azərbaycan şəbəkənin tələsinə bəzi müxalifət partiyaları da asanlıqla düşmüşdü. Bir çoxları hesab etdi ki, hakimiyyət naminə şeytanla da ittifaqa girmək olar.

Artıq Azərbaycan hakimiyyətindən Abbas Abbasova qarşı fikirlər səslənməyə başlayıb. Bəs Azərbaycanın demokratik müxalifətindən kimlərinsə, ötən il olduğu kimi yenə də onunla ittifaq qurması gözləniləndirmi?

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər öncə bildirdi ki, keçən il yaranan birlik hər hansı praktik addım atmayıb:** "Bir-iki qorxaq bəyanatdan başqa hər hansı hadisə olmadı. Baş verənlər, sadəcə, mətbuat səhifələrində əsasən informasiya müharibəsindən ibarət oldu. Yalnız virtual informasiya savaşının elementləri müşahidə edildi. Əgər doğrudan da Kremlin Azərbaycanla bağlı bir proyekti olacaqsa, bu, çox ciddi şəkildə işlənəcək və digər komponentlərlə də gücləncək. Ukraynada keçən ildən başlanan proseslərin tibbi dillə desək, klinikasına fikir versək, mənə elə gəlir ki, bu, Kremlin apardığı strateji savaşdır. Yəni burada bütün komponentlər var. Siyasi, iqtisadi, maliyyə, ticarət, hərbi, informasiya və digər bütün sahələri əhatə etdiyinə görə bu, strateji savaşdır. Azərbaycanla bağlı da analoji plan olsa, bu, ilk öncə strateji əməliyyat olacaq. Əgər əməliyyat nəticə verməsə, strateji savaşa keçəcək. Hələliksə, Azərbaycana yönəlik nə belə bir nə əməliyyat, nə də savaş elementləri görürəm. Sadəcə olaraq, müəyyən danışıqlar gedir və sızan məlumatlara görə, bu danışıqlarda hələlik Azərbaycana şirnikləndirici vədlər verilir".

**S.Əkbər Abbas Abbasovla bağlı son informasiyanın mediaya sızdırılmasını yuxarıda qeyd olunan strateji əməliyyatın komponentlərindən biri sayır:** "Azərbaycan yeganə MDB və GUAM ölkəsidir ki, strateji seçimini etməyib. Bu səbəbdən mövcud geopolitik hərbi-siyasi durumda hər iki qütbün, xüsusən Rusiyanın Azərbaycana təzyiqləri strateji seçim baş verənədək davam edəcək. Geopolitik qarşıdurma xətti eyni zamanda Cənubi Qafqazdan və Azərbaycandan keçir. Geopolitik qarşıdurmanın növbəti hədəfinin Azərbaycan olacağı heç kimdə şübhə yaratmır. Azərbaycan müxalifət qüvvələrinin içərisindən kimlərinsə Abbas Abbasovla ittifaqa gedib-getməyəcəyi məsələsinə gəlincə, bu, böyük məsələdir. Baxır Azərbaycan hakimiyyəti yaranmış regional böhranlı vəziyyətdə necə davranacaq. Görünən odur ki, Azərbaycan hakimiyyəti ənənəvi siyasətini davam etdirmək və onu bir qədər də gücləndirmək istəyir ki, hər hansı böhranlı vəziyyət yaranacağı təqdirdə ölkədə müxalifət qüvvəsi qalmasın. Amma bu çox yanlış siyasətdir. Çünki istənilən hakimiyyət üçün böhranlı vəziyyətlərdə ən əlverişli müxalifət dinc mübarizə üsullarından istifadə eləyən demokratik müxalifətdir. Bu baxımdan demokratik müxalifətin sıradan çıxarılması strateji səhvdir. İstərdim ki, Azərbaycan hakimiyyəti bunu nəzərə alsın. Çünki siyasətdə boş yer qalmır. Azərbaycanın demokratik qüvvələri sıradan çıxarılacaqsa, o yeri dinc yolla mübarizə aparmayan başqa qüvvələr tutacaq. Bu isə hakimiyyətin özü üçün heç də xoş gələcək vəd eləmir. Bunun qonşu ölkələrdə bariz nümunələri var. Azərbaycan müxalifətinin hansı yolu tutacağı hakimiyyətdən asılıdır".

**Həmsöhbətimiz müxalifətin yekcins olmadığına da diqqət yönəltdi:** "Bunun açıq müxalifəti, gizli müxalifəti var, hakimiyyətdaxili müxalifət var. Böhranlı vəziyyətin yaranacağı təqdirdə bu günə qədər Azərbaycan hakimiyyətinin bilmədiyi, görmədiyi müxalif qüvvələr ortaya çıxa bilər. Ona görə də ən düzgün yol ölkənin daxilində siyasi islahatlara getmək, demokratik müxalifətlə dialoq başlatmaq və böhranlı vəziyyətlərdə əməkdaşlıq üçün zəmin hazırlamaqdır. Azərbaycan hakimiyyəti hazırkı strateji səhvini davam etdirəcəksə, narazıların sayı daha da artacaq. O zaman Azərbaycan daxilində hər hansı bir böhran yarananda artıq narazı kütlə onun mahiyyətinə, arxasında hansı qüvvələrin, hansı dövlətin, hansı şəxslərin durduğuna varmadan o qüvvənin arxasınca gedə bilər. Azərbaycan tarixində 1993-cü ilin iyun böhranı zamanı da özünü bu təhlükə göstərib. Ona görə də hakimiyyət ölkədə siyasi dialoq yolu tutmalıdır. O zaman Azərbaycan xarici təsirlərə qarşı daha dayanıqlı olar. İndiki halda isə Azərbaycanın həm iqtidarı, həm müxalifəti, həm cəmiyyəti xarici təsirlərə çox açıq və həssasdır".

❑ **Etibar SEYİDAĞA**

# Müxalifət yenidən toplaşır

## Birləşmiş Hüquq Müdafiə Mərkəzi siyasi məhbuslar problemini müzakirə edəcək

**Müxalifətin təsis etdiyi Birləşmiş Hüquq Müdafiə Mərkəzi növbəti toplantıya hazırlaşır. Avqustun 29-da siyasi partiyalar bir araya gələrək siyasi məhbusların müdafiəsi istiqamətində müzakirələr aparacaq.**


Xəzər Teyyublu

**KXCP sədrinin müavini Xəzər Teyyublunun** sözlərinə görə, hər həftənin cümə günləri partiyaların bir yerə toplaşaraq bu problemi müzakirə etməsi qərara alınıb.

KXCP funksioneri fəaliyyətin intensivləşdirilməsinin tərəfdarıdır. X.Teyyublu bildirdi ki, bu ayın 29-u, saat 16:00-da KXCP qərargahında siyasi məhbuslar və son həbslər müzakirə ediləcək. "Ötən ayın 22-də geniş müzakirələr aparıldı. Silsilə toplantılar keçirilməsi nəzərdə tutulub. Aksiyalar məsələsi gündəlikdədir. Fləşmoblar, aksiyalar keçirilməsi ilə bağlı hər hansı qərar verilməyib. Lakin müzakirələrdən asılı olaraq qərar veriləbilər,"- deyə KXCP rəsmisi qeyd etdi.

**X.Teyyublu bu mərkəzdə partiyaların birləşməsini müxalifətin gələcək perspektivi üçün uğurlu hesab edir:** "Hər halda, partiyaların geniş tərkibdə toplanması xoş haldır. Burada 15-dən çox partiya nümayəndəsi təmsil olunur.

Əgər siyasi proseslərin gedişatı diktə edəcəksə, müxalifətin birliyi yaranacaq. Təbii ki, siyasi həbslər, regionda baş verənlər, Gömrük İttifaqı məsələsi tələb edir ki, müxalifət bir araya gəlsin. Xalqa müxalifətin birliyi hava-su kimi lazımdır. Odur ki, demokratik düşərgənin birliyi vacibdir".

**Qeyd edək ki, Ümid Partiyasının sədri İqbal Ağazadə müdafiə işini təkmilləşdirmək üçün sistemləşdirmək lazım olduğunu vurğulayıb:**

"Sistemləşərkən artıq daha dəqiq addımlar atmaq olar. Hələlik müdafiə dağınıq və bir qədər də bəyanatdan o tərəfə keçməyən səviyyədədir. Güman edirəm ki, siyasi partiyalar yığışıbsa, artıq bütün parametrləri müzakirə etmək olar".

❑ **E.SALAMOĞLU**

# Sayın Ərdoğan, şunu yapma!



Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Türkiyənin 12-ci prezidenti Rəcəb Tayyib Ərdoğan inauqurasiya mərasimində Ermənistan prezidenti Serj Sərkisyanı da görmək istəyirmiş. Artıq Ermənistana göndərilən dəvətə işğalçı ölkədən reaksiya da verilib. Sərkisyan özünü ağır aparıb, deyib tədbirdə ölkəsi xarici işlər naziri səviyyəsində təmsil olunacaq.**

Növbəti dəfə Azərbaycanı üzən, Sürix protokollarına, futbol diplomatiyasına bənzər hadisə baş verdi. Yenə də əsas ssenari cənab Ərdoğana məxsusdur. Aprel ayında ermənilər qondarma "soyqırım"ın 99 illiyi münasibətilə vay-şivən qoparanda baş nazir postunu tutan hörmətli Rəcəb bəy ermənilərin nəvələrinə başsağlığı vermişdi. Bunun qarşılığı nə oldu? Bəlkə ermənilər bu jesti qiymətləndirdilər? Olmadı belə şey. Əksinə, erməni tərəfi, diaspora 2015-ci ildə Türkiyəni zəif salacaq layihələr hazırlamaqdadır. Məgər cənab Ərdoğan bu reallığı bilmir?

Vaxtilə Türkiyənin sabiq prezidenti Abdulla Gül futbol diplomatiyası çərçivəsində İrəvana getdi, Sərkisyanla birgə futbola baxdı, qonşuluqdan danışdılar, qarşılıqlı səfər oldu. Bəs əvəzində nə baş verdi? Sərkisyan erməni gəncliyinə müraciətlə "Artsax məsələsini biz həll etdik, Ağrının taleyini sizə tapşırırıq" vəsiyyətini elədi. Bunu konstitusiyasında Türkiyəyə qarşı ərazi iddiası əksini tapan, türk torpaqlarının bir hissəsini Ermənistana birləşdirməyi vacib sayan bir ölkənin rəhbəri dedi.

Gərək, Türkiyə kimi qos-qoca bir ölkənin rəhbəri cırtdan Ermənistanın terrorçu rəhbərinin dilini yerindən qoparaydı bu təcavüzə çağırdığına görə. Amma əvəzində cənab Ərdoğan terrorçunu öz inauqurasiya mərasiminə çağırtdırır. Bunu bəlkə də Gül etsəydi, boş verməк olardı. Söhbət ilk dəfə xalqın ümumi səsverməsi nəticəsində seçilən 12-ci prezidentdən gedir.

Amma yox, sərhədlərin açılması layihəsi işə salınanda Azərbaycan və Türkiyədə xalqın etiraz səsinin ucalması onu deməyə əsas verir ki, türk xalqı işğalçı Ermənistanla barışmaq niyyətində deyil. Ən azı Qarabağ torpaqları azad olunanadək.

Belə çıxır, cənab Ərdoğanın prezident seçildikdən sonrakı balkon çıxışında bir sıra məsələlərə toxunduğu halda Qarabağı unutması da təsadüf deyilmiş. Deməli, prezidentlik dönəmində Qarabağın erməni işğalından azad olunması məsələsi onun prioritetləri sırasına aid olmayacaq. Əgər belə olmasaydı, heç olmasa Qarabağda bugünlərdə şəhid olan, hələ torpağı soyumayan Azərbaycan şəhidlərini xatırlayıb Sərkisyanın adının üstündən qara xətt çəkərdi. O Sərkisyan ki, əlləri türk qanına bulaşıb. Məgər cənab Ərdoğan bunu da bilmir?

Türkiyə prezidenti hazırda öz ölkəsində müalicə olunan azərbaycanlı hərbçiləri də göz önünə gətirməliydi. 18-19 yaşlı bu əsgərlərin biri hər iki ayağından məhrum olub, digəri gözünü itirib. Bu, Sərkisyanın diversiya-kəşfiyyat qrupunun Azərbaycan torpaqlarına xain basqını zamanı baş verib. Buna görə Sərkisyanın türkə nifrətlə baxan gözlərini oyub qaratikanlığa buraxmaq lazımdır, nəinki şərəf verib ali tədbirə çağırmaq!

***

Bu gün Azərbaycanın iki vətəndaşı Sərkisyanın girovluğundadır - Dilqəm Əsgərov və Şahbaz Quliyev. Onlar doğma Kəlbəcəri, Azərbaycanın bir parçası olan yurdlarını ziyarət edəndə erməni terrorçuları tərəfindən ələ keçirilib. Cənab Ərdoğan nədən bu faktı heç zaman dilə gətirməyib? Axı ən azı söhbət Kəlbəcərdən gedir. Türkiyə hökuməti hər zaman bəyan edir ki, sərhədlər Ermənistanın üzünə məhz Kəlbəcərin işğalından sonra qapadılıb. Məntiqlə Kəlbəcərə gedən kəlbəcərlilərin girov götürülməsi, bir azərbaycanlının *(Həsən Həsənovun)* qətli və indiyədək meyitindən də intiqam alınması həm də Türkiyəyə meydan oxumaqdır.

Cənab Ərdoğan qardaş Türkiyənin əsas söz sahibidir və istəməzdik ki, Türkiyə adına bizi üzəcək belə hallar olsun. Hələ gec deyil, erməninin qarşısında türk dünyasını zəif düşürəcək, Azərbaycanı üzəcək, Qarabağ şəhidlərinin ruhunu incidəcək addımlardan çəkinmək lazımdır.

Son günlərdə bir daha şahid olduq ki, həm Amerika, həm Fransa, həm də Rusiya ölən erməni diversant məsələsində Ermənistanın yanında yer aldı. Bizim güvənc yerimiz olan Türkiyədən isə meyiti Dağlıq Qarabağda qalan, işgəncələr altında saxlanılan daha iki girov vətəndaşımızla bağlı mövqe ummağa, Ermənistana basqı tədbirləri gözləməyə tam haqqımız çatır.

Rəcəb Tayyib Ərdoğan Bakıya sentyabrın 3-də gələcək, Ermənistanın da yer aldığı 28 avqust inauqurasiyasından sonra. Birbaşa təmas imkanı olsaydı, "sayın Ərdoğan, şunu yapma" deyərdim. Amma yəqin ki, gecdir, Sərkisyanın emissarları artıq yol üstədir...

YENİ MÜSAVAT
N 214 (5923) 27 avqust 2014



# Qadağan

Zamin HACI
zaminhaci@gmail.com

**Yapistlər Bakı yaxınlığındakı Pirallahı adasında əyləncə mərkəzləri, "Disneyland"-filan qayırmaq fikrindəymiş. Bu haqda xəbərlər yeni deyildir, misal üçün, Nargin adasında qurulacaq cənnət haqda cəfəngiyatlar hökumətyönlü medianın sevimli xəbərlərindən biridir, ildə azı 3-4 dəfə dövriyyəyə buraxarlar, avamlar da kompüter qrafikası ilə hazırlanmış effektli şəkillərə baxıb ağzının suyunu axıdar. Daha soruşmaz ki, mən niyə müalicə üçün İrana getməliyəm, iş axtarmağa Rusiyaya, istirahətə Gürcüstana, alverə Türkiyəyə yollanmalıyam və sairə. Mifik, virtual, qrafik bir vətən qayırırlar bizə, biz də zövq alırıq.**

Ancaq Pirallahıda "Disneylənd" qayırmağın müəyyən mənfi cəhətləri də vardır, istərdim buna diqqət yetirək. İlk növbədə, yerin adı uyğun gəlmir. Əgər sovet işğalı dövründəki adı - Artyom qalsaydı bəlkə düz gələrdi, indiki halda pir və Allah sözlərini üzərində daşıyan məkanı əyləncə yerinə döndərmək məqsədəuyğun deyildir, islam dünyasında telorant, ya da tolerant - dəqiq bilmirəm bizdə hansıdır - imicimizə ziddir. Heç adam da Pirallahında əylənər? Orda ibadət eləmək lazımdır.

İqbal bəy demişkən, məsələnin dialoq yolu ilə həlli də mümkündür. Ya gərək adanın adını dəyişdirib orda yeyib-içək, ya da yeyib-içib-dingildəşmək üçün ayrı məkan seçək. Elə həmin Narginin adı əyləncə üçün daha müvafiq səslənirdi. Qız adına oxşayır.

Hər halda, mən həyəcan təbilini çaldım, ümidvaram cənab möhtərəm prezidentin dini etiqad azadlığı üzrə müşaviri Kamal Abdulla müəllim də bu mövzuda lazımi çalışmalar yapacaqdır. Kamal müəllimin fəaliyyəti hazırda çox hiss edilir, məsələn, o, müşavir qoyulandan sonra bir çox rayonlarda yas məclisində masalara aş, bozbaş gətirilməsi qadağan olunmuşdur. Bunu xüsusi qeyd etməliyik.

Düzü, mənə məlum deyil hakimiyyət yas mərasiminə texniki baxımdan necə müdaxilə edir. Kimsə dədəsinə ehsan üçün plov bişirib banan düzəndə yerli polis gəlib masaya təpik vurub dağıdırmı? Mollanı tutub aparıb Kürdəxanı zindanında profilaktik söhbət edirlərmi? Milli Təhlükəsizlik Nazirliyi süfrəyə qoyulan dovğa stəkanlarından maye heroin aşkar edib tərəfimizdən götürülürmü? Necədir proses? Yas yerində ehsanın sadələşdirilmiş variantı - çay, limon, halva, konfet, lavaş üzərinə hansısa əlavələrə icazə üçün yerli icra hakimiyyətindən lisenziya alınmalıdırmı?

Əlbəttə, ölünü özbaşına qoymaq olmaz, bu haqda ata sözümüz də vardır və elə anlaşılmasın ki, mən burda yas yerlərində qayda-qanun, ictimai asayiş yaradılmasının əleyhinəyəm. Qətiyyən! Hətta mən tərəfdaram ki, polis rəislərinin, prokuror və icra başçılarının, nazirlərin şadlıq sarayları əllərindən alınsın, hakimiyyət toy süfrəsində də qayda-qanun, sabitlik, dövlətçilik yaratsın, lazım gəlsə yengəyə qədər bütün vəzifələr müvafiq icra orqanı tərəfindən qoyulsun. Sadəcə, yeganə marağım prosedura, texniki üsullaradır.

Yazının sonunda rus yazıçısı Moşe Şaninin "Qadağan" şeirini dilimizə çevirmişəm, onu əziz oxucularımıza təqdim etmək istərdim:

"Qadağan haqda şeir
Öncə Ğ hərfi qadağan edildi
Sonra İ hərfi qadaan edildi
Sonra L hərf qadaan edld
Sonra Q hərf qadaan edd
Sonra H hərf adaan edd
Sonra F ərf adaan edd
Sonra D ər adaan edd
Sonra A ər aaan e
Sonr R ə n e
Son N ə ne
So Ə e
S O e
S e
Sssssssssssss!"

Avrasiya Birliyinin yeni Ukraynası Azərbaycan olacaq?

# Bakı üçün geri sayım başlayıb

## Putin öz projesinin xilası üçün son savaşa girib; sürünən işğal siyasəti hələ bitməyib; Ukraynanın Rusiyadan aralanması minlərlə insanın, Krımın itkisi hesabına başa gəldi, bəs Azərbaycana neçəyə başa gələcək?..



**Rusiya prezidenti Vladimir Putinin işləri yaxşı getmir. Kreml başçısı neçə aydır Ukraynaya görə Avrasiya Birliyi layihəsini dondurmalı olub. Vaxt isə daralır. Daraldıqca sövq-təbii şanslar, imkanlar və ən əsası, Putinə onun öz ölkəsi daxilində inam-rəğbət də zəifləyir. Həmçinin Rusiya imperiyasını reanimasiya eləməyə yönəlik proje iflasa yaxınlaşır.**

KQB polkovniki, şübhəsiz, bütün bunları bilir və ciddiyə alır. Çünki onun rus xalqı qarşısında öyünə biləcəyi, ona təsəlli verəcəyi yeganə amil məhz imperiya ambisiyaları ilə, Rusiyanın sərhədlərini genişləndirmək planları ilə bağlıdır. Bu müstəvidə də o, yalançı çıxsa, batdı. Odur ki, var gücü ilə Ukraynadan, daha doğrusu, onun şərqindən yapışıb, Ukrayna xalqına qarşı elan olunmamış müharibə aparır, sürünən işğal siyasətini bütün dünyanın gözü qarşısında davam etdirir. Bilir ki, Ukrayna əldən çıxan kimi Avrasiya və Gömrük ittifaqlarının taleyi MDB-dən də betər olacaq.

Putinin Ukraynaya qarşı virtual müharibəsi isə alınmır. Axı o, həm də Qərbin ağır iqtisadi sanksiyalarından qaçmaq istəyir. Artıq onun Ukraynaya göndərdiyi zirehli texnikalar vurulur, desantları əsir götürülür. Əsir düşənlər də əlbəttə ki, "sandığı açıb pambığı tökür", Putinin işğalçılıq siyasətini faş edirlər. Son əsir alınan rus hərbçilər Kreml başçısını Ukraynaya qoşun göndərməyi dayandırmağa çağırıblar. "Ukrayna müstəqil ölkədir. Əgər orada nə isə problem varsa, qoy onlar öz daxilində həll etsinlər. Bu, bizim müharibə deyil" deyiblər.

Ancaq hələ ki bu faktlar da Putini durdurmur. Ona görə ki, özü üçün geriyə abırlı yol qoymayıb. "Arxada Moskvadır". Rus çarı həm də tələsir, ona görə ki, sentyabrın 5-6-da Uelsdə NATO-nun sammitidir. Rusiya məsələsinin mərkəzi mövzu olacağı zirvə toplantısı ərəfəsində o, Ukraynada güc nümayiş etdirmək, alyansın qərarlarına təsir eləmək niyyətindədir. Alınacaqmı? Söyləmək çətindir. Hər halda, Ukrayna və onun ordusu, lap elə rəhbərliyi və prezidenti bir neçə ay əvvəlki də deyil, daha mobil, daha çevik, daha qətiyyətlidir.

Bu arada Rusiyanın zəifləməsindən istifadə edən Qazaxıstan prezidenti Nursultan Nazarbayev ölkəsinin Avrasiya Birliyindən çıxa biləcəyini istisna eləməyib. **"Qəbul edilən qərarlarla razılaşmayacağı təqdirdə Qazaxıstanın Avrasiya İqtisadi İttifaqından çıxmaq hüququ var".** Modern.az saytının newskaz.ru saytına istinadən verdiyi xəbərə görə, bunu Nazarbayev ölkəsinin Avrasiya İttifaqından çıxmaq perspektivini şərh edərkən deyib.

O bildirib ki, siyasi olmayan iqtisadi ittifaqın yaradılması daha düzgündür. Prezidentin sözlərinə görə, Qazaxıstan, Rusiya, Belarus qərarların həllində vahid mövqe sərgiləməli, ittifaq dövlətləri bərabər hüquqlar əsasında, konsensus halında qərarlar qəbul etməlidir. **"Ancaq biz hansısa qərarla bağlı razılaşmasaq, o zaman ittifaqdan çıxmaq hüququmuz var. Müstəqillik Qazaxıstan üçün əsas dəyərdir"**, - deyə o, əlavə edib. Qazaxıstan dövlətinin başçısı habelə, Ukraynadakı durumun gərginləşməsi səbəbindən Rusiyaya tətbiq edilən sanksiyaların Avrasiya Birliyinə də təsirsiz ötüşməyəcəyi qənaətindədir.

Məsələ də ondadır ki, Putinə bərabərhüquqlu dövlətlərdən ibarət Avrasiya İttifaqı, ümumiyyətlə, gərək deyil. Əks halda, o, bu boyda həngaməyə, Ukrayna avantürasına, Qarabağ təxribatlarına, Allah bilir daha hansı avantüraya getməzdi. Ukrayna yəqin ki, artıq əldən çıxıb. Onu indi pis-yaxşı yalnız Azərbaycan əvəzləyə bilər. Kritik sual da elə budur ki, Ukraynanın Moskvadan aralanması minlərlə insanın həyatı, Krımın itirilməsi hesabına başa gəldi və proses hələ də tamamlanmayıb, bəs Azərbaycana neçəyə başa gələcək?

Bu sual indi təkcə rəsmi Bakını yox, Azərbaycanın toplumunu, bütün ictimai-siyasi qüvvələri düşündürməlidir. Vaxt isə azdır. Demək olar, geri sayım başlayıb.

❑ Siyasət şöbəsi

# İqtidarla müxalifət dünyanı niyə bölə bilmir?

## Siyasi ekspertə görə, beynəlxalq qurumların hədəfə çevrilməsində günahın böyük hissəsi həmin qurumların özünün fəaliyyətindədir

**Azərbaycanın nə müxalifəti, nə də iqtidarı beynəlxalq qurumlara, dünya güclərinə etimad göstərmirlər. Bunu hər iki düşərgədən az qala hər gün verilən bəyanatlardan, açıqlamalardan sezməmək mümkün deyil. Hakimiyyət təmsilçiləri də, müxalifət nümayəndələri də dünya güclərindən, beynəlxalq təşkilatlardan istədiklərini ala bilmədiklərini açıq və ya dolayısı ilə dilə gətirirlər.**



Natiq Miri

Bu mövzuda danışan **siyasi şərhçi Natiq Miri** isə hesab edir ki, beynəlxalq qurumların hədəfə çevrilməsində günahın böyük hissəsi həmin qurumların özünün fəaliyyətindədir. İqtidarla müxalifətin beynəlxalq təşkilatlar və supergüclərdən narazılığında subyektiv, həmçinin obyektiv amillər var: "Belə bir prinsip var ki, hər bir məfhum öz son inkişaf həddinə çatanda özünün əksinə çevrilir. Bu gün beynəlxalq qurumlar da özünün son inkişaf həddinə çatıb. Beynəlxalq qurumların fəaliyyətinə də diqqət yetirəndə görünür ki, artıq beynəlxalq qurumlar son inkişaf həddinə çatıb və onların yeni islahatlar aparmasına ehtiyac yaranıb. Lakin bu islahatlar aparılmır. Fikir verirsinizsə, başda Birləşmiş Millətlər Təşkilatı olmaq şərtilə, Avropa Şurasına qədər beynəlxalq qurumların fəaliyyəti demək olar ki, iflic vəziyyətindədir. BMT-də hətta ən böyük dünya gücü olan ABŞ belə, bu gün Rusiyanın işğalçı addımlarına qarşı hər hansı ciddi qərar qəbul etdirmək imkanında deyil. Bu, göstərir ki, artıq BMT iflic vəziyyətindədir. Eyni zamanda Avropa Şurasının fəaliyyətini götürək, bu gün Avropa Şurası öz prinsiplərinin əleyhinə fəaliyyət göstərir. Avropa Şurasının əsas prinsipləri demokratiya, insan hüquqları, söz azadlığıdır. Bu gün Avropa Şurası bu prinsipləri pozanlar barəsində qərarlar çıxarmaq gücündə deyil. Korporativ maraqlar imkan vermir ki, ciddi qərarlar qəbul olunsun. Bu baxımdan mən razıyam ki, həqiqətən də artıq beynəlxalq qurumlar fəaliyyət göstərmək sahəsində çox ciddi problem yaşayırlar. Hiss olunur ki, beynəlxalq qurumlarda ciddi islahatlar keçirilməsə, tamamilə yeni prinsiplər yönündə fəaliyyət imkanı tanınmasa, bu qurumların mövcudluğunun əhəmiyyəti qalmayacaq".

**Ekspertin sözlərinə görə, Azərbaycan hakimiyyətinin və müxalifətinin beynəlxalq qurumlardan narazı olmasının da ciddi əsasları var:** "Məsələn, hakimiyyət beynəlxalq qurumları ona görə tənqid edir ki, bir sıra beynəlxalq təşkilatlar Azərbaycanın işğal olunmuş ərazilərinin qaytarılması məsələsini qoymaqdan çox, Azərbaycanda insan hüquqları ilə bağlı məsələləri qabardır. Ancaq bəllidir ki, bu məsələdə də dünya güclərinin konkret geosiyasi maraqları var. İnsan hüquqları məsələsini qaldırmaqla hakimiyyətə təzyiq edirlər ki, həmin geosiyasi maraqlarını təmin edə bilsinlər. Bunu da Azərbaycan hakimiyyəti qəbul etmir və beynəlxalq qurumlar, dünya güclərini ikili standartlarda ittiham edir. Müxalifət isə beynəlxalq qurumları ona görə tənqid edir ki, həmin qurumlar özlərinin qəbul etdikləri prinsiplərə zidd davranırlar. Çünki bu qurumlar üçün prioritet demokratiya, insan haqları, söz azadlığıdırsa, Azərbaycanda bu məsələlərə yanaşmada fundamental heç nə yoxdur. Ölkədə antidemokratik seçkilər, siyasi həbslər keçirilir. Lakin beynəlxalq qurumlar lazımi səviyyədə reaksiya vermirlər. Ona görə də haqlı olaraq müxalifətin hədəfinə çevrilirlər".

❑ E.SEYİDAĞA

**"İraq Şam İslam Dövləti" (İŞİD) təşkilatının Türkiyəyə yönəlik təhdidləri son vaxtlar daha da artmaqdadır. İraqda apardığı işğal əməliyyatının ilk günlərində Türkiyənin Mosuldakı konsulluğuna basqın edərək Türkiyə vətəndaşlarını girov götürməklə, həmçinin türkmənləri soyqırıma məruz qoymaqla həm də Ankaraya meydan oxuyan terror hörgütü indi də qardaş ölkəyə hücum planlarından bəhs etməkdədir. Türkiyə Böyük Millət Məclisinin MHP-li millət vəkili Atilla Kaya ilə söhbətimizdə öncə bu təhdidlərdən danışdıq.**

# "İŞİD əslində Türkiyənin torpağını işğal edib"

## Atilla Kaya: "Bu gün Türkiyənin Şərqi Anadolu bölgəsində PKK-nın hakimiyyəti var"

*- Atilla bəy, son vaxtlar İŞİD-dən Türkiyəyə ünvanlı hədələr artıb. Siz bu təhlükəni nə dərəcədə real sayırsınız?*

- Vallah, indi İŞİD terror təşkilatının Türkiyəni təhdid etməsi müzakirə mövzusu ola bilməz. Amma Türkiyə ilə əlaqədar bir təhlükə var. Düzdür, İŞİD bəzi cameləri dağıtdı, cəfəri vətəndaşlarımıza, şiə vətəndaşlarımıza təhlükə yaratdı. Onlar Türkiyənin daxilində terror hadisələri törədə bilərlər. Mətbuatdan bilirik ki, Türkiyədən Suriyaya bəzi insanlar gedib, yardım adı altında İŞİD-ə müxtəlif dəstək verilib. AKP hökuməti İŞİD-ə indiyə qədər terrorçu təşkilat demədi. Bunları nəzərə aldıqda görərik ki, təhlükə hökumətin İŞİD-ə münasibətindən gəlir. Ötən aylarda Türkiyədən Suriyaya bir sıra TİR-lər gedib. Bəzi iddialara görə, bu TİR-lərdə silah-sursat olub. Hökumət isə bunun cavabında deməşdi ki, bu, türkmənlərə yardım olaraq göndərilib. Ancaq biz bilirik ki, türkmənə gedən bir şey yoxdur, türkmən sahibsizdir. Orta Şərqdə hər kəsin sahibi var, yalnız türkmənin sahibi yoxdur. Elə isə bu silah-sursat kimə getdi? "Əl-Nüsra"yamı getdi, "əl-qaidə"yəmi? Yəni dediyim kimi, ən təhlükəli vəziyyət AKP iqtidarının İŞİD kimi terror təşkilatlarına münasibətindən qaynaqlanır. Yoxsa İŞİD-in Türkiyəyə hücum edib ərazi qopartması mümkün şey deyil.

*- Belə bir planın olmasından bəhs olunur ki, çox keçməyəcək İŞİD məhv ediləcək və onun zəbt etdiyi ərazilər kürd peşmərgələrinin əlinə keçəcək. Növbəti mərhələdə isə peşmərgələr Türkiyənin kürdlər yaşayan bölgələrini əhatə edən dövlətin qurulduğunu elan edəcəklər. Bəs bu iddialar haqda nə demək olar?*

- Əslində bu gün Türkiyənin Şərqi Anadolu bölgəsində PKK-nın hakimiyyəti var. Düzdür, Türkiyə Cümhuriyyətinin bayrağı ucalır, təhlükəsizlik qüvvələri mövcuddur, amma bunlar da vəziyyəti dəyişmir. Çünki PKK-nı məhəbbətlə qəbul edən, onunla müzakirələr aparan, bazarlıq edən bir iqtidar var. Dolayısı ilə bu müzakirələrin nəticəsində güc qazanan, insan potensialını daha da genişləndirən və silahlanan bir terror təşkilatı var. İstədikləri vaxt bayraqları endirirlər, terror həyata keçirirlər, Atatürkün heykəlini dağıdırlar, yol kəsirlər, hər şey edirlər. Zatən orda faktiki olaraq bir PKK hakimiyyəti var. Bu isə hazırda təhlükənin çox ciddi olduğunu deməyə əsas verir. İŞİD türkmənlərə divan tutdu, Mosulu aldı, heç kəsdən səs çıxmadı. Nə zaman peşmərgələrə doğru, Ərbil istiqamətində bir hərəkətlənmə oldu, o zaman Amerika İŞİD-i bombaladı. Bu gün artıq bütün Avropa kürdə yardım edir. Həmçinin PKK-ya yardım edilsin-edilməsin deyə, bütün Avropada müzakirələr aparılır. Bu mənada "birləşmiş, böyük Kürdüstan" məsələsi böyük bir təhlükədir. İraq, Türkiyə, Suriya, İraq ərazilərini əhatə edən bir kürd dövlətinin qurulması məsələsi illərdən bəri dilə gətirilən bir röyaya çevrilib və bununla əlaqədar çox ciddi addımlar atıldığını düşünürəm.



**"Orta Şərqdə hər kəsin sahibi var, yalnız türkmənin sahibi yoxdur"**

*- ABŞ Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Martin Dempsi İŞİD-ə qarşı döyüşmək üçün Türkiyəyə də müraciət edib. Sizcə, Ankara bu müraciəti dəyərləndirib proseslərə müdaxilə etməlidirmi və edəcəkmi?*

- İŞİD Türkiyənin konsulluğuna basqın etdi, 49 konsulluq əməkdaşını girov götürdü. Konsulluq Türkiyənin torpağı deməkdir. Yəni İŞİD əslində Türkiyənin torpağını işğal etmiş durumdadır. Türkiyə hökuməti bununla əlaqədar da bir şey etmədi. Bundan sonra da bu hökumətin İŞİD-ə qarşı hansısa addımlar atacağını düşünmürəm.

*- Cənab Ərdoğan prezidentlik səlahiyyətlərini icra etməyə başladıqdan sonra türkmənlərlə bağlı hökumətin münasibəti dəyişə, onların qorunması üçün hərəkətə keçilə bilərmi?*

- Ərdoğan buna qədər baş nazir idi. Belə anlaşılır ki, Ərdoğan bundan sonra həm baş nazir, həm də prezident olacaq. Məncə, o, dövlət başçısı olaraq baş nazirlikdəki fəaliyyətini, siyasətini davam etdirəcək. Yəni hər hansı bir dəyişiklik gözləmirəm. Ənənəvi siyasətin davam etdiriləcəyini düşünürəm.

*- Ərdoğanın andiçmə mərasiminə Sərkisyanın dəvət olunması Azərbaycanda etirazla qarşılanıb. Erməni prezident XİN başçısı səviyyəsində andiçməyə qatılacaqlarını açıqlayıb. Türkiyədə bu dəvətə münasibət necədir?*

- Əslinə qalsa, qardaşlar bir araya gəlmiş olar. Bu mənada Sərkisyan qatılsa, yaxşı olardı. Əslində Türkiyədə Azərbaycandakı təpkilər olmasa, Ərdoğanın Sərkisyanla, Ermənistanla əlaqədar çox olumlu düşüncələrə sahib olduğunu bilirik.

*- Yəni Ərdoğanın prezidentliyi dönəmində Ermənistana yönəlik yumşaq siyasət davam edəcək?*

- Ərdoğanın siyasətinə baxdığımız zaman görürük ki, türkün, Türkiyənin düşmənlərinə münasibətdə fərqli baxışı olub, onlara yumşaq münasibət bəsləyib. Ermənistana münasibətdə sərt münasibət görmədik, sərhədləri açmaq istədi, təpkilər oldu, geri çəkilmək məcburiyyətində qaldı. Amma İraq, Suriya türklərinə yönəlik məsələlər, yaxud uyğurlar məsələsi türklər müzakirə mövzusu olduğu zaman Ərdoğandan bir kəlmə mövqe görmədik.

*- Rəcəb Tayyib Ərdoğanın 3 sentyabrda həyata keçirəcəyi Azərbaycan səfərindən gözləntiniz nədir?*

- Elə bir şey gözləmirəm, sıradan bir səfər olacaq. Simvolik olaraq Türkiyənin yeni seçilən prezidentinin ilk olaraq səfər etdiyi ölkə Azərbaycandır. Təbii ki, bu, önəmli məsələdir. Amma bu səfərdə mühüm nələrinsə olacağını güman etmirəm.

❑ **Elşad PAŞASOY**

# Diktatura mozaikası



**Hüseynbala SƏLİMOV**

**Fikirləşdim ki, sizə kimdən deyim, kimdən danışım, bu qərara gəldim ki, Belarusdan başlayım. Bəli, o səbəbdən ki, bu ölkədə böyük senzura şəbəkəsi yaratmağa hazırlaşırlar.**

Hərçənd ki, Belarusda bu vaxta qədər senzuranın olmaması mənə çox, olduqca qəribə göründü, amma A.Lukaşenkonun növbəti layihəsi bundan heç də az təəccüb doğurmadı - yaxın vaxtlarda bu ölkədə düz yeddi senzura strukturu yaradılacaq, bir strukturu respublika, digər altısını isə vilayət miqyasında yaratmağı planlaşdırırlar...

Elə bizdə də, Azərbaycanda da senzuranı yenidən dirçəltmək planları var. Hətta o gün oxudum ki, bu xüsusda qanun layihəsi də hazırlanır. Düzdür, bu qanun hərbi informasiyaların qorunmasına yönələcək. Amma məsəl var, deyirlər ki, ilan vuran ala çatıdan da qorxar...

Onsuz da ölkə bərbad vəziyyətdədir. İctimaiyyət və siyasət fəalları təqib olunur, hətta həbslər də olur. Nə deyim? Onsuz da hər şey hamıya bəllidir və bircə onu deyə bilərəm ki, necə deyərlər, bir saqqal darağımız qalmışdı, indi o da olacaq...

Ölkədə müxalifətin varlığı ümumiyyətlə duyulmur. Bilmirəm, onlar da yaxın və ya uzaq xaricə istirahətə gediblər, yoxsa elə bacardıqları budur? Hər halda, o qədər də asan sual deyil - güman ki, mənimlə razılaşarsınız...

Artıq Belarusa da, Türkmənistana da çatmışıq. Əslində onlardan bir o qədər də uzağa getməmişik, indi lap yaxınlaşdıq...

Bəli, dünya həqiqətən də təzadlarla doludur. Sözüm yenə də Rusiyanın üstünə gələcək. Bu ölkənin təqvimində iki hadisəyə rast gəldim. Biri budur ki, bu həftə yazıçı və filosof, ən başlıcası isə inqilabçı A.Radişşevin anadan olmasının 265 illiyi tamam olur. Amma bu həftə ruslar üçün həm də ona görə əlamətdardır ki, avqustun 26-sı Cənubi Osetiyanın və Abxaziyanın tanınması günüdür. Bəli də, bir tərəfdə tənqid, o biri tərəfdə isə təqlid...

Bunu oxuyanda fikirləşdim ki, görən, Rusiyaya indi daha çox nə lazımdır? Daha doğrusu, kim və nə lazımdır? İndi Rusiyaya A.Radişşev lazımdır, yoxsa Osetiya və ya Abxaziya?

Mənim fikrimcə, indiki Rusiyaya daha çox A.Radişşev lazımdır. Elə bir adam ki, böyük imperiyanın şəhərlərinə səyahət etsin, onun tozlu-torpaqlı yollarından keçsin və bunları insanlara danışsın... Bu gün Rusiya iki qütbü və iki cəhəti özündə birləşdirir- həm azadlıq demək istəyir, həm də imperiya...

Mən niyə bu qədər Rusiyaya diqqət ayırıram? Ona görə ki, bizimkilərin müəllimləri Rusiyada oturub. Addım-addım daxili siyasətdə onları təqlid edir və onların "ideya"larını burada həyata keçirirlər.

Amma ortalıqda bir ciddi fərq var. Rusiyada ruslar üçün olmasa da, Rusiya üçün nəsə edirlər. Burada isə bu, yoxdur. Yalnız özlərini və hakimiyyətlərini düşünürlər. Bəlkə də əvvəldə bəhs etdiyim Belarus buradan daha sosial və daha çox rifah dövlətidir. Hərçənd ki, bunu yazmaq mənim üçün olduqca çətin bir məsələdir. Adam da Belarusa şükür edərmi? Bir görün, nə günə qalmışıq!..

Yadıma "Dəli Kür" filmindən bir epizod düşür. Maraqlıdır ki, A.Radişşev məsələsi orada da yer almışdı. Bəli, o filmdə rus Əhməd deyir ki, indi bütün imperiya toz içindədir...

Çox istərdim ki, rus Əhmədin dedikləri indiki Rusiya üçün də çin olsun. Gəl, imperiya bir yerdə durmur, ən azı öz hərbi texnikasının irəliləməsi üçün yollar tikir...

Amma dünyada "modern" imperiyalar da çökür. Ona görə də düşünməyin ki, Rusiya bir imperiya kimi əbədidir. Yox, əbədi deyil. Kainatda heç nə əbədi deyil, elə o cümlədən də kainatın özü-Heraklit demişkən, hər şey axır, hər şey dəyişir və hər şey öz ölümünə doğru tənbəl-tənbəl addımlayır...

Amma bu ölkədə ağlasığmaz, məntiqlə yozula bilməyən hadisələr də baş verir Vladimir Putinin reytinqinin kəllə-çarxa çıxması da belə hadisələrdəndir. Ona görə də birmənalı şəkildə demək olar ki, bu imperiya orta statistik rus mujikinin sadəlövhlüyü üzərində qurulub...

Elə bizim Novruzəlilər də az aşın duzu deyillər, bizim hakimiyyət də onların çiyinləri üzərində bərqərar olub.

Nə isə. Belarusdan başladıq, Azərbaycana keçdik, oradan da Rusiyaya adladıq. İndi daha nə deyək? Bilirik ki, yayda bəzi adamlar gündüz də yatırlar.

Ona görə də "Yuxunuz şirin olsun!" deyirik...

YENİ MÜSAVAT
N 214 (5923) 27 avqust 2014



# Yolsuzluq

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Üç günlük müharibə eyforiyası bitdi. Üç gün vətənpərvər olduq. Hamı da heyrətləndi ki, bu qədər həbslərin, təqiblərin sıralandığı ölkədə insanların qəlbində torpaq sevgisi ölməyibmiş... Əslində bu ölkədə yaşayanlar siyasi qatlardan xəbərdardır, səbəbi də bilirik, səbəbkarı da... Buna görə də biz torpaqlarımızı yad tapdağından azad etməyə köklənəndə Rusiyadan gələn təhdidləri adi bir hal kimi qarşıladıq... Hamını sifətində yenə acı bir gülüş iz qoydu. Təzədən düz 20 il davam edən ovqata kökləndik...**

İndi siyasilər qol çırmayıb üç günlük savaşda doğrulmayan ümidləri çək-çevir edirlər. Birisi deyir ki, bu, savaş əmri vermək üçün əlverişli məqam idi, o birisi təkid edir ki, bu, Rusiyanın öz planlarını həyata keçirməsi üçün bir fürsət olardı. Guya nə vaxtsa şəraitin dəyişəcəyini, məhz onda Azərbaycanın öz torpaqlarını işğaldan azad edəcəyini deyənlər də var... Amma heç kim də bunun nə vaxt baş verəcəyini bilmir... Biz yenə xəyali bir məchulluğa üz tuturuq...

Daha çox dəbdə olan arqumentlərdən biri də budur ki, beynəlxalq təşkilatlar - ATƏT, BMT, dünyanın taleyini həll edən ölkələr bizim ümummilli problemimizə seyrçi yanaşırlar, illər ötür, amma bir dönüş yaranmır. Amma yada düşmür ki, biz özümüz də bu yöndə ciddi bir addım atmamışıq. Bu illər ərzində problemin sülh yolu ilə həll olunacağına dair vədlər sıralanıb... Hətta dövlət rəsmiləri də yaxşı bilirlər ki, düşmən xoşluqla işğal etdiyi ərazilərdən çəkilməyəcək...

Bu da sirr deyil ki, torpağı işğal edən də, hər il onu azad edəcəyini vəd edən də niyyət ortağıdırlar. Ən azından Dağlıq Qarabağ məsələsi hər iki tərəfin hakimiyyəti qorumaq üçün istinad nöqtəsidir. İnsanlar məhz buna görə sosial tələbləri ciddi şəkildə qoymaqdan çəkinirlər. Hakimiyyət də narazı kütləni susdurmaq üçün bu bəhanədən yararlanır... Hər iki ölkədə yetərincə oxşarlıqlar var... Yeganə fərq ondadır ki, Azərbaycan neft gəlirləri hesabına üstünlük görüntüsü yaradır... Bütövlükdə isə biz zəngin ölkədə saysız-hesabsız əzablara döze-döze yaşayan bəndələrik...

Bəyəm bunu anlamaq o qədərmi çətindir ki, bizi tərəddüdlər labirintinə düşdüyümüz, aydın, qətiyyətli mövqe nümayiş etdirmədiyimiz qədər dünya ölkələri də Azərbaycanın taleyinə laqeyd qalırlar. İndi heç bir dövlət Ermənistanın Rusiyanın vassalına çevrilməyini məmnunluqla qarşılamır. Hətta açıq şəkildə dünyanın demokratik kəsiminin Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etdiyi, bölücü xəttin bu qədər aydın cızıldığı bir vaxtda düşmənlə dost olana baş əyirik... Nə qədər qəribə olsa da, əli Qərbdən üzülən Rusiyaya dar gündə əl uzadırıq... Onsuz da öz ehtiyaclarını təmin etməyən ölkədən zəruri mallar Rusiyaya daşınır... Bu dərhal daxili bazara təsir göstərdi - bir neçə gün ərzində tərəvəz məhsulları iki-üç dəfə bahalaşdı... İndi bağın-bostanın məhsulunun gur vaxtı yaşanan sıxıntıların qış aylarında hansı həddə qərarlaşacağını göz önünə gətirin. Rusiyanın qılığına girmək üçün belə səxavətli görünmək kökündən yanlışdır. Kimə sirdir ki, bunun qarşılığında Rusiyanın mövqeyi qətiyyən dəyişməyəcək, əksinə, bizi yenidən öz girovuna çevirməyə həvəslənirəcək.

Kimə bəlli deyil ki, Rusiyanın yeni imperiya qurmaq istəyi yolunda Ukrayna maneəsi olmasa idi, bizi hansı sıxıntılar gözləyərdi. Bizim taleyimiz məhz Ukraynada həll olunur. Bütün bunlara baxmayaraq biz bu fürsətdən də yararlanmırıq, məhz indi Rusiya qarşısında Dağlıq Qarabağ problemini daha sərt, daha qətiyyətli şəkildə qoymaq olardı. Rusiyaya imperiya ambisiyalarına hədəf olan ikinci bir ölkədə münaqişənin alovlanması qətiyyən sərf etmir...

Heç Ermənistanın cəbhədəki üçgünlük savaşdan sonra Gömrük İttifaqına və Avrasiya Birliyinə qoşulmaq istəyinin reallaşması da təsadüfü deyil. Məhz baş verən proseslərin xarakterinə uyğun olaraq atılan addımdır...

Hələliksə ölkədə özək səbəbləri olmayan bir arxayınçılıq yaranıb. Əslində bu aydın yolu, strateji inkişaf istiqaməti bəlli olmayan bir ölkədə yaşanan gözləntilərdir. Biz həm fiziki, həm mənəvi baxımdan yolsuzluq labirintinə düşmüşük. Heç kim bizim əvəzimizdən hansı səmtə üz tutmağı müəyyənləşdirməyək. Əslində belə durum davam edincəyə qədər bizim əzəli problemimiz - Dağlıq Qarabağın və onun ətrafındakı rayonların işğaldan azad olunması da mümkün olmayacaq...

# Vasif Talıbov kabinetində döyülən komitə sədrini işdən qovdu

**Naxçıvanda bir neçə ay əvvəl qısqanclıq zəminində kabinetində döyülən nazir işdən çıxarılıb. Belə ki, MR Ali Məclisinin sədri Vasif Talıbov Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Malik Rzayevin vəzifəsindən azad olunması haqda sərəncam verib. Bu haqda AzPolitika.info-ya Naxçıvandakı özəl mənbələrdən məlumat daxil olub.**

## Naxçıvanda Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Malik Rzayev vəzifəsindən kənarlaşdırılıb; komitə rəhbərinin adı rüsvayçı olayda hallanırdı, kabinetində döyüldüyü deyilirdi

Malik Rzayev bir neçə ay əvvəl Naxçıvanda görünməmiş bir rəzalətlə üzləşmişdi. O, öz işçisi tərəfindən kabinetində döyülmüş, daha sonra günahı qarşı tərəfin üzərinə ataraq özünü təmizə çıxarmağa cəhd etmişdi. Bu barədə AzPolitika.info-da məlumat dərc olunduqdan sonra M.Rzayev ifşa olunaraq məqsədinə çata bilməmişdi.

Sayt qeyd edir ki, hadisənin təfərrüatı rüsvayçı olduğundan o vaxt yaza bilməmişdik. Lakin artıq onun vəzifəsindən çıxarılması ilə bu məlumatlar rəsmən öz təsdiqini tapmış kimi göründüyündən qısaca deyə bilərik ki, Malik Rzayev Metrologiya və Patent üzrə Dövlət Komitəsinin xanım işçisi ilə birlikdə öz kabinetində basılmışdı.

Basqınçı isə xanım işçinin yenə də adıçəkilən komitənin əməkdaşı olan həyat yoldaşı olmuşdu. Hadisədən dərhal



Vasif Talıbov

sonra hər iki tərəf polisə şikayət etmişdi. Deyilənə görə, Malik Rzayev öz ifadəsində xanım işçisinə "yazı yazdırarkən" qısqanclıq zəminində hücuma məruz qaldığını bildirmişdi. Onun bu ifadəsini komitənin digər işçiləri də təsdiqləmişdilər.

Qarşı tərəf isə öz şikayətini ittihamlar üzərində qurmuşdu. Lakin polisdə aparılan araşdırma xeyli uzandı. Bir müddət camaat arasına çıxmayan Malik Rzayev də öz işinin başında qaldı. Hətta bir ara məlumatlar da gəlməyə başladı ki, namusuna sataşıldığı üçün komitə sədrini döyən şəxsi dəlixanaya salıblar...

Məlumatda bildirilirdi ki, hadisənin baş verdiyi günlərdə MR Ali Məclisinin sədri Vasif Talıbov xaricdə olub.

"Hamı MR rəhbərinin Malik Rzayevlə bağlı nə qərar verəcəyini maraqla gözləyir. Çünki belə məsələlərə onun münasibəti sərt olur", deyə mənbə bildirmişdi. Lakin Vasif Talıbov Naxçıvana qayıtsa da, gözlənilən qərar verilməmişdi. Görünür, Ali Məclis sədri daha dərin araşdırmaların bitməsini gözləyib...

Onu da qeyd edək ki, öz kabinetində basılmış komitə sədrinin fərari olduğu, vaxtilə hərbi xidmətdən yayınmaq üçün o vaxtkı pulla 300 min manat pul verdiyi də AzPolitika.info-ya daxil olan məlumatlar sırasında idi. Hərbi xidmət keçməmiş bir şəxsin yüksək vəzifə tutması isə "Dövlət qulluğu haqqında" Qanuna ziddir.

"Yeni Müsavat" Naxçıvandakı özəl qaynaqlardan bu xəbəri araşdırıb. Yerli mənbələr məlumatı təsdiqləyib. Həqiqətən də M.Rzayev vəzifəsindən kənarlaşdırılıb. Mənbə qeyd edir ki, bununla bağlı hər hansı rəsmi açıqlama olmayıb. Komitədən Naxçıvandakı sərəncamla bağlı rəsmi rəy öyrənmək istəsək də, nə mətbuat xidmətindən, nə də qurumun özündən bir mövqe ala bildik.

❑ E.SALAMOĞLU

# İki qardaşın bir sirri - Hüseynov qardaşları haradadır?

## Vəkil Fariz Namazlı: "Emin Hüseynovun vəkiliyəm, amma mən də bilmirəm o haradadır"

**Avqustun 8-dən bu günə kimi Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun rəhbəri Emin Hüseynovun harada olması haqqında müəmmalar davam edir. Yaxınlarının dediyinə görə, nəinki RATİ-nin əməkdaşları, Emin Hüseynovun ailəsi belə onun harada olmasından xəbərsizdir.**

Daha bir təəccüb doğuran məqam isə odur ki, Emin Hüseynovu nə dövlət qurumları, nə də beynəlxalq təşkilatlar və səfirliklər axtarmır. Sanki qarşılıqlı razılaşdırılmış bir səssizlik hökm sürür. İddialara görə, hər iki tərəf E.Hüseynovun harada olmasından məlumatlıdır və ortada hansısa danışıqlar gedir.

**Bu məsələ ilə bağlı Emin Hüseynovun vəkili Fariz Namazlı ilə əlaqə saxladıq. Vəkil bildirdi ki, E.Hüseynovun hüquqlarını qorumasına baxmayaraq onun harada olmasından xəbərsizdir:** "Mənə hər hansı dövlət qurumundan Emin Hüseynovla bağlı müraciət olunmayıb ki, o haradadır. Düzdür, mən onun vəkiliyəm,



Emin Hüseynov



Mehman Hüseynov

ancaq onun harada olması ilə bağlı məndə heç bir məlumat yoxdur".

**Fariz Namazlı onu da bildirib ki, ona heç bir beynəlxalq təşkilatdan və ya demokratik ölkələrin Azərbaycandakı səfirliklərindən müraciət olunmayıb. Vəkil qeyd edib ki, hətta onların Azərbaycan hökumətinə verdikləri bəyanata və ya müraciətə də rast gəlməyib:** "Sadəcə, ABŞ səfirliyi bəyanat verib ki, Emin Hüseynov bizdə deyil. Başqa heç birini görməmişəm. "

**RATİ-də axtarış aparılması və ofisin möhürlənməsi ilə bağlı danışan Fariz Namazlı bildirdi ki, bununla bağlı Avropa Məhkəməsinə müraciət etmək niyyətindədirlər:** "RATİ-nin ofisində axtarış aparılması ilə bağlı Səbayel Rayon Məhkəməsinin qərarından biz apelyasiya şikayəti vermişdik. Apelyasiya şikayəti təmin olunmadı. Bu səbəbdən indi biz Avropa Məhkəməsinə şikayət edəcəyik. RATİ-nin ofisinin möhürlənməsi ilə bağlı istintaq şöbəsinə məktub göndərmişik ki, nə əsasla ofisin qapısını möhürləyiblər. Əgər o haqda qərar varsa, onu bizə təqdim etsinlər. Çünki RATİ-nin ofisi bağlanan zaman içəridə iş gedirdi. İşçiləri çıxarıb qapını möhürlədirlər. İşçilər onlardan nə əsasla qapını möhürləməyi soruşanda onlara heç bir izahat vermədilər. Sadəcə, qapını bağlayıb getdilər, hətta bunu aktlaşdırmadılar. Çox güman ki, biz bununla bağlı məhkəməyə müraciət edəcəyik. Avadanlıqlar da götürülüb, indi onlara ekspertiza təyin olunacaq, ancaq orada elə sənədlər var ki, onun istintaqa aidiyyəti yoxdur, müəyyən məhkəmə sənədləri var, işçilərin şəxsi telefonları və sair var ki, onları biz geri istəyəcəyik".

Vəkil qeyd etdi ki, RATİ-nin hüquqşünası və mühasibi prokurorluğa çağırılaraq dindirilib, yəqin ki, digərlərini də yaxın günlərdə çağırıb dindirəcəklər.

**RATİ-nin hüquqşünası Günay İsmayılova musavat.com-un sualına cavab olaraq, hələ də Emin Hüseynovdan bir xəbər ala bilmədiklərini bildirdi:** "Emin Hüseynovun harada olması ilə bağlı heç bir məlumatımız yoxdur. Ailəsi də E.Hüseynovla bağlı çox narahatdır. Anası yaşlı, xəstə qadındır, əlindən heç nə gəlmir. Qardaşı Mehman Hüseynov isə müalicə alır. O, uzun müddət idi ki, mədə-bağırsaq xəstəliyindən əziyyət çəkirdi. İndi vəziyyəti normaldır."

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 214 (5923) 27 avqust 2014

**İki gün öncə millət vəkili Qənirə Paşayeva bir aylıq əmək haqqını İraq türkmənlərinə bağışlayıb və imkanı olan hər kəsi İraqda yaşayan soydaşlarımıza yardıma çağırıb: “Mən bir aylıq maaşımı İraq türkmənlərinə - yəni bu ölkədə yaşayan soydaşlarımıza yardım fonduna bağışladım və imkanı, gücü çatan hər kəsi onlara yardıma çağırıram. ...Bilirəm ki, hər səkkiz nəfərindən biri qaçqınlıq, köçkünlük taleyi yaşamış, məhrumiyyətlər görmüş Azərbaycan Respublikası vətəndaşları bu çağırışı dəstəkləyəcək.**

# İraq türkmənlərinə yardım kampaniyasına kimlər qatılacaq?

Söhbət canı canımızdan, qanı-qanımızdan olan İraq türkmən qardaş-bacılarımızdan gedir. Son 100 ildə başı böyük müsibətlər çəkmiş qardaş-bacılarımızın bugünkü durumu son zamanlar İŞİD terror təşkilatının İraqda törətdiyi insanlıq dramı və vandalizm aktları üzündən çox ağırlaşıb. Şiə türkmənlərin durumu isə daha ağırdır”.

Xatırladaq ki, İŞİD-in İraq ərazilərini işğal etməsi ilə ölkənin şimalında yaşayan türkmənlər və yezidi kürdlər acınacaqlı duruma düşüb. Mosul, Telafer, Tuz Xurmatı, Sincar, Mahmur və digər bölgələrdə yaşayan türkmən və kürdlər kütləvi edamlara məruz qalır, eyni zamanda təqiblərdən qaçanlar isə şəhərlərdə, dağlarda köməksiz qalıblar, onlar içməli su belə tapa bilmirlər.

Avqustun 21-də Dünya Azərbaycanlıları Konqresi tədbir keçirərək Azərbaycan ictimaiyyətini türkmən xalqının probleminə biganə qalmamağa səsləmişdi.

Bəs görəsən, belə bir məqamda Qənirə Paşayevanın çağırışına hansı həmkarları dəstək verəcək? Azərbaycanlı millət vəkillərindən, ictimai xadimlərdən, siyasətçilərdən kimlər iraqlı soydaşlarımıza maddi və ya mənəvi dəstəyini əsirgəməyəcək?

Musavat.com bu suallarla bəzi millət vəkillərinə müraciət edib.

**Millət vəkili Sabir Rüstəmxanlı bildirib ki, Qənirə Paşayeva çox aktiv deputatdır, ailə olaraq İraq türkmənlərinə yaxındır və problemə biganə deyil:** “Onun bu addımını alqışlayıram. Mən bu məsələni Milli Məclisdə qaldırmışdım. Azərbaycan ictimaiyyəti bizim millətimizin bir parçası olan İraq türkmənlərinə yardım etməlidir. Bunu dövlət etməlidir, cəmiyyət etməlidir, iş adamları etməlidir. Bu bir və ya iki nəfərin maaşı ilə həll olunacaq problem deyil, bu, gülünc bir məsələ olar. Buna dövlət səviyyəsində müdaxilə etmək lazımdır, böyük şirkətlər, nazirliklər səviyyəsində yardım edilməlidir. Bizim Qarabağ qaçqınları yurdlarından didərgin düşəndə, çöllərdə çox acınacaqlı bir vəziyyətdə yaşayanda dünyanın hər yerindən kömək umurduq və bu kömək də gəlirdi. İndi eyni vəziyyətdə olan çöllərdə ac-susuz qalanlar da bizim millətimizin nümayəndələridir. Belə bir vəziyyətdə Azərbaycan onlara yardım etməyə borcludur və mən cəmiyyətimizin bu işdə qeyri-fəal olmasından, biganəliyindən heyrətə gəlirəm”.



**Sabir Rüstəmxanlı:** “Çöllərdə ac-susuz qalanlar da bizim millətimizin nümayəndələridir, belə bir vəziyyətdə Azərbaycan onlara yardım etməyə borcludur”



**Fərəc Quliyev:** “Qənirə xanımın bu addımını alqışlayıram”



**Məlahət İbrahimqızı:** “İŞİD ilk dəfə İraq türkmənlərinə hücum edəndə mən onlara maddi dəstək göndərmişdim”

**Millət vəkili bu istiqamətdə həyata keçirilən işlərdən danışarkən qeyd etdi ki, Dünya Azərbaycanlıları Konqresi İraq türkmənlərinə yardımla bağlı BMM-də böyük bir tədbir keçirib:** ““Yaxın Şərqdə vəziyyət və İraq türkmənlərinin taleyi” adlı tədbirdə çox önəmli ictimai-siyasi xadimlər iştirak edirdilər. Orada konkret təkliflər səsləndi. Təkliflərdən biri bu idi ki, orada Azərbaycanın konsulluğu açılsa yaxşı olar, imkanlı şəxslər bu yardım kampaniyasına cəlb olunmalıdır. Yaxşı olar ki, İraq türkmənlərindən olan tələbələr buraya dəvət olunsun və təhsillərini davam etdirsinlər. Buradan nümayəndələr gedib onların durumu ilə maraqlansınlar, birbaşa görüşlər keçirib vəziyyətlə tanış olsunlar. Beynəlxalq təşkilatlara, Türkiyə dövlətinə müraciətlər olunsun".

**Millət vəkili Fərəc Quliyev isə musavat.com-un sualına cavab olaraq bildirdi ki, İraq türkmənlərinə maddi və mənəvi dəstək vermək hamımızın borcudur:** “Mən Qənirə xanımın bu addımını alqışlayıram. Ancaq özüm maddi yardım etməyəcəyəm. İmkanlı iş adamları üçün maddi yardım əslində çox böyük rəqəm deyil. Onlar yardım karvanları göndərə bilər İraq türkmənlərinə. Və ya oradakı yetim qalan uşaqları gətirib buraya uşaq evlərinə yerləşdirə bilərlər. Onların təhsil almasına yardım etmək olar. Ancaq bunlara böyük maddi vəsait lazımdır. Bu bir neçə millət vəkilinin maaşı ilə düzələn deyil. Bu rəmzi bir addımdır. Mən bu məsələyə qarışmayacağam. Mən kampaniya xarakterli addımların yox, köklü iş görməyin tərəfdarıyam. Bunu müəyyən dövlət qurumları və iş adamları etməlidir. Onlar bizim soydaşlarımızdır. Dövlət tərəfindən konkret addımlar atılmalıdır”.

**Millət vəkili Məlahət İbrahimli isə bildirib ki, ilk yardım edənlərdən biri o olub:** “İŞİD ilk dəfə İraq türkmənlərinə hücum edəndə mən onlara maddi dəstək göndərmişdim. Çekləri də var məndə, sizə göstərə bilərəm. Hətta fələstinlilərə də yardım etmişəm”.

Yardım etmək istəyənlər üçün hesab nömrəsini və əlaqə vasitələrini təqdim edirik.

**Türkmeneli İşbirliği ve Kültür Vakfı hesapları**

**Vakıflar Bankası - Çankaya Şubesi -**

**Şube kodu: 281**

**TR33 0001 5001 5800 7293 5435 17 Türk Lirası hesabı**

**TR33 0001 5804 8000 3306 20 ABD dolları hesabına**

**“Türkmen mültecilerine bağış” yazaraq yatıra bilərsiniz.**

**Hər hansı problemlə bağlı Türkmeneli İşbirliği ve Kültür Vakfının aşağıdakı telefonları vasitəsi ilə əlaqə saxlamaq olar.**

**(+90312) 442 42 65**

**(+90312) 433 43 73**

**(+90533) 255 26 60**

❑ Nərgiz LİFTİYEVA

# Ermənistanın Rusiya ilə quru əlaqəsi kəsildi

## Kazbek yolunun dağılması düşmən ölkəni iqtisadi blokadaya salmaq üzrədir; yolun nə zaman açılacağı bilinmir; ermənilərin yüklərin Bakı üzərindən Rusiyaya daşınmasına cəhd etdikləri xəbəri yayılıb...

**Məlum olduğu kimi, Gürcüstanın Rusiya ilə sərhəd bölgəsində yerləşən Daryal dərəsində torpaq sürüşməsi baş verib. Nəticədə iki ölkə arasındakı “Kazbek-Yuxarı Lars” sərhəd buraxılış məntəqəsi fəaliyyətini dayandırmalı olub.**



Elə bu səbəbdən də artıq 4 gündür ki, Rusiya istiqamətində və əks tərəfə hərəkət etməli olan gürcü vətəndaşlar alternativ yol kimi Azərbaycandan keçmək məcburiyyətində qalırlar. Bu isə ölkəmizlə Gürcüstan arasındakı “Qırmızı körpü” sərhəd buraxılış məntəqəsində və şimal sərhədlərimizdə böyük sıxlığa səbəb olub.

Amma xeberci.org-un məlumatına görə, bu, “Qırmızı körpü” sərhəd buraxılış məntəqəsindəki mövcud sıxlığın yeganə səbəbi deyil. Məlumdur ki, Ermənistandan Rusiyaya hərəkət edən yük maşınları da məhz indi istifadəsi mümkünsüz olan “Kazbek-Yuxarı Lars” sərhəd buraxılış məntəqəsindən istifadə edirdi. Belə olan halda, indi kim təminat verə bilər ki, gürcülərin alternativ yol kimi istifadə etdiyi “Qırmızı Körpü” və ya şimal sərhədlərimizdən ermənilər də istifadə etmirlər.

Hər halda, bunun üçün çox asanlıqla sənədlər saxtalaşdırıla *(təbii ki, havayı yox-red.)* və bu yolla da ermənilər Rusiyaya getmək üçün Azərbaycanın sərhəd keçid məntəqələrindən istifadə edə bilərlər.

Təbii ki, bu, yalnız ehtimallardır və xəbər portalının iddiasıdır. Amma müvafiq orqanların artıq ictimailəşmiş bu məsələyə xüsusi önəm verəcəyinə inanırıq.

Onu da qeyd edək ki, Gürcüstan KİV-ləri yaydıqları məlumatda bildiriblər ki, Daryal vadisində baş vermiş sürüşmə və uçqunun miqyası bu ilin may ayında baş vermiş uçqundan xeyli böyükdür. Uçqun nəticəsində Ermənistanın Rusiya ilə quru əlaqəsi saxlamasına imkan verən yeganə yol - hərbi Gürcüstan yolu dağılıb.

Rusiya tərəfi bildirir ki, yolun dağılması nəticəsində sərhədin o tərəfində minik və yük avtomobillərindən ibarət uzun tıxac yaranıb. Gürcüstan hökuməti bildirir ki, may ayında olduğu kimi bu dəfə də sürüşməyə və uçquna Devdoraki buzlaqlarının əriməsi səbəb olub.

Hökumət bu dəfə dağıntıların miqyasının daha böyük olduğunu təsdiqləyir. Açıqlamada deyilir ki, hökumət sürüşmənin və uçqunun nəticələrini aradan qaldırmaq üçün bütün resurslarını səfərbər edib.

Gürcüstanın Maliyyə Nazirliyi isə bildirir ki, sürüşmə nəticəsində Rusiya ilə sərhəddəki “Kazbeqi” sərhəd-keçid məntəqəsində yerləşən gömrük postu da dağılıb. Əməkdaşlar təhlükəsiz zonaya evakuasiya olunublar.

Sürüşmənin miqyasının böyük olması belə deməyə əsas verir ki, Ermənistanın Rusiya ilə quru əlaqəsi saxlamasına imkan verən yeganə yolun bərpası tezliklə baş verməyəcək. Habelə Ermənistana qaz nəqlinin nə zaman bərpa ediləcəyi də bəlli deyil. Gürcüstandan keçən yol Ermənistana quru yolu ilə yüklərin daşınması üçün istifadə olunur. Ermənistanda baş vermiş sürüşmədən ciddi narahatdırlar və hətta bəziləri bunun siyasi məqsədlə törədildiyini iddia edir.

Məntəqənin Gürcüstan tərəfinin rəisi Zurab Kikaliyanın sözlərinə görə, ilk 3 gündə yaranan intensiv sıxlıq artıq aradan qalxmaq üzrədir.

**O bildirib:** “Bizim həmkarlarımızla yaranmış növbə məsələsini müzakirəmizdən sonra Azərbaycan tərəfi gücünü artıraraq avtomobilləri daha tez buraxmağa başladı və nəticədə bu hərəkətlilik azalmağa doğru getdi”.

Baş vermiş hadisə nəticəsində yaranmış vəziyyətlə, həmçinin bəzi səsləndirilən iddialarla bağlı Xarici İşlər Nazirliyi ilə əlaqə saxlamağa çalışsaq da, mümkün olmadı.

Sonda xatırladaq ki, hazırda bərpa işləri aparılan “Kazbek-Yuxarı Lars” sərhəd buraxılış məntəqəsinin nə zaman təkrar istifadəyə veriləcəyi barədə məlumat yoxdur. Torpaq sürüşməsi nəticəsində ərazidəki tikintidə çalışan iki nəfərin itkin düşdüyü və onlardan birinin meyitinin tapıldığı, digərinin isə axtarışlarının davam etdiyi xəbər verilir.

❑ Cavanşir ABBASLI

# İvanovka susuzluqdan yanır

## Kəndin təsdiq - təkzib dilemması




**“İvanovka susuz qalıb” başlıqlı ötən sayımızda gedən yazıda İsmayıllının məşhur İvanovka kəndinin su problemləri öz əksini tapıb. Bu xəbər yerli sakinlərin redaksiyamıza müraciəti əsasında yazılıb. Xəbərdə sakinlərin sözlərinə əsasən kənddə nə köhnə, nə də ötən il çəkilən yeni su xəttindən kəndin su təchizatını təmin etməyin mümkünsüzlüyü öz əksini tapıb.**

Bu informasiyanın tirajlanmasından sonra adının açıqlanmasını istəməyən İsmayıllı rayon sakini redaksiyamızla əlaqə saxlayaraq problemi yerində araşdırmamız üçün bizi İvanovkaya dəvət etdi.

“Nikitin” kolxozunun sədri Nikolay Dubrovin əhaliyə qəti şəkildə su satmadığını bildirən həmin şəxs susuzluq probleminin hansı səviyyədə olmasını kənd əhlinin özündən soruşmağımızı rica etdi.

**Qeyd edək ki, N. Dubrov axar.az saytına açıqlamasında bildirib ki, su problemi həmişə olub:** “Son illər daha çox əziyyət çəkirik. Maşınlarla su gətirməkdən təngə gəlmişik. Ancaq kəndi su ilə təmin etmək üçün əlimizdən gələni edirik”.

**“Nikitin” kolxozunun sədri söyləyib ki, bu il quraqlıq olduğu üçün vəziyyət daha pis olub:** “Gün ərzində kəndə 4 maşınla su gətiririk ki, suvarmada istifadə edək, camaata da verək. Bulaqlardan pulsuz istifadə etsək də, çox vaxt suyu pulla alırıq”.

Yekunda nəzərinizə çatdıraq ki, sözügedən əraziyə yeni su xəttinin çəkilməsi üçün ölkə başçısının sərəncamı ilə dövlət büdcəsindən birinci dəfə 4 milyon, ikinci dəfə 3,8 milyon manat vəsait ayrılıb.

❑ Fəridə ABDIYEVA

# Poroşenkonun oğlu müharibəyə getdi, bəs bizimkilər?

**Xəbər verdiyimiz kimi, Ukrayna prezidentinin böyük oğlu Aleksey Poroşenko ölkənin Cənub-Şərqində terrorçulara qarşı əməliyyatlarda iştirak edir. Vinnitski vilayət şurasının 29 yaşlı deputatı evdə 3 aylıq oğlu Petyanı və həyat yoldaşı Yuliyanı qoyaraq gizli şəkildə döyüşməyə gedib. Bu haqda Poroşenko ailəsinə istinadən xəbər yayıblar.**

Mənbə bildirib ki, 4 həftə əvvəl Alekseyə çağırış vərəqəsi gəlib: "O, indi Müdafiə Nazirliyinin terror əleyhinə əməliyyatlar keçirilən dəstəsində xidmət edir. Ola bilsin ki, Alekseyi döyüşçülər arasında başqa ad və soyadla tanıyırlar".

Terror əleyhinə əməliyyatlar mərkəzinin qrup rəhbəri Yuri Tandit bu məlumatı təsdiqləyib. Onun sözlərinə görə, Aleksey Poroşenko özünü ciddi aparır. Bununla belə, prezident Pyotr Poroşenko heç yerdə oğlunun orduda xidmət etməsi ilə bağlı bir kəlmə belə danışmayıb.

Bu xəbər isə bütün hallarda maraqlı paralellər aparmağa imkan verir. Bir neçə həftə öncəyə qədər ölkədə müharibə əhval-ruhiyyəsi vardı. Təəssüf, qəzetçilərin əli məmur, nazir övladlarına çatmır. Bu səbəbdən də onlara "müharibə başlasa, əlinizə silah götürüb orduya gedərsizmi" sualını verə bilmirik. Amma Azərbaycan müxalifətinin tanınmış simalarının övladlarından soruşduq: prezident, nazir, məmur oğlu olsaydız, Poroşenkonun oğlu kimi müharibəyə gedərdinizmi?



**Turqut Qəmbər:** "Səfərbərlik elan olunsa, situasiya o zaman aydınlaşar"



**Vaqif Hüseyn:** "Ailəmdə vətənpərvərlik ruhunda yetişdirilmişəm, müharibə başlasa gedərdim"

**Müsavat Partiyasının başqanı İsa Qəmbərin oğlu Turqut Qəmbər hesab edir ki, hazırda ölkə üzrə bütün sahələrdə mövcud olan korrupsiya orduya da sirayət edib. Onun fikrincə, haqqında danışdığımız ənənənin Azərbaycanda olmaması məhz bu səbəbdəndir:** "Ancaq Ukrayna və Azərbaycan arasında da indi fərq var. Çünki orda hazırda aktiv hərbi əməliyyatlar gedir. Azərbaycanda da aktiv hərbi əməliyyatlar getsə, səfərbərlik elan olunsa, situasiya o zaman aydınlaşar".

**Keçmiş baş nazir Pənah Hüseynin oğlu Vaqif Hüseyn də hesab edir ki, ənənə məsələsi sadə məsələ deyil. Müsahibimiz hesab edir ki, bunu da bir çox amillərlə əlaqələndirmək olar:** "Tarixi, mentalitet, təhlükəsizlik və s. O ki qaldı prezident oğlu olsaydım müharibədə iştirak edərdimmi sualına, hər şeydən öncə mən Azərbaycan vətəndaşıyam, Azərbaycan mənim vətənimdir. Ailəmdə kifayət qədər vətənpərvərlik ruhunda yetişdirildiyimi söyləyə bilərəm. Bu məsələyə də prezident oğlu kimi deyil, vətəndaşlıq borcu olaraq yanaşaraq hərəkət edərdim".

❑ Sevinc TELMANQIZI

# Amerikalı jurnalist AzadlıqRadiosunu bağlamağa çağırdı

## Maayan Yaffi: "AzadlıqRadiosunun layihələri bu ölkə haqda qərəzli və yanlış mövqe formalaşdırır"



Maayan Yaffi

**Konqres vergi ödəyicilərinin pullarının Birləşmiş Ştatların müttəfiqlərinə hücum üçün istifadə edilməsini dayandırmalıdır. Virtualaz.org xəbər verir ki, bu sözləri 19 illik təcrübəyə malik yəhudi əsilli amerikalı jurnalist, "The Jerusalem Post" qəzetinin keçmiş xəbər redaktoru, "Baltimore Jewish Times" qəzetinin keçmiş baş redaktoru, "Netsmart" portalının baş yazarı və redaktoru Maayan Yaffi (Maayan Jaffe) Konqresin nəşri olan "Roll Call"dakı məqaləsində yazıb.**

Müəllif xatırladır ki, "Azadlıq" və "Amerikanın səsi" radiolarının saxlanılması hər il ABŞ büdcəsinə 750 milyon dollara başa gəlir. "Buna baxmayaraq, onlar obyektiv xəbər və təhlillər vermək, daxili və regional məsələlər barədə müzakirələr təşkil etmək, demokratiya və azad bazar nailiyyətləri haqda bəhs etmək əvəzinə bu dəyərləri bölüşən müttəfiq dövlətlərə hücum edirlər" deyə o yazır.

M.Yaffi bu fikrini əsaslandırmaq üçün AzadlıqRadiosunun Azərbaycandakı fəaliyyətindən bəhs edir. Azərbaycanda tolerant cəmiyyət olduğunu, ölkənin beynəlxalq şəffaflıq təşəbbüsünə qoşulduğunu, Qərb dəyərlərinə üstünlük verən müsəlman ölkəsi kimi tanındığını, ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən işğal edildiyini, əhalinin 20 il əvvələ nisbətən daha yaxşı yaşadığını və s. xatırladır. "Buna baxmayaraq, AzadlıqRadiosunun layihələri bu ölkə haqda qərəzli və yanlış mövqe formalaşdırır. Təkcə iyulun 1-dən avqustun 5-nədək AzadlıqRadiosunda Azərbaycan haqda 30 məqalə və video yerləşdirilib. Onlardan heç biri Azərbaycanın nailiyyətlərindən bəhs etmir. Bunun əvəzində "azərbaycanlılar "İran casusu" kimi ömürlük həbsə məhkum edildi" kimi başlıqlara rast gəlmək olar. Plüralizm, vətəndaş cəmiyyəti, milli və regional inkişaf, ABŞ və İsraillə müttəfiqlik barədə heç nə yoxdur" deyə o, yazır.

Müəllif senator Rocer Uakerin bu yaxınlarda ABŞ-ın regionda Azərbaycan kimi stabil müttəfiqinin olduğu, iqtisadi çiçəklənmə və azadlıq yolunu seçdiyi haqda açıqlamasından da sitat gətirib. M.Yaffi hesab edir ki, Konqres üzvləri senatorun dediklərinə diqqət yetirmək əvəzində AzadlıqRadiosunun Azərbaycan haqda "nə gəldi yazmasına" göz yumurlar. Müəllif yazır ki, Azərbaycandan fərqli olaraq AzadlıqRadiosunun erməni bölməsində "mənfi heç nə yoxdur". Baxmayaraq ki, Ermənistan prezidenti Serj Sərkisyan Qərbdən üz çevirib və Putinin Gömrük İttifaqını seçib. "Bəs AzadlıqRadiosunun Amerikanın düşmənləri ilə bir sırada yer alan Ermənistana təzyiqlərini niyə görmürük?" jurnalist sual edir.

# "Son məlumatla boyunlarına aldılar ki, İlqarı əslində kim döyüb"

## Məlahət Nəsibova: "Fərid Əsgərovun atası yarandığı gündən AXCP-nin üzvü olub, oğlu da onun tədbirlərində iştirak edib"

**Avqustun 26-da hüquq müdafiəçisi İlqar Nəsibovun döyülməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi yeni məlumat yayıb. Xatırladaq ki, İ.Nəsibov avqustun 21-də Naxçıvanda, həmtəsisçisi olduğu Demokratiya və QHT-lərin İnkişaf Resurs Mərkəzinin ofisində döyülüb.**



İlqar Nəsibov

Avqustun 23-də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi məlumat yayıb ki, İlqar Nəsibovu uzun müddətdən bəri yaxın dostluq münasibəti saxladığı Naxçıvan şəhər sakini Fərid Əsgərov döyüb. Nazirlik məlumatında bildirib ki, İlqar Nəsibovla Fərid Əsgərov Demokratiya və QHT-lərin İnkişaf Resurs Mərkəzinin ofisində içki məclisi qurub, spirtli içki qəbul ediblər: "Həmin vaxt spirtli içkinin təsiri altında olan İlqar Nəsibov və Fərid Əsgərov arasında yaranmış mübahisə sonda əlbəyaxa davaya çevrilib. Fərid Əsgərov öz izahatında bildirib ki, onlar arasındakı davaya səbəb onun ailə üzvləri haqqında İlqar Nəsibovun işlətdiyi nalayiq və təhqiramiz ifadələr olub. Hər iki şəxs əlbəyaxa dava zamanı bir-birinə bədən xəsarətləri yetiriblər. Hazırda Naxçıvan şəhər sakini Fərid Əsgərov polis tərəfindən saxlanılıb. Faktla bağlı inzibati araşdırma tədbirləri davam etdirilir".

**Avqustun 26-da Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi 23 avqust məlumatına əlavə olaraq yeni məlumat yayıb. Yeni məlumatda deyilir ki, İlqar Nəsibov avqustun 21-də saat 22:30-da sərxoş vəziyyətdə Naxçıvan Muxtar Respublika Xəstəxanasına gətirilib, aldığı xəsarətə görə ona ilkin tibbi yardım göstərilib. Avqustun 22-də həyat yoldaşının təkidi ilə İlqar Nəsibov evə buraxılıb. 26 avqust məlumatında daha sonra bildirilir:** "Fərid Əsgərov öz izahatında bildirib ki, onun ailə üzvləri iqtidaryönümlüdür. Bu səbəbdən İlqar Nəsibov onun ailə üzvləri barədə nalayiq və təhqiramiz ifadələr işlədib. Fərid Əsgərov təhqiramiz ifadələr işlədən İlqar Nəsibovun cavabını verib, bu isə qarşılıqlı ittihama və davaya səbəb olub".

**"Yeni Müsavat"a açıqlamasında M.Nəsibova Naxçıvan DİN-in yaydığı son bəyanata münasibət bildirdi. Onun sözlərinə görə, son bəyanat bu əməliyyatın Naxçıvan hakiiyyəti tərəfindən törədildiyini bir daha sübut edir. Onun sözlərinə görə, İ.Nəsibovun hadisə baş verən gün içkili olması ağ yalandır. Müsahibimiz döyülmədən dərhal sonra xəstəxanaya gedərkən həyat yoldaşının yanında olduğunu və bütün prosedurları izlədiyini dedi:** "Onun içkidən istifadə edib-etməməsi ilə bağlı heç bir ekspertiza aparılmayıb. Xəstəlik tarixçəsində də belə bir məlumat yoxdur. İlqara ilkin yardım göstəriləndə, həkimlər tərəfindən müayinə ediləndə də alkoqolla bağlı heç bir müayinə aparılmayıb. Həmin vaxt da içki söhbəti yox idi, sonradan əlavə ediblər".

**Müsahibimiz həmçinin yayılan məlumatdakı "siyasi mənsubiyyətə görə dava" iddiasına da münasibət bildirdi. Dedi ki, birincisi, F.Əsgərov onların oğlu yaşında olub və aralarında heç vaxt içki söhbəti, siyasi mənsubiyyət davası düşə bilməzdi. Bundan başqa, M.Nəsibova F.Əsgərovun atasının siyasi mənsubiyyətinə də toxundu:** "Fərid Əsgərovun atası uzun müddətdir Xalq Cəbhəsinin üzvüdür. Hazırda da üzvü olaraq qalır. Uzun illərdir, partiya yaranandan bəri onun üzvüdür. Bunu Asəf Quliyevdən də soruşa bilərsiz. Fəridin özü də AXCP-nin tədbirlərində iştirak edib, fəallıq göstərib. Bu ailə birdən-birə necə iqtidaryönlü ola bilər? Amma bu açıqlama bir daha döyülmə sifarişinin hardan gəldiyini göstərir. Onlar bu bəyanatla etiraf edirlər ki, İlqarı özləri döydürüblər. Əvvəl dedilər, Fərid VHP-çidir. Sonra taktikanı dəyişdilər. Azərbaycanda müxalifyönlü insanlar bir-birini döymürlər axı. Fəridin özünün AXCP-nin, müxalifətin Naxçıvandakı tədbirlərində çəkilmiş fotoları var bizdə".

M.Nəsibova dedi ki, daha çox başından zərbə alan həyat yoldaşına indi tam istirahət və müalicə lazımdır. Hüquq müdafiəçisi az da olsa yemək yeməyə başlayıb. Həkimlər ona danışmağa, hərəkət etməyə icazə vermir. Qidaları isə ancaq maye formasında qəbul edir.

❑ Sevinc TELMANQIZI

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**






# "Qatil prezidentin Türkiyəyə dəvəti Ermənistanı islah etməyəcək"

## Azərbaycanlı ekspertlərdən Ərdoğanın Sərkisyanı inauqurasiya mərasiminə çağırmasına ilginc reaksiyalar

**Türkiyədə avqustun 10-da baş tutan prezident seçkilərində qalib olan Rəcəb Tayyib Ərdoğanın 28 avqustda keçiriləcək inauqurasiya mərasiminə Ermənistan prezidenti Serj Sərkisyanın dəvət olunması Azərbaycanda birmənalı qarşılanmayıb. Bəzi müşahidəçilər bunu Türkiyənin yeni prezidentinin 2015-ci il qondarma "soyqırım"ın 100 illiyi ərəfəsində Ermənistanı və ermənipərəst qüvvələri neytarllaşdırmaq jesti kimi qəbul edib üstündən keçməyi zəruri saysalar da, fərqli fikirdə olanlar da var.**

Bir sıra müşahidəçilər Azərbaycan torpaqlarının 20 faizinin on illərdir işğalda saxlanılmasında və bəşəri cinayətlərin törədilməsində birbaşa iştirakçı olmuş Sərkisyana qarşı bu sayğılı münasibəti Türkiyəyə yaraşdırmırlar. Artıq İrəvandan bu dəvətə reaksiya verilib. Məlumata görə, Türkiyənin yeni prezidentinin andiçmə mərasimində Ermənistanı xarici işlər naziri Edvard Nalbəndyan təmsil edəcək. Narahatlıq doğuran odur ki, Sürix protokollarının imzalanması zamanı olduğu kimi bu dəfə də Ankara və İrəvan arasında hansısa bazarlıq layihəsi işə salına, Azərbaycan proseslərdən təcrid oluna bilər.

**Politoloq Hikmət Hacızadə Türkiyə prezidentinin mövqeyini təqdir etmir:** "Şəxsən mən buna yaxşı baxmıram. Yəqin sərhədləri açmaq fikrindədir. Ya hansısa dostluq münasibətləri qurmaq istəyir. Onun fəlsəfəsi elədir ki, "biz böyüyük, ermənilərin hər cür şıltaqlığına dözərik, bəlkə adam oldular, olmasalar da, eybi yox, yenə çağırarıq". **H.Hacızadə bu cür addımların perspektivinə inanmır:** "İnanmıram ki, ermənilər Türkiyə torpaqlarına iddiadan əl çəksinlər və Türkiyə də onlarla əməkdaşlıq etsin. Gərək ilk öncə erməni öz tələblərindən geri çəkilsin. Hansı ki, Türkiyə torpaqlarına iddiasını Ermənistan öz konstitusiyasında yazıb. İddialardan əl çəkməsə, inanmıram ki, Ərdoğan sərhədləri açsın. Amma diplomatik gedişdir, yəni gəlin, bəlkə barışdıq".

**Şərq-Qərb Araşdırmlar Məkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu moderator.az-a açıqlamasında Türkiyə-Azərbaycan münasibətlərini şərh edib. Ə.Oruclu indiki halda bu münasibətlərin o qədər də ideal vəziyyətdə olmadığını vurğulayıb. Politoloqun fikrincə, Türkiyənin Ermənistanla sərhədləri açmaq məsələsini çox tez-tez gündəmə gətirməsi, rəsmi Bakını müəyyən danışıq və razılaşmalara cəlb etməsi buna nümunədir:** "Azərbaycanla münasibətlərə gəlincə, söyləmək lazımdır ki, Türkiyə-Azərbaycan münasibətlərində heç də hər şey ideal deyil. Ərdoğan hökuməti və şəxsən Ərdoğanın özü daha çox iqtisadi maraqları önə çəkir. Bu halda Azərbaycanın təhlükəsizliyi, ərazi məsələləri bir növ arxa plana keçmiş olur. Hətta bəzən türk hökuməti Azərbaycanı az qala Ermənistanla sərhədləri açmaqla təhdid edir. Ən azından cəmiyyətdə bu, belə qəbul olunur. Müəyyən razılaşmalar əldə edildən sonra türk hökuməti yenə bu barədə susur. Müəyyən müddətdən sonra eyni məsələ yenidən aktuallaşır və s. Bu isə sözsüz ki, arzuedilməzdir".

**Milli Məclisin Təhlükəsizlik və müdafiə məsələləri komitəsinin üzvü Zahid Oruc isə məsələyə fərqli yanaşır:** "Ərdoğanın 2003-cü ildən bu yana Türkiyədə əsas siyasəti həyata keçirən şəxs kimi regional geopolitikaya yaxından bələd olması, həmçinin Azərbaycanın həssasiyyəti, hətta Qarabağ məsələsi olmasaydı belə, bizim ölkəmiz üzərindən Ermənistanla bazarlığın Türkiyə maraqlarına nə qədər təhlükəli olduğunu bilməsi onu deməyə əsas verir ki, bu, protokol jesti kimi, həm də Ərdoğanın xarizmasına, adına, onun avtoritetinə bağlı, beynəlxalq miqyasda yaranmış ayrı-ayrı münasibətləri, xüsusilə də hücumları neytrallaşdırmaq naminə bir jest kimi özünü göstərən bu hadisəni heç bir halda bizim bölgədəki situasiyanı dəyişəcək və prezident kimi funksiyalarına başlayarkən yeni bir dəst-xəttin anonsu kimi qəbul etməli deyilik. Etiraf edim ki, Azərbaycan insanının bu məsələyə haqlı iradları başadüşülən olacaq. Ərdoğanın gələcəkdə Azərbaycan və Türkiyənin qarşılıqlı maraqlarını irəliyə daşımaq, Qarabağ problemini Türkiyənin bir nömrəli problemləri sırasına çevirmək, Azərbaycanın ərazi bütövlüyünün təminatını Türkiyənin Cənubi Qafqazdakı maraqlarını, gələcək planlarını nə qədər ödədiyini bilmək nöqteyi-nəzərindən təhlillərimizi dərinləşdirməliyik. Yəqin gələcəkdə təbliğata başlayacaqlar ki, Ərdoğan guya bununla özünü sülhpərvər göstərmək istəyir, hansısa mükafata iddia edir, İsveçrə protokolları və s. məsələlərdən danışılacaq, heç başdan özümüz belə fikirlərə yol verməli deyilik".




### Fikir müəllifləri Ermənistan konstitusiyasında Türkiyəyə qarşı ərazi iddialarının olması faktını xatırlatdılar

**Məsələyə iqtidar partiyasından da sərt reaksiya gəlib. YAP-çı deputat Aydın Mirzəzadə facebook səhifəsində Ərdoğanın inauqurasiya mərasiminə Sərkisyanın da dəvət olunmasına münasibət bildirərkən "Türkiyə, bu sənə nə verəcək" adlı status paylaşıb. A.Mirzəzadə erməni dövlət rəhbərlərinin türk düşmənçiliyini bir daha yada salıb:** "Ermənistan Türkiyənin ərazi bütövlüyünü tanımır və rəsmi dövlət siyasətində Türkiyənin böyük bir ərazisinə iddia edir. Erməni dövləti bütün dünyada Türkiyəni uydurma "1915-ci il erməni soyqırımında" ittiham edir və artıq 20-dən çox dövlətin bu uydurmanı qəbul etməsinə nail olub. Erməni terror təşkilatları vaxtaşırı xaricdəki türk səfirliklərinə qarşı terror hərəkətləri ediblər və hələ də bu addımlarından əl çəkmirlər. Ermənistan tarix kitablarında və mədəniyyət əsərlərində Osmanlıya və Türkiyəyə qarşı olmazın ittihamlar irəli sürür. Elə S.Sərkisyan da Türkiyəyə "sevgisini" bir sıra antitürk bəyanatları ilə ortaya qoyub".

**A.Mirzəzadə qeyd edib ki, Türkiyənin Ermənistan rəhbərini inauqurasiyaya çağırmaqla nə əldə etmək istədiyi aydın deyil:** "Heç diplomatik protokolda da düşmən və diplomatik əlaqələr olmayan ölkələrin nümayəndələrinin dövlətçilik tədbirlərinə dəvət edilmə praktikası yoxdur. İnauqurasiya ilk növbədə dostların məclisidir və orada Ermənistanın statusu heç də aydın deyil. Ermənistan isə Türkiyədəki prezident seçkilərinin nəticələrini ilk "təbrik" edənlərdən oldu. Moskvada erməni əsilli Rusiya vətəndaşı 43 yaşlı Artur Mirzoyan 17 avqust tarixində ov tüfəngi ilə Türkiyənin Rusiyadakı səfirliyinin binasının fasadındakı Türkiyənin gerbini hədəf alıb və iki güllə atıb. Verilən məlumata görə isə hər iki güllə hədəfə çatıb".

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə isə hesab edir ki, erməni-türk yaxınlaşması hələlik indiki şəraitdə heç cür mümkün deyil. Çünki Ermənistan Türkiyəyə düşmən dövlətdir:** "Ermənistan deyir 1915 ildə "soyqırım" olub, üstündən 100 ilə yaxın vaxt keçib, yenə də eyni cəfəngiyyatdan bəhs edirlər. Almaniya Rusiya ilə müharibə edib, milyonlarla insan həlak olub, amma bu gün normal münasibətlər var. Ermənilər isə Türkiyədən əl çəkmir. Gərək dünyada elə tektonik dəyişmələr olsun və indiki siyasi reallıqlar elə dəyişsin ki, Ermənistan Türkiyəyə münasibətini dəyişsin. Bu da yaxın zamanlar üçün mümkün deyil".

**Bununla bərabər V.Quluzadə R.T.Ərdoğanın jestinə müsbət yanaşır:** "Çünki Türkiyə fildir, Ermənistan balaca bir küçük. Fil öz böyüklüyünü nümayiş etdirir. Fil deyir ki, küçük Ermənistanla normal münasibət qurmaq istəyir. Bu, Türkiyənin siyasi təbliğat baxımından uduşudur, həm də sivil dövlət olduğunu nümayiş etdirir. Siyasətdə küsü saxlamaq, qisasçılıq normal sayılmır. Siyasətin uğuru yolunda çox şeylərdən vaz keçilə, bəzi məsələlər görməməzliyə vurula bilər. Bu baxımdan Ərdoğanın addımını normal sayıram".

**Sabiq müşavir Türkiyə iqtidarının addımlarının Azərbaycanda narahatlıq doğurmasına da reaksiya verdi:** "Azərbaycan da gərək bilsin ki, Ermənistan-Türkiyə sərhədləri açılmayacaq. Çünki ermənilərin Türkiyəyə ərazi iddiaları var, türkləri "soyqırım"da ittiham edirlər. Türkiyə də bu mövqeli dövləti heç cür qəbul etməyəcək. Perspektivdə Ukrayna böhranına görə Rusiya zəifləyəcək. O zaman isə Ermənistan mövqelərini dəyişib Türkiyə ilə ortaq məxrəcə gəlsə, bu, bizim xeyrimizə olacaq. Ermənistan Rusiyanın təsiri altından çıxıb Türkiyənin təsiri altına düşsə, onun mövqeləri dəyişməlidir, yəni torpaqları azad etməlidir. Çünki Ermənistan Azərbaycan, türk torpaqlarını işğalda saxladığı halda Türkiyənin ona mövqeyi dəyişə bilməz. Erməni Rusiyanın əlində alətdir, ermənilər də bədbəxt millət olduqlarına görə əziyyət çəkirlər. Erməni keşişləri bir əsr öncə Rusiyaya müraciət edəndə ki, "bizim vətənimiz yoxdur", Rusiya onlara Sibirdə də vətən verə bilərdi. Amma özü Cənubi Qafqazda oturmaq üçün bizim torpaqları ermənilərə peşkəş etdi".

**V.Quluzadə Ərdoğanın inauqurasiya mərasiminə Sərkisyanın dəvət olunmasının ciddi dəyişikliklərə yol açacağını düşünmür:** "Futbol diplomatiyası, Sürix protokolları oldu, onda da hamı təşvişə düşdü, amma heç bir nəticə olmadı. Ərdoğan gələcəyə baxaraq Ermənistana, eyni zamanda Türkiyədə yaşayan ermənilərə xoş münasibət sərgiləyir. Bu da o deməkdir ki, böyük Türkiyə nəinki Ermənistandan, hətta onun ağası Rusiyadan da çəkinmir. Biz Türkiyəni olduğu kimi görməliyik, istədiyimiz kimi yox. Mən həmişə o fikirdəyəm ki, əgər düşməni əzib sıradan çıxartmaq mümkündürsə, bunu etmək lazımdır. Amma bu, mümkün deyilsə, o düşmənlə ümumi məxrəcə gəlmək lazımdır".


**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY**

## Binəqədidə təmizlik adı altında ağacları yandırıb, sonra kökündən kəsirlər



**Bakının 6-cı mikrorayon ərazindəki meşə zolağında ağaclar bilərəkdən yandırılıb yerindən çıxarılır. Bu barədə lent.az-a yerli sakinlər məlumat veriblər. Məlumata görə, təmizlik adı altında ağacların ətrafında quru ot və kol-kos yandırılır. Bundan sonra ağacları dibindən kəsirlər.**

Məlumatı dəqiqləşdirmək üçün ərazidə olduq. Sakinlərin dediyinə görə, indiyədək onlarla ağac beləcə məhv edilib. Amma bunu kimlərin və nə məqsədlə etdiyi onlar üçün də qaranlıq qalıb. Bir yandan da kənar yerlərdən gəlib bura zibil atanlar ərazini zibilliyə çeviriblər. Ərazinin qorunmasına məsul olan şəxslər isə sanki heç nə olmamış kimi sakinlərin şikayətini qulaqardına vururlar.

Qeyd edək ki, həmin meşə zolağı mərhum akademik Həsən Əliyevin göstərişi ilə salınıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Bakı şəhər Binəqədi rayonu 6-cı mikrorayondakı meşə zolağında yandırılaraq məhv edilən ağaclarla bağlı məsələyə aydınlıq gətirib.

Nazirlikdən lent.az-a daxil olan məlumatda bildirilir ki, aparılan araşdırmalar nəticəsində ərazidə 5 ədəd Eldar şamı və 4 ədəd iydə ağacının naməlum şəxslər tərəfindən yandırılması faktı aşkar edilib: "Nazirlik tərəfindən qeyd olunanlarla əlaqədar təqsirkarların müəyyən olunması üçün Binəqədi Rayon Polis İdarəsinə müraciət edilib. Eyni zamanda nazirlik ərazidəki ağaclara aqrotexniki qulluq göstərilməsi üçün Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinə icrası məcburi olan göstəriş verib. Hazırda sözügedən yaşıllıq ərazi ETSN-in aidiyyəti qurumlarının əməkdaşları tərəfindən nəzarətə götürülüb".

## Bakıda bir ailə bıçaqlandı; 1 ölü, 3 yaralı

**Bakıda qətl hadisəsi baş verib. Xəzər Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə ötən gün saat 23:30 radələrində Şağan qəsəbəsində Əzizbəyov küçəsi ev 88-də qeydə alınıb.**

Bakı şəhər sakini, 1965-ci il təvəllüdlü Ülkər Eynulla qızı Abdullayeva qarının sol yan tərəfinin kəsilmiş deşilmiş daxilə nüfuz edən yarası ilə, 1962-ci il təvəllüdlü həyat yoldaşı Tərlan Rəhman oğlu Abdullayev qarının sağ tərəfinin kəsilmiş deşilmiş daxilə nüfuz edən yarası ilə, 1987-ci il təvəllüdlü oğlu Rəhman Tərlan oğlu Abdullayev döş qəfəsinin arxa səthinin, boyunun kəsilmiş, deşilmiş daxilə nüfuz edən yarası ilə və Şağan qəsəbəsində Yeni yaşayış sahəsində yaşayan 1998-ci il təvəllüdlü Cahid Vahid oğlu Qədəşov epaqastral nahiyəsinin kəsilmiş deşilmiş daxilə nüfuz edən yarası ilə 3 saylı Şəhər Klinik Xəstəxanasına yerləşdiriliblər.

Ü.Abdullayeva aldığı xəsarətlərdən xəstəxanada ölüb.

Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törədən Bakı şəhər sakini, 1991-ci il təvəllüdlü Nahid Vahid oğlu Qədəşov tutulub.


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

- **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
- **Cinsi marağın** və **cinsi aktların** azalması
- **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
- **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
- **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
- **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
- **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
- **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
- Əvvəldən **xarici cinsi üzvün** balaca olması
- **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
- **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
- **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
- **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
- Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
- **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
- Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
- Sidik aktlarının çətinlikləri və tutulmaları
- Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
- **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
- **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
- **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




## "Ümid Yeri" uşaq sığınacağının binası yenidən təmir olundu

**Azərbaycan rabitə bazarının lider mobil operatoru "Azercell Telekom MMC" fəaliyyətinin ilk günlərindən gələcəyimiz olan uşaqların qayğısına qalmağa başlayıb, uşaq problemlərini cəmiyyətin diqqətində saxlamaq üçün ictimai məlumatlandırma kampaniyası hayata keçirib, habelə uşaqların rifahına sərmayə qoyub. Təsadüfi deyil ki, "Azercell"in həyata keçirdiyi sosial layihələrin bir çox qismi uşaqlarla bağlıdır.**

"Azercell"in uşaqlara göstərdiyi qayğının ən böyük göstəricisi "Ümid Yeri" uşaq sığınacağına dəstəyidir. Şirkət 1997-ci ildən etibarən bu sığınacaqda məskunlaşan uşaqalara diqqət və qayğısını əsirgəmir. Məhz "Azercell"in dəstəyi ilə ötən 17 ildə "Ümid yeri" sığınacağında minlərlə uşaq böyüyüb, normal həyata qaytarılıb. Bugünlərdə isə "Azercell" "Ümid Yeri" uşaq sığınacağında məskunlaşan uşaqlara daha bir sevinc bəxş edib. Belə ki, Binə qəsəbəsində yerləşən bina "Azercell" tərəfindən əsaslı təmir olunub. "Azercell" şirkətinin nümayəndələri tərəfindən bu gün açılışı olan bina müasir standartlara uyğun, uşaqların zövqünü oxşayacaq formada təmir edilib.

Məlumat üçün bildirək ki, "Azercell"in dəstəyi ilə indiyə qədər bu yöndə onlarla layihə hayata keçirilib. Bu layihələr sırasında "De! Dildən-dilə, eldən-elə" şer və hekayə müsabiqəsini, "Çək!" asfalt üzərində rəsm müsəbiqəsini, "Hər uşağın ailəyə ehtiyacı var", "Onlar da hədiyyə gözləyirlər..." , Mobil Diş Klinikası, Uşaq Qaynar xətti, Mobil Göz Klinikası layihələrini misal göstərmək olar. Məlumat üçün bildirək ki, indiyə qədər "Azercell" ölkədə sosial layihələrin həyata keçirilməsi üçün 14 milyon manatdan artıq həcmdə vəsait sərf edib. Şirkət həyata keçirdiyi sosial layihələrə görə dəfələrlə həm ölkəmizdə, həm də beynəlxalq arenada mükafatlandırılıb. Onu da qeyd edək ki, ilk dəfə məhz "Azercell" 2007-ci ildə "İlin Korporativ Sosial Məsuliyyətli" şirkəti seçilib, bundan sonra isə hər il sosial məsuliyyətlə bağlı mükafatlara layiq görülüb. Şirkətin gördüyü və görəcəyi işlər bununla bitmir. "Azərbaycanın qürur duyacağı şirkət" olmağı qarşısına məqsəd qoyan "Azercell" sosial layihələrinə "davam" deyir!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz

"Azercell Telekom MMC" 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq, Azərbaycana "Azercell" gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən "Azercell Ekspress" ofisləri, mobil elektron xidməti "Asan İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan "Azercell"in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2013-cü ilin sonuna "Azercell" abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə "Azercell" 3G, 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. "Azercell" Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır.








## Saxta məktəbli geyimləri ilə bağlı valideynlərə müraciət edilib

### "Yarmarkalarda mənşəyi bilinməyən, sertifikatı olmayan, zirzəmidə tikilən məktəbli geyimləri satılır"

**"Bakı Tikiş Evi" (BTE) saxta məktəbli geyimləri ilə bağlı valideynlərə müraciət edib. BTE-nin satış şöbəsinin rəisi Etibar Əzimov APA-ya açıqlamasında deyib ki, bu gün bütün yarmarkalarda mənşəyi bilinməyən, sertifikatı olmayan, zirzəmidə tikilən məktəbli geyimləri satılır. Onun sözlərinə görə, bu da uşaqlarda müxtəlif allergiya və digər fəsadlara səbəb olur: "Bu düzgün deyil, cinayətdir. Hər kəs istəyir ki, uşaqlara gigiyenik, uyğunluk sertifikatı olan paltarlar geyindirsin. Ona görə də uşaqların sağlamlığını nəzərədə alaraq, valideynləri saxta geyimlər almaqdan çəkindirməyə çağırırıq. Saxta geyimlərlə bağlı mütəmadi olaraq İqtisadi İnkişaf Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə müraciətlər edilir".**

E.Əzimov qeyd edib ki, hazırda Bakıda "Bakı Tikiş Evi"nin 19 satış mərkəzi fəaliyyət göstərir. Bu il Lökbatan qəsəbəsində yeni mərkəzin açıldığını deyən şöbə rəisi bildirib ki, Bakının digər qəsəbələrində - Qaradağ, Yeni Sahil, Pirəküşkül, Buzovna, Binə və digər kənar ərazilərdəki vətəndaşlar da satış mərkəzlərindən rahatıqla məktəbli geyimini ala bilərlər.

O vurğulayıb ki, bu il məktəbli geyimlərinin qiymətində dəyişiklik yoxdur: "26 ölçüdən 54 ölçüyə kimi məktəbli formaları var. I-VI sinif şagirdləri üçün 26-44 ölçüdə və VII-XI sinif şagirdləri üçün 34-54 ölçüdədir. Məktəbli formalarının qiymətlərinə gəlincə, bu, ölçülərə görə dəyişir. Belə ki, I-VI sinif şagirdləri üçün 26-44 ölçüdə dəstin qiyməti 40 manat, VII-XI siniflər üçün isə 34-54 ölçüdə 52 manatdır".

## Gəlin toy günü qaçdı; bacısı isə onu əvəzlədi



**Azərbaycanda daha bir gəlin toy günü qaçıb. "Qafqazinfo" xəbər verir ki, bu dəfə hadisə Oğuzun Muxas kəndində baş verib. Toy dünən olub. Maraqlıdır ki, toy günü qızları Sevincin qaçdığını görən ailə onu bacısı ilə əvəzləyib və toy da gəlinin bacısının iştirakı ilə keçirilib.**

Əldə etdiyimiz məlumata görə, gəlin nişanlısı Abidi sevmirmiş və bu səbəbdən sevdiyi şəxslə qaçıb.

Məlumatda deyilir ki, toyu da Manaf Ağayev aparıb.

Müğənni Manaf Ağayev isə "Qafqazinfo"ya açıqlamasında Oğuza toya getmədiyini, məsələdən xəbərsiz olduğunu bildirib.

## Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

YENİ MÜSAVAT
N 214 (5923) 27 avqust 2014

**Bu mənzərə ilə az qala hər gün rastlaşırıq. Uşaq bağçasının qarşısında, parkda, mağazada, dükanda... Sözə baxmayan uşaq və onu hamının yanında döyən valideyn.**

# Qızını (oğlunu) döyən dizini döyür...

## Azərbaycanda uşağına fiziki güc tətbiq edən valideynlər barədə ilginc dosye




### Polisdə şok uşaq zorakılığı faktları

Bugünlərdə qonşunun uşağı evdə ütünü elektrik şəbəkəsinə qoşanda onu elektrik cərəyanı vurmuş, xəstəxanaya düşmüşdü. Sonuncunun müalicəsi bir yana, hadisəni araşdırmaq üçün xəstəxanaya gələn polisin sorğu-sualı, ardınca polis bölməsində davam edən istintaq valideynləri şoka salmışdı. Uşaqdan az qala anasının əleyhinə ifadə almağa cəhd göstərirmiş polis: "Sənə anan tapşırdı ki, ütünü "tok"dan o cür çıxarasan? Ütüyə yaxınlaşanda anan nə dedi?"

Bu cür sorğu-sualı etik hesab etməyən ana polisə etirazını bildirəndə isə ortaya maraqlı nəticə çıxıb. Məlum olub ki, son illər valideynləri tərəfindən işgəncəyə məruz qalan uşaqların sayında xeyli artım var. Sözə baxmayan uşağının əlini qaz plitəsində yandıran kim, onu balkondan aşağı atmaqla hədələyən kim...

**Adının açıqlanmasını istəməyən polis işçisi bizə açıqlamasında bildirdi ki, son illər bu sahədə vəziyyət daha da pisləşib. İndi bəzi valideynlər uşaqlarını ağlagəlməz zorakılıq üsulları ilə cəzalandırırlar:** "Biz ancaq uşaq xəstəxanaya düşəndə bundan məlumatlı oluruq. Əksər hallarda isə uşaqlar polisə hadisə barədə düzünü demirlər. Bilirlər ki, xəstəxanadan çıxandan sonra yenə öz ailəsinin yanına qayıdacaq. Ona görə də biz belə valideynləri cəzalandıra bilmirik. Uşaq "yıxılmışam", "təsadüfən oldu" deyəndən sonra biz nə edə bilərik ki? Bir dəfə 6 yaşındakı bir uşaq valideynlərinin evdə saxladığı çoxlu pulu tapıb, qayçı ilə kəsik-kəsik etmişdi. Bundan qəzəblənən anası da uşağın əlinə xətkeşlə nə qədər vurmuşdusa, uşaq əlini tərpədə bilmirdi. Amma uşaq polisə dedi ki, mən özüm özümü cəzalandırmaq üçün əlimi xətkeşlə döyəclədim".

### İbtidai sinif müəllimәsi: "Uşağı nə qədər döysən, bir o qədər sırtılır"

Yolda-izdə isə belə mənzərələrlə qarşılaşanların etirazı heç bir fayda vermir. Uşağına fiziki güc tətbiq edən valideyn onu bu addımdan çəkindirənlərə ən mədəni halda "öz uşağımdır, siz qarışmayın" deyə qarşılıq verir. Amma bu tendensiya məktəblərdə də özünü göstərməyə başlayıb. Artıq müəllimələr də nadinc uşaqlarla "mübarizə"nin məhz kötək formasına üstünlük verirlər.

**"Hiss edirəm, şagirdləri döydükcə sırtılırlar, onlar üçün hər şey adiləşir". Bunu Bakı məktəblərindən birində ibtidai sinif müəlliməsi işləyən Elza Budaqova deyir. Onun sözlərinə görə, indi tərbiyəsi ən çətin olan uşaqlar ibtidai sinif şagirdləridir. Müsahibimiz bildirdi ki, uşaqlara elementar intizam qaydalarını anlatmaq mümkün olmur:** "İndiki uşaqların çoxu dünyaya gələndə beyni zədəli doğulur. Hansısa travması və ya xəstəliyi olur. Elə uşaqlara əl vurmaq da olmur. Fikirləşirsən ki, əl vursan, Allah eləməmiş, hansısa xəstəliyi baş qaldırar".

### Uşaqlar qaynar xəttin telefon nömrəsini bilir, amma zəng etməyə çəkinir

"Biz müəllimələr arasında ən çox ingilis dili müəlliməsini xoşlayırıq. Çünki o, adamı az vurur. Vuranda da ağrıtmır. Ən pisi informatika müəlliməmizdir. Adamın saçını düz qulağının yanından çəkir. Ora da çox ağrıyır. O, sıraların arasında gəzdikcə hamımız ürəyimizdə yalvarırıq ki, kaş bizi vurmasın".

**4-cü sinif şagirdi Sənəm isə müəllimələrini kateqoriyaya böləndə onların daha az və daha çox döyən kimi xarakterizə edir. Onun sözlərinə görə, sinif yoldaşları daha çox fiziki təzyiqə əl atan müəllimələrindən qorxur. Amma eyni zamanda onları daha az sevirlər:** "Sinifdə düşündük ki, Uşaq Qaynar Xəttinə zəng edək. Qızlardan biri dedi ki, bu xəttin metrolarda reklamları var. O nömrəni tapan kimi zəng edib, informatika müəlliməsindən şikayət edəcəyik".

Azərbaycan məktəblərində hələ də tərbiyə üsulu kimi fiziki şiddət populyardır. Yaşından asılı olmayaraq, pedaqoqlar effektiv tərbiyə üsulu kimi kötəyi məqbul hesab edir. "Kötək cənnətdən çıxıb"dan tutmuş, "qızını döyməyən dizini döyər"ə qədər el məsəlləri pedaqogikanın qızıl qaydalarına çevrilib.

### Polşada döyülən uşağı anasından sosial xidmət əməkdaşları alır

Maraqlıdır, dünya ölkələrində vəziyyət necədir? Statistikaya görə, dünyada 14 yaşına qədər 2,5 milyon həddi-buluğa çatmamış uşaq valideyni tərəfindən döyülür. Sərt rəftardan xilas olmaq üçün 50 mindən çox uşaq hər il evdən qaçır. Məişət zorakılığına məruz qalan uşaqların sayı 50 faizi keçib. Məişət zəminində ailələrdə baş verən cinayətlərin 30-40 faizi uşaqlarla bağlı olur. Azyaşlılara qarşı törədilən mənəvi və fiziki zorakılıq ailə çərçivəsindən çıxaraq cəmiyyətin müxtəlif sferalarını əhatə etməyə başlayıb. Bir çox valideynlərin inadla "uşaqların özləri zorakılığın yaranmasına səbəb olur" deməsinə baxmayaraq, qanun bütün hallarda valideyni məsuliyyət qarşısına çəkir. Məsələn, Polşada uşaqların döyülərək tərbiyə edilməsi qadağan edilib. Ölkədə "Ailədə zorakılığa qarşı mübarizə haqqında" qanuna yeni əlavələr bu gündən qüvvəyə minib. Yeni əlavələr uşaqlara işgəncələrin verilməsini, habelə uşaqların mənəvi cəhətdən alçaldılmasını qadağan edir. Bu norma pozulduğu halda, polisin iştirakı ilə sosial xidmət əməkdaşları uşaqları ailədən ala bilər və məhkəmələr 24 saat ərzində qəddar valideyinləri bu hüquqlarından məhrum edə bilər.

Yeni əlavələrin müzakirəsi zamanı bir çox valideynlər bildiriblər ki, onlar uşaqların döyülmədən tərbiyə edilməsini təsəvvür edə bilmirlər. Bu iddianı rədd edən sosial xidmət əməkdaşları bildirirlər ki, uşaqların düzgün tərbiyəsi üçün onlara da böyüklər kimi hörmət qoyulmalıdır.

Bu arada ekspertlər bildirirlər ki, əslində Azərbaycanda uşaqlar daha çox internat müəssisələrində döyülürlər. Burada onlara adi həmyaşıdlarından fərqli münasibət göstərilir. Buna səbəb həmin uşaqlara sahibsiz, kimsəsiz kimi baxılmasıdır. Psixoloqların fikrincə, uşaqlara qarşı fiziki təzyiq göstərən şəxslərin iki əsas səbəbi var. Bunlardan biri onların da uşaq vaxtı fiziki travma görməsidir. Digər səbəb isə zəif əsəblər, dözümsüzlükdür. Müntəzəm olaraq fiziki şiddət görən uşaqda isə aqressiyanın dərəcəsi yüksək olur. Ekspertlər hesab edir ki, bir çox cinayətkarlar, serial qatillərinin həyatını araşdıranda onların uşaqlıq travmasının qurbanı olduğu üzə çıxır.

### Kötəyin cəriməsi - 200 manat

Cinayət Məcəlləsi öz uşağını döyən valideynə qarşı ittiham qaldırmağa imkan verir. Uşağın digər valideyni və ya qəyyumu Cinayət Məcəlləsinin 132-ci maddəsinə əsasən ittiham qaldırıb övladını döyən valideyni cinayət məsuliyyətinə cəlb edə bilər. Bu halda valideyn 200 manat cərimə, 240 saat ictimai və 1 il islah işləri və ya 6 aya qədər həbs cəzası ala bilər. Qanunda konkret olaraq döymə faktı üçün bu cür cəza tətbiq olunur.

Döymə faktı sağlamlığa zərər vurmağın üç növünə *(yüngül, az ağır və ağır)* aid deyil. Döyülən uşaqlar evi olan halda valideynlərin evində, ya da uşaq himayəsindən məhrum olan uşaqlar üçün xüsusi mərkəzdə yerləşdirilməlidir.

Amma bu halda uşaqlar yazılı halda şikayətlər də verməlidir. Cinayət Məcəlləsinin 126-cı maddəsi ictimai ittiham əsasında şikayətin mövcudluğunu qeydə alır. Bu ittiham lap ağır zərbələr yetirilən zaman uşağın köməksiz vəziyyətdə olmasından dolayı qaldırıla bilər. İttiham bu zaman prokuror tərəfindən də qaldırıla bilər.

Daha bir hüquqi detal. Ailə Məcəlləsinin 51-ci maddəsində uşağın müdafiə hüququ barədə bənddə göstərilir ki, uşaq öz hüquqlarının və qanuni mənafelərinin müdafiəsi hüququna malikdir. Bundan əlavə, uşağın hüquqlarının və qanuni mənafelərinin müdafiəsi valideynlər *(onları əvəz edən şəxslər)*, bu məcəllə ilə nəzərdə tutulmuş hallarda isə müvafiq icra hakimiyyəti orqanı və məhkəmə tərəfindən həyata keçirilir. Uşağın hüquqları və qanuni mənafeləri pozulduqda, o cümlədən valideynləri *(onlardan biri)* uşağın təhsili, tərbiyəsi üzrə vəzifələrini yerinə yetirmədikdə və ya valideynlik hüquqlarından sui-istifadə etdikdə, uşaq öz hüquqlarını qorumaq üçün müvafiq icra hakimiyyəti orqanına, 14 yaşına çatdıqda isə məhkəməyə müraciət etmək hüququna malikdir. Məcəllənin 56-cı maddəsinə görə, valideynlər öz uşaqları barəsində bərabər hüquq və vəzifələrə malikdirlər. Ailə Məcəlləsinin 58-ci maddəsində isə valideynlərin uşaqlarını tərbiyə etmək hüququna malik olmaları və uşaqlarını tərbiyə etməyə borclu olmaları təsbit olunub. Valideynlik hüquqlarını həyata keçirərkən uşaqların hüquq və mənafelərinə ziyan vuran valideynlər qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyət daşıyırlar.

❑ **Sevinc TELMANQIZI**



# Ruslar təyyarədə dava salan azərbaycanlını ermənilərə təhvil vermək istədi

**Rusiyanın "Aeroflot" aviaşirkətinə məxsus Dubay-Moskva reysi ilə hərəkət edən təyyarə İrəvana məcburi eniş edib. APA-nın "RİA Novosti" agentliyinə istinadən xəbərinə görə, məcburi eniş etməyə səbəb təyyarə sərnişinlərindən birinin sərxoşluğu üzündən hərəkətlərinə nəzarət edə bilməməsi olub.**

Agentlik sərnişinlərə istinadən bildirib ki, təyyarə Dubaydan qalxan zaman sərnişinlərdən biri kobudluq etməyə, yüksək səslə danışmağa və uşaqlara sataşmağa başlayıb: "Təyyarədə çoxlu uşaq və xaricilər vardı. 30-35 yaşlarında kişi uşaqlara sataşmağa və qışqırmağa başladı. Təyyarə bələdçiləri həmin sərnişinlə bacara bilmirdilər. Təyyarədəki kişi sərnişinlərdən altısı həmin şəxsi tutaraq skoçla oturacağa bağladılar".

Səhər saat 05:00 radələrində təyyarə İrəvan aeroportuna məcburi eniş edib. Sərnişinlər 2,5 saat orada gözləməli olublar. Təyyarənin pilotları sərxoş sərnişini yerli polisə təhvil verməyə cəhd ediblər. Lakin həmin sərnişin Azərbaycan vətəndaşı olduğundan, yerli polis onu təhvil almaqdan imtina edib. Sərnişinin əlinə qandal vurulub. Təcili tibbi yardımın həkimləri ona sakitləşdirici iynə vurublar, sərnişin yuxuya gedib. Daha sonra təyyarə İrəvandan 3 saat gecikmə ilə Moskvaya yola düşüb. Rusiya paytaxtında bu şəxs polisə təhvil verilib.

YENİ MÜSAVAT

Son səhifə

N 214 (5923) 27 avqust 2014



## Başına buzlu su tökən gənc öldü

Dünyada, o cümlədən də sosial şəbəkələrdə geniş yayılan "Buzlu su ilə dəstək" kampaniyası Şotlandiyada faciə ilə nəticələnib. ALS xəstəliyinə diqqəti cəlb etmək və onlara maddi yardım üçün başladılan bu kampaniyaya qoşulan 18 yaşlı gənc başına buzlu su tökdükdən sonra ölüb. Gənc aksiyanı Berntaylend şəhəri yaxınlıqdakı hündür və təhlükəli yerdə keçirmək istəyib. Hadisə şahidləri bildiriblər ki, gəncin başına buzlu su töküləndən sonra o, özünü 24 metr hündürlükdən çaya atıb. Bundan sonra gənc suda boğulub. Onun başına buzlu su tökdüyünə görə öldüyü barədə tutarlı səbəblər olmasa da, ehtimal olunur ki, aksiyadan sonra gəncin səhhətində problemlər yaranıb. Bu səbəbdən o, çayda üzə bilməyib və boğulub. Bu hadisə videokamera vasitəsilə çəkilib. Gənc şotlandiyalının yaxınları bu görüntülərin yayılmasını istəməsələr də, video sosial şəbəkələrdə yayılıb.

# Printerdən diş çıxacaq

Dövrümüzün ən mükəmməl texnologiyalarından biri olan 3D printerlərlə düzəldilə biləcək orqanların sayı hər gün bir az daha artır. İngiltərənin araşdırma şirkəti olan İDtechEx yeni yayımladığı proqramda yaxın 10 il ərzində 3D printerlər vasitəsilə hazırlanmış dəri və orqanlardan daha çox istifadə edilə biləcəyini deyib. Bu orqanların bazarda satışı artacaq və hər kəs istədiyi orqandan istifadə edə biləcək. 2025-ci ildə süni orqanlar 365 dəfə artacaq. 3D ilə hazırlanan ciyər, böyrək kimi orqanlara biri daha əlavə olunacaq. Yaxın zamanlarda süni diş hazırlanacaq. İnsanlar bu dişlərdən istifadə edərək rahat yemək yeyə biləcəklər.



# İki saat sonra dirildi



Braziliyada yaşayan bir kişi rəsmi şəkildə ölü elan edildikdən iki saat sonra morqdakı cəsəd torbasından diri olaraq çıxarılıb. Həkimlər iki dəfə infarkt keçirən Valdelucio de Oliveira Goncalvesin öldüyünü açıqlayıb. Kişinin yaxınları onu morqdan çıxarmaq üçün torbanı açdıqları zaman sağ olduğunu görüblər. Onlar həkimlərə xəbər verərək soyuq yerdə saxlanan kişinin xilas olması üçün əllərindən gələni edirlər. Polislər xəstəxanadakı həkimləri nəzarətə götürüblər. Məhkəmədən sonra onlar haqqında nə qərar veriləcəyi bəlli olacaq. Üç ay əvvəl xərçəng diaqnozu qoyulan kişinin ölməməsi ailəsini həm sevindirib, həm də şoka salıb.

## Danışan robotun son ismarışı

Dünyanın ilk danışan robotu kosmosdan Yerə qayıtdıqdan sonra ilk səsli videomesajını göndərib. Bu, həm də Kirbo adlandırılan robotun göndərdiyi son ismarış olub. Beləki, Kirbo Beynəlxalq Kosmik Stansiyada 1 il yarım keçirdikdən sonra, necə deyərlər, yorularaq "təqaüdə" çıxıb. "Ümid edirəm ki, hərdənbir səmaya baxaraq məni düşünəcəksiniz. Mən sizi unutmayacağam, nə də olsa, mən robotam axı!" - ilk danışan robot son ismarışında belə deyib. 34 santimetr hündürlüyündə olan humanoid robot ötən il kosmosa göndərilmiş və yapon astronavt Koiçi Vakata ilə insan-robot ünsiyyətinin uğurla sınaqdan keçirilməsində iştirak etmişdi.



## Telefon sinəsini yandırdı

İngiltərədə yaşayan qadın enerji toplamağa qoyduğu telefonu ilə birlikdə yatdığı üçün özünə zərər verib. Həddən artıq isinən telefon qadının sinəsinin yanmasına səbəb olub. "Daily Mail"in xəbərinə görə, Dionne Baxter adlı qadın İpone 4 markalı telefonu ilə birgə yatdığı üçün bədbəxt hadisə baş verib. Oyandığı zaman sinəsində ağrı və yanma hiss edən qadın güzgüyə baxarkən sinəsinin yandığını görüb. 10 santimetrlik dərin yanıq izi ilə oyanan qadın yaxınlıqdakı xəstəxanaya gedib. Həkimlər qadının əynindəki paltarın nazik olduğu üçün onun bədənində dərin yanıq əmələ gəldiyini deyiblər.

Son zamanlarda İpone markalı telefonlarda tez-tez görünən yanma və yandırma halları şirkətin imicinə xeyli zərər vurub. İki həftə əvvəl də Jake Parker adlı oğlanın qolu bənzər hadisə nəticəsində yanmışdı.




**QOÇ** - Ulduzların düzümü maddi çətinliklərinizdən xəbər verir. Çalışın ki, büdcənizdə olan vəsaiti boş məsrəflərə xərcləməyəsiniz. Ailə üzvlərinizin problemlərinə laqeyd yanaşmayın.

**BUĞA** - Böyük dəyişikliklər astanasındasınız. Hətta lazımi məqamda düzgün qərar çıxarsanız, ayın sonuna qədər ovqatınız xoş olacaq. Tərəddüd etdiyiniz məsələləri isə təxirə salmalısınız.

**ƏKİZLƏR** - Özünüzü nə qədər təmkinli aparsanız, işləriniz də bir o qədər uğurlu gedəcək. Hansısa xırdaçılığa görə hisslərinizi kandara çıxarmayın. Axşama yaxın maraqlı hadisələr gözlənilir.

**XƏRÇƏNG** - Astroloji göstəricilər potensial imkanlarınızın genişlənəcəyini göstərir. Əgər gücünüzə inanırsınızsa, boş dayanmağa lüzum yoxdur. Axşam rəqiblərinizdən təhlükə gözlənilir.

**ŞİR** - Adi bir gün yaşayacaqsınız. Hansısa böyük bir iş görəcəyiniz və ya qanqaraçılığı ilə rastlaşacağınız ağlabatan deyil. Bu gün riskdən, eləcə də yeni sövdələşmələrdən uzaq olmalısınız.

**QIZ** - Dünəndən mənfi yüklü Ay bürcünüzə girdiyi üçün həmkarlarınızla, yaxınlarınızla mübahisələriniz mümkündür. Bu səbəbdən gün ərzində daxili sabitliyinizi qorumalısınız.

**TƏRƏZİ** - Kosmik gərginlik sizi müşayiət etsə də, çılğınlıq etməsəniz, günü sakit tərzdə başa vuracaqsınız. Nahardan sonra sizi səbəbsiz münaqişələrə cəlb etmək istəyəcəklər.

**ƏQRƏB** - Yeni əlaqələr qurmaq istəyirsinizsə, bu tarixdən maksimum yararlanmağa çalışın. Nüfuzlu adamların köməyindən istifadə edin. Gəlişixoş sözlər işlətməyin. Onsuz da buna heç kim inanmayacaq.

**OXATAN** - Olduqca səmərəli bir təqvim yaşayacaqsınız. Cərəyan edən proseslər bütünlüklə zövqünüzə uyğun olacaq. Amma daxili orqanlarınızı da qorumalısınız. Ağır fiziki işlərə ara verin.

**OĞLAQ** - Göy qübbəsi gün ərzində sizi bir neçə dəfə sınaqdan keçirməyə çalışacaq. Buna hazır olun və hər hansı məişət problemini özünüzə dərd etməyin. Şəxsi işlərinizdə dönüş yaranmaqdadır.

**SUTÖKƏN** - Nə qədər güclü olsanız da, təkbaşına hansısa vəzifənin öhdəsindən gələcəyinizi düşünməyin. Çünki sizə dəstək verən olmasa, uğurlu olaylardan uzaq düşəcəksiniz. Bəxtinizdə pul var.

**BALIQLAR** - Qarşınızda duran bu maraqlı təqvimi bürcünüz üçün ən perspektivli ana çevriləcək. Sizə qarşı hiyləgər mövqedə duranlara əl-qol açmağa macal verməyin. Lazımi məqamlarda sərtlik də göstərin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Zəlzələni əvvəldən xəbər verdi



Berkeley Universitetinin professorları tərəfindən hazırlanan siqnalizasiya sistemi San-Fransiskoda baş verən zəlzələni 10 saniyə əvvəldən xəbər verib. 6 bal gücündəki zəlzələni 10 saniyə öncədən xəbər verən sistem onlarla insanın həyatını xilas edib. Siqnalizasiya sistemi bütün ölkədə fəaliyyətə başlayarsa, zəlzələdən 10 saniyə əvvəl qatarlar və metrolar dayanacaq, əhaliyə zəlzələ haqda xəbər vermək mümkün olacaq.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.000